RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 265 (10010) 17 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## “Konstitusiya və Suverenlik İli”nin humanizm səhifəsi

### Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçiriləcək ən böyük amnistiya on minlərlə ailəyə sevinc yaşadacaq

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu yeni müstəqil Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi Prezident İlham Əliyevin siyasi-hərbi və diplomatik qələbələri ilə tam təmin edilib.Vaxtilə Ümummilli Liderin rəhbərliyi ilə qəbul edilmiş və müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmış Azərbaycan Respublikasının Konstitusiyası bütün ərazilərimizdə hüquqi qüvvəyə minib. 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri nəticəsində əldə edilən tarixi qələbələr xalqımızın həyatında bütün sahələrdə mühüm hadisələrin yaşanmasına da birbaşa rəvac verib. Elə "Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyevin amnistiya elan edilməsi təşəbbüsü ilə çıxış etməsinin özünün də rəmzi mənası var.

Belə ki, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi kimi nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azadetmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək, Prezident İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Prezident tərəfindən Azərbaycan Milli Məclisinə təqdim olunan Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

6

## Azərbaycan Bəhreyn ilə ənənəvi dostluq əlaqələrinin və əməkdaşlığının dərinləşdirilməsini uğurla davam etdirəcək

### Bəhreynin Kralı əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə



Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu il Azərbaycanın Bəhreyndə səfirliyinin təsis edilməsi ikitərəfli münasibətlərimizin yeni müstəviyə keçməsinin bariz nümunəsi, böyük potensiala malik əlaqələrimizin bütün sahələrdə inkişaf etdirilməsinə verdiyimiz önəmin təzahürüdür.

İnanıram ki, xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq qarşılıqlı etimad və hörmət üzərində qurulmuş Azərbaycan-Bəhreyn ənənəvi dostluq əlaqələrinin və əməkdaşlığının dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Bəhreyn xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 dekabr 2025-ci il*

## Respublikamızın dinamik sosial-iqtisadi inkişafı həmkarlar ittifaqlarının qarşısında strateji vəzifələr qoyur

### Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayında salamlayıram.

Azərbaycan həmkarlar ittifaqları çoxşaxəli fəaliyyəti, əmək münasibətlərinin inkişafında rolu və vətəndaş cəmiyyətinin möhkəmlənməsinə verdiyi töhfələrlə respublikanın ictimai və sosial həyatında önəmli yer tutur.

Ölkəmizdə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, layiqli iş şəraitinin yaradılması, sosial tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılır. Müasir dövrün çağırışlarına çevik uyğunlaşmaq, həmkarlar ittifaqları üzvləri ilə sıx əlaqələr qurmaq, xidmətləri rəqəmsallaşdırmaq, müvafiq sahələrdə süni intellektin tətbiqi imkanlarını genişləndirmək, xidmət keyfiyyətini və məmnunluq səviyyəsini yüksəltmək xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq əmək standartlarına uyğun fəaliyyət, dünya həmkarlar hərəkatı ilə əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsi həmkarlar ittifaqlarının nüfuzunun daha da artırılmasına xidmət edir. Güclü və sağlam vətəndaş cəmiyyətinin inkişafında, həmrəyliyin möhkəmlənməsində həmkarlar ittifaqları mühüm işlər görür.

Respublikamızın dinamik sosial-iqtisadi inkişafı, "yaşıl iqtisadiyyat"a ədalətli keçid, süni intellektin əmək bazarına təsiri həmkarlar ittifaqlarının qarşısında məsuliyyətli və strateji vəzifələr qoyur, onları daha fəal olmağa sövq edir. İşçilərlə işəgötürənlər arasında sosial dialoqun əsas tərəfdaşı və əmək dəyərlərinin qoruyucusu kimi çıxış edən həmkarlar ittifaqları peşə birliklərinin möhkəmləndirilməsi, işçilərin maarifləndirilməsi, əmək hüquqları sahəsində onların bilik və bacarıqlarının artırılması prosesində yaxından iştirak etməlidir. Bütün bunlar əmək münasibətlərinin düzgün tənzimlənməsinə, sosial ədalətin və qarşılıqlı məsuliyyətin təmin olunmasına xidmət edir.

Azərbaycan dövləti həmkarlar ittifaqlarının müstəqil və sərbəst fəaliyyət hüququnu qanunvericilik çərçivəsində tam təmin edir və bu sahədə onların azad fəaliyyəti üçün geniş imkanlar yaradıbdır.

Sahəhəmkarlar ittifaqlarının sosial tərəfdaşlarla səmərəli əməkdaşlığın dərinləşdirilməsinə və qarşılıqlı etimad mühitinin formalaşdırılmasına, kollektiv məsuliyyətin artırılmasına xüsusi diqqət yetirilməlidir.

Hörmətli qurultay iştirakçıları!

Əminəm ki, Azərbaycan həmkarlar ittifaqları bundan sonra da üzvlərinin hüquq və maraqlarını əzmlə müdafiə edəcək, əmək münasibətlərinin müasir və sivil əsaslarla tənzimlənməsinə, bütünlükdə ölkəmizin sosial-iqtisadi inkişafına töhfələr verəcəkdir.

Hesab edirəm ki, bu qurultay həmkarlar hərəkatının yeni çağırışlara uyğun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və təkmil fəaliyyət strategiyasının formalaşması baxımından böyük önəm daşıyacaqdır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2025-ci il*

## Avropa İttifaqı yenidən sülhə qarşı

### Aİ ilə rəsmi İrəvan arasında imzalanan sənəd sülh sazişinin müddəaları ilə ziddiyyət təşkil edir



Sülh müqaviləsinin digər mühüm bəndlərindən biri də delimitasiya və demarkasiya prosesi başa çatana qədər sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması üçün qarşılıqlı razılaşdırılmış, hərbi sahə də daxil olmaqla, təhlükəsizlik və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur.

6

## Zəngəzur dəhlizi sayəsində Ankara ilə Bakının siyasi və iqtisadi çəkisi artacaq




Azərbaycan Prezidenti İlham Əliyevin Zəngəzur dəhlizinin Azərbaycan hissəsində işlərin böyük hissəsinin başa çatması ilə bağlı fikirləri nəqliyyat və logistika təşəbbüsünün reallaşdırılmasında həlledici mərhələnin yaxınlaşdığını göstərir. Azərbaycanda avtomobil və dəmir yollarının, tunellərin və logistika infrastrukturunun tikintisində ciddi irəliləyişlər fonunda, Ermənistandan keçən hissənin istismara verilməsi səyləri gündəmdə əsas məsələyə çevrilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin CNN türk televiziya kanalının Zəngəzur dəhlizi mövzusunda reportajında deyilib.

Telekanal qeyd edib ki, sülh prosesinin irəliləyəcəyi təqdirdə Ermənistandan keçən dəhliz yaxın illərdə açıla bilər. Bu dəhliz Cənubi Qafqazda güc balansını uzunmüddətli əsasda Azərbaycan və Türkiyənin xeyrinə dəyişməyə imkan verəcək.

"Ankara ilə Bakının siyasi və iqtisadi çəkisi artacaq. Zəngəzur dəhlizi Türkiyə üçün Orta Asiya ölkələri ilə strateji alternativ ticarət marşrutu kimi xüsusi əhəmiyyət kəsb edir", - deyə reportajda vurğulanıb.

Azərbaycanın, xüsusən də ölkəmizin işğaldan azad edilmiş ərazilərində iqtisadi imkanları barədə bəhs edən "Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri" (TÜİB) İctimai Birliyinin İdarə Heyətinin sədri Hüseyn Büyükfıratın fikirlərinə istinad edilir.

TÜİB rəhbəri dekabrın 23-də Bakıda keçirilməsi planlaşdırılan və Türkiyənin vitse-prezidenti Cövdət Yılmaz və ticarət naziri Ömər Bolatın iştirakı gözlənilən II Azərbaycan-Türkiyə İnvestisiya Forumunun əhəmiyyətini vurğulayıb.

## Ölkəmizin enerji sektorunda daha bir yenilik

### Azərbaycan MDB-də ən iri Batareya Enerji Saxlanc Sistemlərinə sahib olur

Nəhəng BESS-in ilk partiyası artıq son ünvana çatdırılıb və təyinatı üzrə sahələrə quraşdırılıb. Xüsusi sifariş əsasında Çinin "Great Power" zavodunda istehsal olunan avadanlıqlar minlərlə kilometrlik uzun və çətin yol qət edərək ölkəmizə gətirilib.

8



## Ermənistanda revanşistlərin siyasi dayaqları yoxdur

### Bu onu göstərir ki, belə qüvvələri cəmiyyət qəbul etmir



Sülhə mane olmağa çalışan revanşist qüvvələr Qarabağ ermənilərinin öz evlərinə qaytarılmasının Ermənistan-Azərbaycan danışıqlarının gündəliyinə salınmalı olduğunu bəyan ediblər. Həmin sərsəm bəyanatda deyilir ki, bu hüquqların təmin edilməsi üçün effektiv mexanizmlər olmadan ATƏT-in Minsk qrupunun buraxılması qəti şəkildə qəbuledilməzdir. Hadisələrin gedişi onu deməyə əsas verir ki, Ermənistandakı və ölkə xaricindəki revanşist qüvvələr hələ də "böyük Ermənistan" xülyası ilə yaşayırlar. Ona görə də Paşinyanı devirib xarici güclərin köməyilə yenidən hakimiyyətə gəlmək istəyirlər. Daim sülhün tərəfində olan, yeni müharibə istəməyən Azərbaycan isə Ermənistan tərəfini dəfələrlə revanşist meyillərlə bağlı xəbərdar edib. Ermənistanda yeni konstitusiya ilə bağlı məsələ xeyli müddətdir ki, gündəmdədir. Baş nazir Nikol Paşinyan dəfələrlə bu mövzuya toxunsa da, ölkədəki siyasi vəziyyət səbəbindən konkret addım atmaqdan çəkinib.

6

# Baş nazir Əli Əsədov Rusiyanın Həştərxan vilayətinin qubernatoru ilə görüşüb



**Dekabrın 16-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinlə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan Respublikasının Rusiya Federasiyasının müxtəlif subyektləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlığı qeyd olunub.

İqtisadi-ticari sahədə və investisiya sektorunda qarşılıqlı fəaliyyətin artırılması, nəqliyyat-logistika, mədəni-humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu vurğulanıb. Həştərxan vilayəti tərəfindən Qubadlı rayonunda uşaq bağçasının inşası qeyd edilib.

Söhbət zamanı "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafına, həmçinin Xəzər dənizinin dayazlaşması probleminə xüsusi diqqət yetirilib.

# YAP Sədrinin müavini Tahir Budaqov Türkiyədə səfərdə olub

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə 15 Dekabr - Dünya Türk Dili Ailəsi Günü münasibətilə Ankara şəhərində keçirilən tədbirdə iştirak edib.**






Türkiyə Respublikasının Prezidenti, AK Parti Sədri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən tədbirdə partiyanın "Türk Dünyası Strateji Baxış Sənədi" təqdim olunub.

Tədbirdə çıxış edən AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Kürşad Zorlu konsepsiyada qarşıya qoyulan əsas hədəfin türk dövlətləri arasında bütün səviyyələrdə əlaqələrin daha da möhkəmləndirilməsi və türk dünyasının ortaq gələcəyinin formalaşdırılması olduğunu bildirib.

Daha sonra Prezident Rəcəb Tayyib Ərdoğan çıxış edərək beynəlxalq müstəvidə, o cümlədən türk dünyasında sülh və təhlükəsizlik naminə işbirliyinin önəmini nəzərə çatdıraraq xalqların rifahı və ölkələrin tərəqqisi naminə beynəlxalq hüquq normalarına əsaslanan məqsədyönlü siyasətin vacibliyinə toxunub.

Dövlət başçısı çıxışında Türk Dövlətləri Təşkilatının yaradılması və çoxşaxəli fəaliyyətinin türk dünyasında birlik və əməkdaşlığın gücləndirilməsində müstəsna rolunu qeyd edərək "Türk Dünyası Strateji Baxış Sənədi"nin qəbul olunması ilə bu istiqamətdə çox mühüm bir addım atıldığını vurğulayıb. "Türk xalqlarının çoxəsrlik bilik və təcrübəsini özündə ehtiva edən bu sənəd növbəti yüzilliyin hədəflərinin gerçəkləşdirilməsində önəmli bir bələdçi rolunu oynayacaqdır", - deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

O, ortaq türk əlifbası ilə belə bir konseptual sənədin hazırlanmasını AK Partinin qlobal məsuliyyət hissi ilə türk dünyasında həmrəyliyi gücləndirmək iradəsinin konkret təzahürü adlandırıb: "Türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirməyi və institusional çərçivədə çoxşaxəli əməkdaşlığı gücləndirməyi hədəfləyirik. İqtisadi inkişafa, mənəvi həmrəyliyə nail olmaq, strateji əməkdaşlığı və regional təhlükəsizliyi təmin etmək gələcəyə baxışımızın mərkəzində duran əsas məqsədlərdir. Sənədi hazırlayarkən mövcud beynəlxalq müqavilələri, ikitərəfli və çoxtərəfli əməkdaşlığı, qlobal prosesləri nəzərə almışıq. Eyni zamanda türk dünyasında siyasi və iqtisadi transformasiyaları, ölkələrimizin xarici siyasət perspektivlərini diqqət mərkəzində saxlayaraq milli maraqları rəhbər tutmuşuq".

Rəcəb Tayyib Ərdoğan mədəni əməkdaşlıqdan iqtisadi inteqrasiyaya, enerji təhlükəsizliyindən çoxşaxəli nəqliyyat şəbəkələrinə, təhsildən gənclər siyasətinə qədər geniş sahələri ehtiva edən sənədin türk dövlətlərinin mövcud potensialından səmərəli istifadə etməyi hədəflədiyini vurğulayıb: "Türk dünyasının gələcəyi ilə bağlı planlar ümumi təkliflərdən konkret layihələrə çevrilir. Biz koordinasiyanı gücləndirən, qərar qəbuletmə mexanizmlərini sürətləndirən və birgə layihələrin həyata keçirilməsini mümkün edən idarəetmə modelini təqdim edirik. Bu addımlar sayəsində əməkdaşlığımız daha sistemli olacaq, qərarlar operativ və effektiv şəkildə icra ediləcək".

Türkiyə Prezidenti BMT-nin mədəniyyət agentliyi olan UNESCO-nun Səmərqənddə keçirilən Baş Konfransının qərarı ilə 15 dekabrın Dünya Türk Dili Ailəsi Günü elan olunmasının əhəmiyyətinə toxunaraq bu xüsusda türk dövlətlərinin qarşısında duran vəzifələrə diqqəti cəlb edib.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, TBMM-in üzvü Kürşad Zorlunun adından tədbir iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətə də qatılıb.

*"Azərbaycan"*

# "Azərbaycan-Ermənistan sülh danışıqlarında indiki əsas vəzifə razılaşdırılmış müddəaların həyata keçirilməsidir"

**"Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının mövcud mərhələsi hər iki ölkənin liderlərinin onilliklər ərzində davam etmiş münaqişədə yeni mərhələyə keçmək niyyətini nümayiş etdirdiyini təsdiqləyib. Liderlərin davamlı və dayanıqlı sülhə sadiqliyi siyasi iradənin formalaşdığını göstərir. İndiki mərhələdə əsas vəzifə razılaşdırılmış müddəaların praktiki olaraq həyata keçirilməsidir. Bu prosesin uğuru üçün hər iki ölkənin cəmiyyətlərinin geniş dəstəyi zəruridir".**

Bu fikirləri AZƏRTAC-a məxsusi müsahibəsində Dini Azadlıq üzrə Amerika Mərkəzinin baş icraçı direktoru (CEO), ABŞ Daxili Təhlükəsizlik Departamentində keçmiş direktor müavini, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ-dəki direktoru Janna Skot deyib.

J.Skotun sözlərinə görə, hazırkı şəraitdə ən real sülh mexanizmi Cənubi Afrikada Nelson Mandela və Desmond Tutu tərəfindən həyata keçirilmiş "Həqiqət və barışıq" modelinə uyğun yanaşma ola bilər. Bu model keçmişdə baş verən hüquq pozuntularının etirafını, qurbanlara dəstək və reabilitasiya tədbirlərinin təmin edilməsini, bütün ictimai təbəqələrin prosesə cəlb olunmasını, tarixi həqiqətlərin açıq şəkildə müzakirəsini nəzərdə tutur. Belə bir yanaşma zəruri psixoloji, sosial və institusional şəfanı təmin edə, uzunmüddətli sabitliyin əsasını qoya bilər.

"Azərbaycan-Ermənistan sülh prosesi kontekstində bu modelin tətbiqi qarşılıqlı dialoqların dərinləşdirilməsini, icma və yerli səviyyədə müntəzəm görüşlərin təşkilini, məcburi köçkünlərin geri dönüşü və reinteqrasiya planlarını, birgə iqtisadi və sosial layihələrin həyata keçirilməsini, nəsillər boyu toplanmış travmaların aradan qaldırılması üçün institusional dəstəyin göstərilməsini tələb edir. Bu, mərhələli və davamlı səylər tələb edən uzunmüddətli prosesdir", - deyə o əlavə edib.

Milli Məclisin iclasında

# Əmək Məcəlləsi təkmilləşdirilir

**Dekabrın 16-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda, əvvəlcə cari məsələlərin müzakirəsi keçirilib. Komitə sədri Şahin İsmayılov, deputatlar Razi Nurullayev, Aqil Abbasov, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Azər Badamov, Əli Məsimli, Məlahət İbrahimqızı, Tural Gəncəliyev, Asif Əsgərov çıxış edərək gündəmdə olan bəzi məsələlər barədə öz fikirlərini bölüşüblər.**



Çıxışlarda Prezident İlham Əliyevin humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq irəli sürdüyü amnistiya elan edilməsi təşəbbüsünün əhəmiyyəti barədə fikirlər səsləndirilib. Millət vəkilləri Azərbaycan Prezidentinin amnistiya təşəbbüsünü dəstəklədiklərini bildirərək, bu addımı Prezidentin və dövlətimizin öz vətəndaşlarına diqqət və qayğısının bariz nümunəsi kimi yüksək dəyərləndiriblər.

Deputatlar dövlət başçısının Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiqliyini qeyd edərək, onun insan hüquqlarına həmişə xüsusi həssaslıqla yanaşdığını, qanunların aliliyinin qorunması istiqamətində məqsədyönlü addımlar atdığını vurğulayıblar. Heydər Əliyevin ölkəyə rəhbərliyi dönəmində Azərbaycanda ölüm hökmü cəzasına moratorium qoyulduğunu, bir müddət sonra isə yaşamaq hüququnun üstün tutularaq bu cəzanın ləğv edildiyini bildiriblər. Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi sahəsində hər zaman təqdirəlayiq işlərin görüldüyünü söyləyiblər.

İclasda qərbi azərbaycanlıların hüquqlarının bərpası və ata-baba yurdlarına qayıtması məsələsinə də toxunulub, bu problemin tənzimlənməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edilib, o cümlədən Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun yaradılması təqdirəlayiq hesab olunub.

Millət vəkilləri bir sıra aktual mövzularla bağlı da fikirlərini açıqlayıblar.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iclasda 10 məsələnin müzakirə ediləcəyini bildirib. O, gündəliyin ilk 3 məsələsinin beynəlxalq sənədlərin təsdiqi ilə bağlı qanun layihələrinin olduğunu deyib. Spiker "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq, həmin qanun layihələrinin bir oxunuşda baxılaraq qəbul ediləcəyini söyləyib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib. Komitə sədri bildirib ki, sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin, o cümlədən Şuşa Bəyannaməsində təsbit olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə, tərəflərin qarşılıqlı olaraq dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün müdafiə sahəsində əməkdaşlığının gücləndirilməsinə xidmət edir. Memorandumun əsas məqsədi hərbi təhlükəsizlik sahəsində qarşılıqlı koordinasiyanın gücləndirilməsi, birgə hərbi təlimlərin keçirilməsi kimi sahələrdə əlaqələrin inkişaf etdirilməsidir.

Arzu Nağıyev deyib ki, 8 maddədən ibarət sənədə əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər. Tərəflərin bir-birlərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və müvafiq milli qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. Sənədə uyğun olaraq, tərəflər öz qanunvericiliklərinə əsasən, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat üzrə əməkdaşlığı gücləndirəcək, hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları bir-biri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə biləcəklər.

Vurğulanıb ki, Anlaşma Memorandumu beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçiriləcək, üçüncü dövlətlərə qarşı yönəlməyib və regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Türkiyə arasında əlaqələrin genişləndiyini söyləyib və bunun Azərbaycanın sülh və davamlı inkişaf konsepsiyasına uyğun olduğunu vurğulayıb. O, rəhbərlik etdiyi komitənin sənədə müsbət rəy verdiyini bildirib.

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Sahib Alıyev məsələyə dair öz fikirlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov gündəlikdəki digər məsələni - "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, Saziş 1968-ci il aprelin 22-də imzalanıb. Saziş kosmik gəminin şəxsi heyətinin qəzaya uğraması, təcili və gözlənilmədən eniş etməsi barədə məlumat alan tərəfin vəzifələrini müəyyən edir, bu sahədə yarana biləcək münasibətlərin səmərəli şəkildə tənzimlənməsini nəzərdə tutur. Sazişdə kosmonavtlara bütün mümkün olan yardımların göstərilməsi, onların təhlükəsizliyinin təmin edilməsi və digər məsələlərlə bağlı müddəalar öz əksini tapıb. Sazişdə habelə texniki, inzibati məsələlər, xilasetmə tədbirlərinin həyata keçirilməsi qaydaları, imzalanma və ratifikasiya ilə bağlı prosedurlara dair tələblər də ehtiva olunur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov sənəd barədə bu komitənin müsbət rəyini açıqlayıb. Deputatlar Müşfiq Məmmədli və Ülviyyə Həmzəyeva fikirlərini bildirdikdən sonra qanun layihəsi qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Sazişə əsasən, razılığa gələn tərəflərdən hər biri digərinə yerə enmədən öz dövlətinin ərazisi üzərindən uçmaq və qeyri-kommersiya məqsədləri üçün öz dövlətinin ərazisində dayanmaq, həmçinin bu Sazişin Əlavəsində göstərilən marşrutlar üzrə beynəlxalq hava əlaqələrini yerinə yetirmək məqsədilə digər hüquqlar verir. Tərəflər mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsinin və belə hava gəmilərinin, onların sərnişinlərinin və heyətinin, hava limanlarının və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən digər qanunsuz hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyinə qarşı hər hansı bir təhlükənin qarşısının alınması üçün müraciət əsasında bir-birlərinə bütün lazımi yardımı göstərirlər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədin Azərbaycanın milli maraqlarına uyğun olduğunu deyib və rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini söyləyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun layihəsi, o cümlədən Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd olunub ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun 6-cı və "Dövlət rüsumu haqqında" qanunun 26-cı maddələrində daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə tutulan dövlət rüsumunun dərəcələri müəyyən edilir. Bura daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatına alınması ilə bağlı reyestrdən çıxarışın, texniki sənədlərin verilməsi, torpaq sahələri üzərində hüquqların qeydiyyatı üçün mərzçəkmə işlərinin görülməsi, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına dair dövlət reyestrindən arayışın verilməsi, ipotekanın dövlət qeydiyyatına alınması, eləcə də daşınmaz əmlaka dair digər hüquqi hərəkətlər aiddir.

Bildirilib ki, layihədə təklif olunan dəyişiklik sosial cəhətdən həssas əhali kateqoriyasının - müharibə ilə əlaqədar, 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar, o cümlədən Çernobıl AES-də hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, habelə şəhid ailəsi statusu almış şəxslərin həmin xidmətlərə və hüquqi hərəkətlərə görə dövlət rüsumundan azad olunmasını nəzərdə tutur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Daha sonra komitə sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Layihə vergi rezidentliyinin müəyyən olunması üçün Vergi Məcəlləsində müvafiq dəyişikliyin edilməsini nəzərdə tutur. Qeyd edilib ki, Azərbaycan "Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma"ya qoşulub. Bununla ölkəmiz ümumi hesabatlıq standartını tətbiq etmək barədə öhdəliyi öz üzərinə götürüb. Standart "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda öz əksini tapıb. Qaydalara əsasən, maliyyə institutu tərəfindən müştərilər üçün hesab yalnız müştərinin müvafiq məlumat və sənədləri təqdim etdiyi halda açıla bilər.

Qeyd olunub ki, Qlobal Forum tərəfindən 2020-ci ildən etibarən standartın tətbiqi istiqamətində ölkələrin qiymətləndirilməsinə başlanılıb. Qiymətləndirmə prosesi çərçivəsində bu sahədə Azərbaycanda qəbul edilmiş qanunvericilik müddəaları beynəlxalq təşkilat tərəfindən yoxlanılıb və müəyyən tövsiyələr verilib. Diqqətə çatdırılıb ki, beynəlxalq təşkilatın verdiyi tövsiyə nəzərə alınaraq, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 76-1.2-ci və 76-1.3-cü yeni maddələrin əlavə edilməsi təklif olunur.

Qanun layihəsinin qəbul edilməsi Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sazişlər üzrə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi, davam edən qiymətləndirmə prosesi çərçivəsində yüksək reytinqin əldə olunması, eyni zamanda daxili qanunvericiliyin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması üçün şərait yaradacaq.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Sənəddə təklif edilən dəyişikliklər Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi və sosial təminatına dair bir sıra məsələlərin daha təkmil tənzimlənməsini nəzərdə tutur.

Nəzərə çatdırılıb ki, "Dövlət qulluğu haqqında" qanunda dövlət qulluqçuları üçün nəzərdə tutulmuş təminatları tənzimləyən 33.2-ci maddə yeni redaksiyada verilir, dövlət qulluqçusunun pensiya yaşına çatmasına görə öz arzusu ilə və ya qulluqda olmanın son yaş həddinə çatması ilə əlaqədar qulluğa xitam verilməsi zamanı birdəfəlik haqqın verilməsinə dair mexanizmlər təkmilləşdirilir. Qanuna əlavə edilən yeni müddəalara əsasən, əvvəllər tənzimlənməyən bir sıra münasibətlərə dair (dövlət qulluqçusunun hərbi xidmətə çağırılması ilə əlaqədar və s.) yeni hüquqi əsaslar yaradılır, dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə dövlət qulluqçusunun vərəsələrinə müavinət ödənilməsi, dövlət qulluqçusu müddətli həqiqi hərbi və ya alternativ xidmətə çağırıldıqda ona müavinət ödənilməsi, habelə orta aylıq dövlət məvacibinin məbləğinin müəyyənləşdirilməsi qaydası ilə əlaqədar digər məsələlərin qanunvericilik əsasları müəyyən edilir.

Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər fiziki şəxslərin gəlir vergisindən azad olmasını nəzərdə tutan müddəaların dəqiqləşdirilməsi, "Sosial sığorta haqqında" qanuna təklif edilən dəyişiklik isə məcburi dövlət sosial sığorta haqqı hesablanmayan gəlir növlərinin siyahısının dəqiqləşdirilməsi məqsədi daşıyır.

Bu məsələ barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov komitələrin rəylərini açıqladıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, layihə 18 qanun üzrə 178 maddədə 457 dəyişikliyi ehtiva edir. Dəyişikliklərin əksəriyyəti Əmək Məcəlləsinə aiddir, digər 17 qanuna təklif edilən dəyişikliklər isə Əmək Məcəlləsində nəzərdə tutulan dəyişikliklər çərçivəsində hazırlanıb, uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyır.

Millət vəkili qeyd edib ki, layihəyə əsasən, 3 əsas istiqamət üzrə Əmək Məcəlləsində dəyişikliklər edilməsi nəzərdə tutulur. Bunlardan birincisi mahiyyəti üzrə təkmilləşdirmə məqsədi daşıyan, habelə əmək münasibətlərində çevik və sosialyönümlü hüquqi tənzimləmələrin tətbiqini, həmçinin müasir iş şəraitinə uyğun olaraq yeni anlayışların qanunvericiliyə gətirilməsini hədəfləyən dəyişikliklərdir. İkincisi, BƏT-in Konvensiyalarına və beynəlxalq təcrübəyə uyğun olaraq milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə edilən, üçüncüsü isə "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun tələblərindən irəli gələrək uyğunlaşdırma çərçivəsində edilən dəyişikliklərdir.

Sonra Soltan Məmmədov layihədə təklif olunan dəyişikliklərin mahiyyəti barədə geniş məlumatı deputatların diqqətinə çatdırıb.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bu komitələrin qanun layihəsi barədə rəylərini açıqlayıblar.

Deputatlar Qüdrət Həsənquliyev, Elçin Mirzəbəyli, Nigar Məmmədova, Fatma Yıldırım məsələ barədə bəzi fikir və qeydlərini söylədikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayı keçirilib

**Dekabrın 16-da Qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla yad edərək önünə əklil və gül dəstələri qoyublar.**











Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Qurultay iştirakçıları həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Sonra AHİK-in VIII Qurultayı öz işinə başlayıb. Tədbirdə qurultay nümayəndələri ilə yanaşı, dövlət və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, beynəlxalq təşkilatların və bir sıra ölkələrin həmkarlar ittifaqının rəhbərləri də iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov cənab Prezident İlham Əliyevin qurultay iştirakçılarına məktubunu oxuyub.



Sonra AHİK-in 2018-2025-ci illər üzrə fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Baş Kollektiv Sazişə əsaslanan sosial tərəfdaşlığın inkişafı nəticəsində əldə olunan uğurlardan bəhs edib, ölkəmizdə həyata keçirilən davamlı sosial-iqtisadi islahatların həmkarlar ittifaqlarının da səmərəli fəaliyyətinə və üzvlərinin rifahının yüksəldilməsinə əlverişli şərait yaratdığını diqqətə çatdırıb.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışıb, qanunvericiliyin beynəlxalq əmək standartlarına uyğunlaşdırıldığını vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək işçi hüquqlarının qorunmasında, Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın işində AHİK-in rolundan danışıb, qurumun təşəbbüslərinin, eləcə də kollektiv saziş mexanizmlərinin təkmilləşdirilməsi və sosial tərəfdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətinin ölkəmizdə həyata keçirilən sosial siyasəti dəstəklədiyini bildiriblər.

Tədbirdə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının baş katibi Luk Trianqlın və Beynəlxalq Əmək Təşkilatı İşçilərin Fəaliyyəti Bürosunun direktoru Oliver Röpkenin qurultaya videomüraciəti izlənilib.

Həmçinin qurultayda çıxış edən Pan-Avropa Regional Şurasının sədri İqor Zubku, Türkiyə İşçi Həmkarlar İttifaqları Konfederasiyasının sədri Ərgün Atalay, Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədri Qudratulla Rafiqov, Qazaxıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Satıbaldı Dauletalin, Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Muradil Cumadilde, Türkiyə Kamu-Sen Həmkarlar İttifaqları Konfederasiyasının sədri Öndər Kahveçi, Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyinin sədri Gezim Kalaya və Türkiyə Metal İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının sədri Uysal Altundağ AHİK-in beynəlxalq əməkdaşlığın inkişafına verdiyi töhfələri və Azərbaycanın sosial dialoq modelini müsbət qiymətləndirib, qurultayın işinə uğurlar arzulayıblar.

Sonra reqlamentə uyğun olaraq qurultayın Rəyasət heyəti, Mandat, Redaksiya və Hesablayıcı komissiyalarının tərkibi və Katiblik seçilib, gündəlik təsdiqlənib.

Qurultayın gündəliyinə konfederasiyanın 2018-2025-ci illər üzrə fəaliyyəti haqqında hesabat, Təftiş komissiyasının hesabatı, yeni Nizamnamə layihəsinin və qarşıdakı dövr üçün əsas fəaliyyət istiqamətlərinin müzakirəsi daxil edilib.

Konfederasiya sədri Sahib Məmmədov hesabatla çıxış edərək Ümummilli Lider Heydər Əliyevin həmkarlar ittifaqlarının inkişafındakı rolunu və 1994-cü ildə Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmiş "Həmkarlar ittifaqları haqqında" qanunun əhəmiyyətini vurğulayıb, cənab Prezident İlham Əliyevin həmkarlar ittifaqlarına verdiyi davamlı dəstəyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan və həmkarlar ittifaqı üzvlərini də əhatə edən humanitar və sosial layihələrin ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verdiyini qeyd edib.

Hesabat məruzəsində konfederasiyanın əmək hüquqlarının müdafiəsi, layiqli əmək şəraitinin yaradılması, əməyin təhlükəsizliyi, Baş Kollektiv Sazişdən irəli gələn öhdəliklərin icrası, gender, gənclər, idman və təhsil sahəsində görülən işlər barədə geniş məlumat verilib. Bununla yanaşı, təkmilləşdirilmə tədbirlərinin və struktur islahatlarının həyata keçirildiyi, "Kurort" Turizm İnformasiya Mərkəzi, Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi, "Həmkarların Sağlam Gələcəyi Naminə" İctimai Birlik və "Çağrı Mərkəzi" kimi yeni qurumların yaradıldığı, həmçinin "Buzovna", "Bilgəh", "Abşeron", "Kurort Naftalan" və "Günəşli" sağlamlıq mərkəzlərində şəraitin yaxşılaşdırıldığı diqqətə çatdırılıb.

Konfederasiya sədri 2025-2027-ci illər üzrə AHİK-in İnkişaf Strategiyasının icrasının gedişi, rəqəmsallaşma prosesi, şəffaflıq, əlçatanlıq və operativliyin təmin olunması məqsədilə yollayışların verilməsinin elektronlaşdırılması, "AHİK könüllüləri", "Layiqli Əmək Səfirləri", "Həmkardan həmkara qayğı ilə", "Sağlamlığa doğru qaç", bu gün start verilən "AHİK Plus" və digər sosial layihələr barədə ətraflı məlumat verib. Bildirilib ki, əmək hüquqlarının müdafiəsi ilə yanaşı, "yaşıl iqtisadiyyat"a keçid, süni intellekt dövründə iş yerlərinin qorunması, layiqli iş yerinin təmin edilməsi, sosial tərəfdaşlığın gücləndirilməsi AHİK-in əsas hədəfləri sırasındadır.

Sonra Təftiş komissiyasının hesabatı dinlənilib. Ardınca konfederasiyanın 2018-2025-ci illər üzrə fəaliyyəti barədə və Təftiş komissiyasının hesabatları ilə bağlı müzakirələr aparılıb, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayev, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnara Muradova, Aqrar, Ekologiya və Su Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Respublika Birliyinin sədri Məmməd Həsənov çıxış ediliblər.

Müzakirələrdən sonra AHİK-in qurultaylararası dövr üzrə və Təftiş komissiyasının hesabatları, eləcə də yeni Nizamnaməsi təsdiq olunub, gələcək fəaliyyət istiqamətləri müəyyən edilib. Bununla da AHİK-in VIII Qurultayı işini başa çatdırıb.

***"Azərbaycan"***

# Amnistiya aktının 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir

**Dekabrın 16-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əli Hüseynli bildirib ki, Prezident İlham Əliyev amnistiya elan olunması təşəbbüsünü irəli sürüb və iclasın birinci məsələsi də "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərar layihəsidir. Qeyd olunub ki, layihə 4 hissədən ibarətdir.

Komitə sədri layihənin amnistiya tətbiq edilən şəxslərin dairəsi, amnistiyanın tətbiqinə məhdudiyyətlər, amnistiya aktının hüquqi qüvvəsi və tətbiqi qaydaları adlı hissələri barədə məlumat verib. Bildirilib ki, indiyədək tətbiq edilmiş ən böyük amnistiya aktı olacaq bu sənəd 20 mindən çox şəxsə şamil ediləcək. Humanistlik aktı olan amnistiyaların elan olunmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və Azərbaycan həmişə bir dövlət kimi bu sahədə nümunə olub. Komitə sədri bu aktın "Konstitusiya və Suverenlik İli"nin sonunda xalqımıza verilmiş ən böyük töhfələrdən biri olacağına əminliyini ifadə edib.

İclasda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev, komitə üzvləri Azay Quliyev, Mübariz Qurbanlı, Nurlan Həsənov, Bəhruz Məhərrəmov amnistiya aktını ölkəmizdə həyata keçirilən humanist siyasətin ən uğurlu göstəricilərindən biri kimi xarakterizə ediblər. Deputatlar bunun ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra ilk amnistiya aktı kimi mühüm əhəmiyyətindən danışıblar, belə bir təşəbbüs irəli sürdüyünə görə seçicilərinin adından Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.

İclasda çıxış edən ədliyyə nazirinin müşaviri Seyfəlpaşa Əliyev amnistiya aktı ilə bağlı bir sıra məsələlər barədə məlumat verib.

Sonra komitə sədri Əli Hüseynli bildirib ki, gündəliyin növbəti məsələsi - Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) dövlət qulluğunun hüquqi və sosial təminatına dair bir sıra məsələlərin daha təkmil tənzimlənməsini nəzərdə tutur.

Diqqətə çatdırılıb ki, gündəlikdəki 3-cü məsələ - Əmək Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) isə əmək münasibətlərində çevik və sosialyönümlü tənzimləmələrin tətbiqini, əmək normalarının beynəlxalq əmək normaları nəzərə alınmaqla təkmilləşdirilməsini nəzərdə tutur.

Müzakirələrdən sonra gündəlikdəki hər üç məsələ Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Sağlamlığın qorunmasına xidmət edən təşəbbüs

**Dekabrın 16-da Milli Məclisin Aqrar siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Əmək və sosial siyasət komitələrinin birgə iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirə olunub.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev tütün və tütün məmulatlarının, eləcə də elektron siqaretlərin insan sağlamlığına zərərli təsirlərindən söz açıb. O bildirib ki, bu məhsullar bir çox sağalmaz xəstəliyin yaranmasına səbəb olur və məsələ ilə bağlı deputatlar tərəfindən dəfələrlə təşəbbüslər irəli sürülüb. Tahir Rzayev qeyd edib ki, problemin aktuallığını nəzərə alaraq, son illərdə tütün məmulatlarının dövriyyəsi və istifadəsinin məhdudlaşdırılması istiqamətində bir sıra qanunverici aktlar qəbul edilib. Bununla belə insanların, xüsusilə gənclərin tütün və elektron siqaret məhsullarına çıxışının məhdudlaşdırılması, onların təşviqinin qarşısının alınması öz aktuallığını qoruyub saxlayır. Komitə sədri bildirib ki, məhz bu məqsədlə Milli Məclisin komitə sədri Fazil Mustafanın təşəbbüsü ilə təqdim olunan qanun layihəsi hazırlanıb.

İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa layihədə təklif olunan dəyişikliklər barədə məlumat verib. O bildirib ki, qanun layihəsi elektron siqaretlərin və onların komponentlərinin dövriyyəsinin - idxalının, ixracının, istehsalının, saxlanılmasının, topdan və pərakəndə satışının və istifadəsinin qadağan edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb. Komitə sədri vurğulayıb ki, qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübə və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri nəzərə alınıb. O, dəyişikliklərin əhalinin sağlamlığının qorunması, xüsusilə gənc nəslin zərərli vərdişlərdən uzaq tutulması baxımından əhəmiyyətini vurğulayıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edərək tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması və onların reklamının qadağan olunması ilə bağlı ölkədə mövcud olan qanunvericilik bazasından söz açıb. Bu qanunvericilik bazasının icrası və real tətbiqi ilə bağlı məsələlərə toxunub, müzakirəyə çıxarılan layihədə təklif olunan dəyişikliklərlə və bəzi anlayışların dəqiqləşdirilməsi ilə bağlı qeydlərini və təkliflərini səsləndirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, qanun layihəsindəki dəyişikliklər cəmiyyətin sağlam həyat tərzinə təşviq olunmasına xidmət edir. Komitə sədri qeyd edib ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklər "Tütün və tütün məmulatı haqqında" qanuna təklif olunan dəyişiklikdən irəli gəlir. Belə ki, elektron siqaretlərin dövriyyəsi qadağan edildiyindən "birdəfəlik istifadə üçün elektron siqaret"in və "elektron siqaretlər üçün maye"nin aksizli mallar siyahısından çıxarılması və bundan irəli gələrək vergi dərəcələrinin ləğvi həyata keçirilir. Vurğulanıb ki, təqdim olunan dəyişikliklər sosial məqsədlərin reallaşdırılmasını və cəmiyyətin sağlamlığının qorunmasını hədəfləyir.

Müzakirələrdə Milli Məclisin komissiya sədri Eldar İbrahimov, komitə sədrlərinin müavinləri Jalə Əliyeva, Azər Badamov, Elşad Musayev, deputatlar Əlibala Məhərrəmzadə, Novruzəli Aslanov, Vüqar İskəndərov, Aydın Hüseynov, Göydəniz Qəhrəmanov, Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri Validə Sadıxova, Milli Məclis Aparatının şöbə müdirləri Adil Vəliyev və Məhəmməd Bazıqov çıxış edib fikirlərini və bəzi qeydlərini bildiriblər.

Yekunda qanun layihəsi birinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransı (NASCO XXVIII) başlayıb

**Dekabrın 16-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransının (NASCO XXVIII) açılış mərasimi baş tutub.**













Konfrans Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilib.

Konfransda dövlət rəsmiləri, yerli və xarici qonaqlar, tanınmış elm xadimləri, ali təhsil müəssisələrinin rektorları, professor-müəllim heyəti, doktorantlar və gənc tədqiqatçılar iştirak ediblər.

Konfransdan əvvəl Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın əziz xatirəsi ehtiramla yad olunub, məzarları önünə əklil və gül dəstələri qoyulub.

Açılış mərasimi Dövlət himninin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

İlk çıxış edən ADNSU-nun rektoru Rüfət Əzizov konfransın ölkənin elmi həyatında uzun illərdir mühüm platforma rolunu oynadığını bildirib. NASCO XXVIII-də dayanıqlı inkişaf məqsədlərinin əhatə olunduğunu deyən rektor statistik göstəricilərə əsaslanaraq qeyd edib ki, NASCO XXVIII qəbul olunmuş 609 iştirakçı ilə ümumi göstəricilər üzrə liderdir. Eyni zamanda qəbul edilmiş məqalələrin sayı 600-ü ötüb.

Konfrans haqqında geniş təqdimatla çıxış edən rektor onu da diqqətə çatdırıb ki, konfransa Azərbaycandan 61, xarici ölkələrdən isə 11 ali təhsil müəssisəsi və institutun doktorant və gənc tədqiqatçılarının tezisləri qəbul olunub. Rektor ADNSU-da gənc alimlər üçün yaradılmış müasir elmi mühitdən və gənc tədqiqatçıların təşviqinə yönəlmiş imkanlardan danışıb və konfransın yaratdığı elmi imkanların bu istiqamətdə mühüm töhfə olacağını deyib.

Elm və təhsil naziri Emin Əmrullayev ölkənin elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlər və gələcək prioritetlər barədə çıxış edib. Nazir çıxışında xüsusilə vurğulayıb ki, elm və təhsil Azərbaycan üçün strateji prioritetdir və məqsəd yalnız nəzəri biliklərin artırılması deyil, həm də elmin iqtisadiyyat və cəmiyyətlə inteqrasiyasını gücləndirməkdir.

Emin Əmrullayev deyib ki, sentyabrdan ölkədə tətbiq olunacaq yeni nəsil doktorantura proqramları gənc alimlərin elmi fəaliyyətlərini beynəlxalq standartlara uyğun aparmağa imkan verəcək. O vurğulayıb ki, ali təhsildə multidisiplinar yanaşmanın genişləndirilməsi, AMEA-da aparılan struktur islahatları, qrant və maliyyə mexanizmlərinin modernləşdirilməsi, startap ekosistemi və texnoparkların inkişafı Azərbaycan elmi potensialını gücləndirib. Nazir qeyd edib ki, bu islahatlar və təşəbbüslər ölkəmizin elm və innovasiya sahəsində gələcək inkişafına əsas yaradır. Sonda NASCO XXVIII-in gənc alimlər üçün elmi nəticələrin təqdimatı və fikir mübadiləsi baxımından vacib platforma olduğunu qeyd edərək konfransın işinə uğurlar arzulayıb.

Rəsmi açılış mərasimindən sonra konfrans öz işini bölmələr üzrə davam etdirib. Qeyd edək ki, iki gün davam edəcək konfrans çərçivəsində "Akademik Yusif Məmmədəliyevin ölməz irsi və müasir kimyanın perspektivləri", "Elm əsaslı innovasiya" mövzularında panel müzakirələr və müxtəlif elmi istiqamətləri əhatə edən məruzələr təşkil olunacaq.

Konfransın əsas məqsədi gənc tədqiqatçıların elmi fəaliyyətini stimullaşdırmaq, elmi fikir mübadiləsini genişləndirmək və təcrübə paylaşımı üçün platforma yaratmaqdır.

## 17 Dekabr Müdafiə Sənayesi Nazirliyi İşçilərinin Peşə Bayramı Günüdür

# Misri qılıncdan döyüş PUA-larınacan

### Böyük Zəfərimizdə öz silahlarımız da sözünü dedi

**2009-cu ildən başlayaraq hər il dekabrın 17-də ölkəmizdə Müdafiə Sənayesi Nazirliyi (MSN) işçilərinin peşə bayramı günü qeyd edilir. Prezident İlham Əliyev bu barədə sərəncamı həmin il noyabrın 10-da imzalayıb.**




Əvvəla qeyd edək ki, MSN dövlətimizin başçısının sərəncamı ilə 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə yaradılıb. Bu mühüm addım Azərbaycan Ordusunu və qanunvericilikdə nəzərdə tutulan digər silahlı birləşmələri müasir döyüş texnikası və silah-sursatla təmin etmək məqsədi daşıyıb. Ötən 20 il ərzində nazirlik bir çox uğura imza atıb. Bu müddətdə nazirliyin müəssisələrində müasir növ silahlar, döyüş sursatları, hərbi texnika, mühəndis-texniki vasitələr və digər müdafiə təyinatlı məmulatlar müvəffəqiyyətlə istehsal edilərək Silahlı Qüvvələrə təhvil verilib.

44 günlük Vətən müharibəsi ölkəmizin müdafiə sənayesi məhsullarının da böyük bir sınağı oldu. Başqa sözlə, 30 ilə yaxın bir dövrdə işğal altında qalan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə bu məhsullar da öz "söz"ünü cəsarətlə dedi. Haqq savaşımızda MSN-in istehsalı olan müasir silah-sursatın, pilotsuz uçuş aparatlarının uğurlu tətbiqi tarixi Qələbənin qazanılmasında əhəmiyyətli rol oynadı. O cümlədən pilotsuz uçuş aparatları özünü yüksək səviyyədə doğrultdu.

Vətən müharibəsində qazandığı şanlı zəfərdən sonra ölkəmiz ilk dəfə 2022-ci ildə keçirilən IV ADEX sərgisində daha müasir silahlarını təqdim etdi. Sərgidə MSN-in müəssisələrində buraxılan yeddi növ yeni pilotsuz uçuş aparatı göstərildi. Kamikadze "İti qovan" məşhur pilotsuz uçuş aparatı, eləcə də "Aerostar" və "Orbiter-4" də sərgidəki məhsullar sırasında oldu. MSN-in açıq havada olan ekspozisiyasında yeni "Gürzə" avtomobilləri, eləcə də modernizə olunmuş transportyor nümayiş etdirildi.

Qısa müddətdə MSN tabeli müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatları beynəlxalq sərgilərdə nümayiş etdirməklə yanaşı, Azərbaycanda ADEX adı altında beynəlxalq müdafiə sərgilərinin keçirilməsinin təşkilatçısına çevrildi. Qeyd edildiyi kimi, Bakıda IV ADEX Azərbaycan Beynəlxalq Müdafiə və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri keçirildi. Bu, müasir silah və texnikanın nümayiş olunduğu genişmiqyaslı tədbirlər idi. Həmin sərgilərdə dünyanın 30-a yaxın ölkəsindən 200-dən çox şirkət iştirak etdi. Sərgilərdə Azərbaycan Ordusunun Qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar, ümumilikdə 1000-dən artıq silah-sursat istehsal edən MSN-in birlik və müəssisələrinin 179 adda məhsulu nümayiş olundu.

Növbəti il noyabrın 22-dən 25-dək isə BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində "Bakı-Ekspo" Mərkəzində "SPECA ölkələri sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərgi baş tutdu.

Keçən il sentyabrın 24-26-da Bakıda nazirliyin təşkilatçılığı ilə "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi keçirildi. Sentyabrın 24-də Prezident İlham Əliyev sərgiləri ziyarət etdi. Dövlətimizin başçısı Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC-nin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Belə ki, sərgidə "Azərsilah"a məxsus pavilyonda ziyarətçilərə PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, avtomatik top, zirehli gödəkcələr, aviabombalar, təlim simulyatorları, müxtəlif növ atıcı silahlar, snayper tüfəngləri, minaatanlar, müxtəlif növ mərmilər, zirehli dəbilqə və zirehli gödəkçələr, optik nişangah və cihazlar təqdim olunurdu.

Sərgilər zamanı MSN və tabeli qurumları ilə bir sıra xarici dövlət təşkilatları və özəl şirkətlər arasında sənədlər, MSN-nin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC ilə Azərbaycan Müdafiə Nazirliyi arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair Anlaşma Memorandumunun imzalanması, bir çox mövzuda panel müzakirələrin aparılması da önəmli hadisələr idi.

Sərgilərdə ziyarətçilər "Bakı-Ekspo" Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara da baxdılar. Tədbirdə ilk dəfə öz stendi ilə təmsil olunan Müdafiə Nazirliyi tərəfindən müasir silah sistemləri, o cümlədən Xüsusi Təyinatlı Qüvvələrin təchizat vasitələri, zirehli texnikalar nümayiş etdirildi. Sərgilərdə eləcə də MSN-in müəssisələrində yaradılan müxtəlif növ atıcı silahlar, yaxın məsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları, ümumilikdə 193 adda müdafiə təyinatlı məmulat göstərildi.

Qeyd edək ki, ADEX və "Securex Caspian" sərgiləri məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə şərait yaratmaq baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Bu, Azərbaycanın müdafiə qabiliyyətini inkişaf etdirmək əzmini təsdiqləyən faktlardan biridir. Onu da deyək ki, növbəti - 6-cı Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin 2026-cı ilin sentyabr ayında keçirilməsi nəzərdə tutulur.

Bu yaxınlarda isə MSN-nin yaradılmasının 20 illiyi ilə bağlı təşkil olunan silsilə tədbirlər çərçivəsində Milli Aerokosmik Agentliyində "Süni intellekt: sənayedə tətbiqi, hüquqi aspektləri, beynəlxalq təcrübə" mövzusunda seminar keçirildi. Tədbirdə Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyində səsləndirdiyi fikirlərin süni intellektin inkişafı, elmi potensialın gücləndirilməsi və yeni texnoloji həllərin genişləndirilməsi baxımından mühüm yol xəritəsi olduğu vurğulandı. Son illərdə müdafiə sənayesində süni intellektin tətbiqi, tədqiqatların dəstəklənməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və kadr potensialının artırılması istiqamətində ardıcıl və sistemli işlər görüldüyü qeyd edildi.

Deyilənlərə onu da əlavə edək ki, MSN-nin müəssisələrində istehsal edilən məhsullar həmçinin ixraca yönəldilir və bu nailiyyət də nazirliyin müvəffəqiyyətləri sırasında önəmli yer tutur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "2030-cu ildə Avropanın "yaşıl enerji"si türk dövlətləri tərəfindən təmin olunacaq"

**"Avroasiya məkanında son illərdə müşahidə olunan geosiyasi proseslər fonunda türkdilli dövlətlərin yeni siyasi-iqtisadi birlik kimi yüksəlişi qlobal gündəmin əsas istiqamətlərindən birinə çevrilib. Əgər əvvəlki dövrlərdə türk ölkələri arasında əlaqələr parçalanmış şəkildə idisə, bu gün artıq institusional əsaslara malik vahid əməkdaşlıq sistemi formalaşıb. Türk Dövlətləri Təşkilatının fəallığı, çoxtərəfli təşəbbüslərin genişlənməsi və enerji, logistika, "yaşıl iqtisadiyyat" sahələrində reallaşan layihələr türk dövlətlərini müasir dövrdə yüksələn "türk sivilizasiyası" modeli kimi önə çıxarır".**

Bunu AZƏRTAC-a açıqlamasında özbək politoloq İslamxon Qafarov bildirib.

Onun sözlərinə görə, türk dövlətlərinin inteqrasiyası artıq dünya siyasətində yeni sivilizasion xətt formalaşdırır: "Əgər Samuel Hantinqton öz məşhur əsərində dünya sivilizasiyalarının yüksəlişi barədə danışırdısa, bu gün türk dövlətləri birliyi artıq müasir dövrdə yeni, vahid sivilizasiya modeli kimi özünü təsdiqləyib. Bu, Hantinqtonun proqnozlarından kənar formalaşan yeni geopolitik reallıqdır".

İslamxon Qafarov qeyd edib ki, Türk Dövlətləri Təşkilatı iqtisadi, sosial və ekoloji sahələrdə dayanıqlı inkişaf prioritetlərini müəyyənləşdirərək enerji təhlükəsizliyini əsas strateji xətt kimi götürüb. Onun sözlərinə görə, Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələri bu prosesin aparıcı qütbləridir.

Ekspert əlavə edib ki, 2024-cü ilin dekabrında Azərbaycan, Qazaxıstan və Özbəkistanın Avropaya "yaşıl enerji"nin ixracı ilə bağlı imzaladıqları mühüm saziş türk dövlətlərinin qlobal enerji xəritəsində rolunu əhəmiyyətli dərəcədə artırıb: "Proqnozlara əsasən, təkcə Özbəkistan 2030-cu ilədək Avropaya 10-15 milyard kilovat-saat təmiz enerji göndərə bilər. Bu, türk dövlətlərini Çin və Avropa arasında "yaşıl enerji" tranzitinin əsas qovşağına çevirir".

Politoloq bildirib ki, Çin-Qırğızıstan-Özbəkistan-Qazaxıstan-Türkmənistan-Azərbaycan-Türkiyə xətti Avropa İttifaqına qədər uzanan yeni strateji enerji dəhlizi yaradır.

"Özbəkistanın Buxara, Nəvai, Xarəzm və Qaraqalpaq bölgələri güclü Günəş və külək enerjisi potensialına malikdir. Ölkə təkcə daxili tələbatı təmin etmək deyil, həm də regionlara və qitələrə enerji ixrac etmək imkanına sahibdir. Qırğızıstan və Tacikistan hidroenerji resursları, Türkmənistan isə TAPİ layihəsi çərçivəsində tranzit gücü ilə seçilir".

İslamxon Qafarov bildirib ki, türk dövlətləri çoxvektorlu diplomatiya yürüdərək eyni anda Çin, Rusiya, Avropa, Cənubi Asiya və Yaxın Şərq istiqamətləri üzrə balanslaşdırılmış siyasət həyata keçirir:

"Yaşıl enerji" dəhlizlərinin inkişafı türk dövlətlərinə müxtəlif geosiyasi mərkəzlərlə praqmatik əməkdaşlıq imkanı yaradır. Bu, onların beynəlxalq sistemdə çəkisini artırır və tranzit rolunu daha da möhkəmləndirir".

Ekspertin sözlərinə görə, "yaşıl iqtisadiyyat"ın qlobal trendə çevrildiyi bir dövrdə türk dövlətlərinin əlverişli coğrafi mövqeləri onları Avroasiya məkanında enerji axınlarının həlledici bağlayıcı halqasına çevirir: "Dünya "yaşıl enerji"yə keçidi sürətləndirir və böyük enerji axınlarının əsas bağlayıcısı məhz türk dövlətləri olacaq".

Sonda İslamxon Qafarov qeyd edib ki, enerji əməkdaşlığının dərinləşməsi Türk Dövlətləri Təşkilatının regional və qlobal nüfuzunu artıraraq onun Avroasiyanın geosiyasi arxitekturasında uzunmüddətli strateji mövqeyini möhkəmləndirəcək.

# Həştərxan vilayətinin qubernatoru Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini anıb

**Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyəti dekabrın 16-da Fəxri xiyabanı ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə tər çiçəklər düzüb.

Görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər qoyulub.

# Həştərxan vilayətinin nümayəndə heyəti Bakıda "Qardaşlıq məzarlığı"nı və Rixard Zorgenin abidəsini ziyarət edib





Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyəti dekabrın 16-da Bakıda "Qardaşlıq Məzarlığı" Əbədi Xatirə Kompleksini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri burada İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə həlak olmuş qəhrəmanların xatirəsini dərin ehtiramla anıb, kompleksin önünə gül dəstələri qoyublar. Sonra qonaqlar Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin abidəsini ziyarət ediblər. Abidənin önünə gül dəstələri düzülüb, görkəmli kəşfiyyatçının xatirəsi ehtiramla anılıb.

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edir

**Daha öncə məlumat verildiyi kimi, 15 dekabrda Qətər Dövlətinin paytaxtı Doha şəhərində BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyası öz işinə başlayıb.**

130-dan artıq dövlətin rəsmi heyətlərinin və çoxsaylı beynəlxalq və regional təşkilatların nümayəndələrinin təmsil olunduğu tədbirdə baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğunun məsul əməkdaşlarından ibarət geniş tərkibli nümayəndə heyəti iştirak edir.

Tədbirin ilk hissəsində assambleyanın fəaliyyətinin təşkili ilə əlaqədar məsələlər müzakirə edilib, assambleyanın yeni sədri və müavinləri seçilmişdir. Keçirilmiş səsvermə nəticəsində Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Vyana şəhərindəki bölməsi, ATƏT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli Konvensiyaya Tərəf Dövlətlərin 11-ci Assambleyası sədrinin Şərqi Avropa regionu üzrə müavini seçilib.

Assambleyanın ilk günündə Plenar iclasda çıxış edən baş prokuror Kamran Əliyev qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əsaslı islahatlar həyata keçirilib. Bundan sonra o, ötən assambleyadan keçən müddət ərzində qəbul edilmiş yeni qanunvericilik aktları barədə məlumat vermişdir. O həmçinin qeyd edib ki, informasiya texnologiyalarının inkişafı korrupsiya və əlaqəli cinayətlərdən də yan keçməyib.




Belə ki, cinayətkarlığın ənənəvi formaları ilə yanaşı, qabaqcıl texnologiyalardan istifadə etməklə törədilən və mürəkkəbliyi ilə fərqlənən cinayətlərin də artım tendensiyası müşahidə edilir və bu sahədə ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən görülmüş tədbirlər barədə də məlumat verib.

Baş prokuror həmçinin qeyd edib ki, ölkəmiz bir sıra beynəlxalq və regional təşəbbüslərin aktiv iştirakçısı olmaqla yanaşı, qlobal tədbirlərin keçirildiyi mərkəzə də çevrilməkdədir.

Bakı şəhəri cari ilin may ayında BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) 6-cı Plenar iclasına evsahibliyi edib, 90-dan artıq ölkənin 300-dən yuxarı nümayəndəsinin qatıldığı tədbirdə şəbəkənin fəaliyyətinə töhfə verən bir sıra vacib sənədlər qəbul olunub.

Növbəti ildə isə Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə Qurumlarının 3-cü iclasına evsahibliyi edəcəkdir.

Bundan əlavə, baş prokuror korrupsiyaya qarşı mübarizə fəaliyyətinin özünün rastlaşdığı çətinliklər, o cümlədən korrupsiyanın miqyasının və ona qarşı mübarizə fəaliyyətinin effektivliyinin dəyərləndirilməsi ilə bağlı praktiki boşluqları qeyd edərək ölkəmizin ekspertlərinin də yaxından iştirakı ilə BMT-nin dəstəyilə hazırlanmış yeni metodologiyanın aktuallığını vurğulayıb.

Sessiya öz fəaliyyətini dekabr ayının 19-dək davam etdirəcəkdir və tədbir çərçivəsində bir sıra görüşlərin keçirilməsi nəzərdə tutulur.

Assambleyanın sessiyasında həmçinin ölkəmizin Qətər Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri Adış Məmmədov da iştirak edir.

# *Amerikalı ekspert:* "Konqresdə Azərbaycanla bağlı qanunun qəbulu münasibətlərin normallaşdırılmasında daha bir addım olacaq"

**"ABŞ Nümayəndələr Palatasına Azərbaycana qarşı tətbiq edilmiş silah embarqosunu aradan qaldıracaq qanun layihəsinin təqdim edilməsi çox yaxşı xəbərdir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Qlobal Siyasət İnstitutunun prezidenti, Vaşinqtondakı Bay Atlantik Universitetinin (BAU) politologiya və beynəlxalq münasibətlər üzrə professoru Paolo Von Şirah deyib.

O bildirib ki, təbii olaraq, qanunun qəbulu bir müddət vaxt aparacaq və bunun üçün layihə həm Nümayəndələr Palatası, həm də Senat tərəfindən təsdiqləndikdən sonra Prezident Tramp tərəfindən imzalanmalıdır. Lakin bunun əhəmiyyəti ondadır ki, onlar Qafqazda vəziyyətin tamamilə normala qayıtdığını qəbul edirlər.

"Təbii ki, Azərbaycan xalqı da bilir ki, hələ də həll olunmamış bəzi məsələlər var. Lakin bütün məsələləri, problemləri həll etmək üçün Azərbaycan ilə Ermənistan arasında fəal danışıqlar aparılır. Aydındır ki, ərazi məsələləri artıq problem deyil və bir daha qaldırılmayacaq. Bu baxımdan ABŞ Konqresinin Azərbaycana qarşı heç bir səbəb olmadan ayrı-seçkilik yaradan hər hansı qanunvericilik aktını aradan qaldırmaq üçün tədbir görməsi yaxşı haldır. Beləliklə, sözügedən qanun qəbul ediləcəyi təqdirdə bu, ABŞ hökuməti ilə Azərbaycan hökuməti arasında münasibətlərin normallaşdırılmasında daha bir addım olacaq", - deyə ekspert əlavə edib.

# Fövqəladə Hallar Nazirliyinin yaranmasının 20 illiyi qeyd olunub

**Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyi (FHN) işçilərinin peşə bayramı günü və nazirliyin yaranmasının 20-ci ildönümü ilə əlaqədar təntənəli mərasim keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzülüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Ardınca mərasim iştirakçıları FHN-in Akademiyasında nazirliyin xüsusi texnikalarından ibarət sərgi ilə tanış olublar. Sərgidə Azərbaycan FHN-in strukturuna daxil olan qurumların istifadəsində olan ən müasir texnika və avadanlıqlar nümayiş olunub.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra FHN-in şəxsi heyətinin təntənəli keçidi olub.

Daha sonra FHN-in Akademiyası ilə tanışlıq olub. Qonaqlara akademiyada fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib, akademiyanın Muzeyi, konfrans zalı və kitabxanaya baş çəkilib.

Mərasim FHN Akademiyasının akt zalında davam etdirilib. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra tədbir iştirakçıları nazirliyin İctimaiyyətlə əlaqə idarəsi tərəfindən hazırlanmış və Azərbaycan FHN-in 20 illik tarixindən bəhs edən videoçarxı izləyiblər.

Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov mərasimdə çıxış edib. Peşə bayramı və əlamətdar yubiley münasibətilə FHN-in şəxsi heyətini, bu illər boyu çiyin-çiyinə çalışmış hər kəsi ürəkdən təbrik edən nazir FHN-in əməkdaşlarına çətin, lakin şərəfli işlərində daim uğurlar arzulayıb.

Nazir bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində bu gün dünya birliyinin layiqli üzvünə, böyük nüfuza malik qüdrətli dövlətə çevrilib.

Kəmaləddin Heydərov ötən 20 il ərzində dövlətimizin başçısının diqqət və qayğısı sayəsində FHN-in ən müasir maddi-texniki imkanlara malik, istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparmaq iqtidarında olan peşəkar dövlət orqanı kimi formalaşdığını vurğulayıb.

Bildirib ki, FHN yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı texnika və avadanlıqların əksər hissəsi fiziki və mənəvi köhnəlməyə məruz qalmışdı və müasir tələblərə cavab vermirdi. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində qısa zamanda nazirliyin texnika parkının müasirləşdirilməsi istiqamətində ciddi addımlar atıldı, büdcə vəsaitləri hesabına dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və avadanlıqlar alınaraq istismara verildi. Ötən illər ərzində alınan tək xüsusi texnikaların sayı 1134, o cümlədən yanğınsöndürmə avtomobillərinin sayı 789-dur. Bundan əlavə, yüzlərlə digər texniki vasitələr alınaraq istismara verilib. Qısa müddətdə Bakıda və respublikanın bölgələrində 9 regional mərkəzin fəaliyyəti təmin edildi, qurumların istifadəsi üçün yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir olundu, yeniləri tikildi. Belə ki, yola salınan illər ərzində yalnız yanğından mühafizə üzrə 80 ədəd yeni depo binası tikilərək istifadəyə verilib.

Nazir vurğulayıb ki, xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanması, əməkdaşların ixtisaslarının artırılması və fövqəladə hallar sahəsində elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Prezidentinin sərəncamı ilə 2008-ci ildə yaradılan FHN-in Akademiyası ötən müddətdə bakalavriat pilləsi üzrə 1650, magistratura pilləsi üzrə 121 nəfər məzun yetişdirib: "Ümummilli Lider Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" müdrik kəlamını öz fəaliyyət prinsipi kimi qəbul edən FHN fövqəladə halların vaxtında xəbərdar edilməsi və maarifləndirməni zəruri fəaliyyət istiqamətləri sırasında müəyyən edib. Ötən illər ərzində orta hesabla hər il 70 minə yaxın obyektdə yanğın-texniki müayinə, 4 minə yaxın obyektdə tikintiyə dövlət nəzarəti, 3,3 mindən artıq obyektdə təhlükə potensiallı qurğu və avadanlıqlar üzrə texniki müayinə, 200-ə yaxın obyektdə nüvə və radioloji təhlükəsizlik üzrə nəzarət-yoxlama tədbirləri, 1700-dən artıq kiçikhəcmli gəmiyə texniki baxış keçirilib".

Nazirliyin görülən kompleks tədbirlər sayəsində ötən illər ərzində baş vermiş müxtəlif mürəkkəblik dərəcəsinə malik fövqəladə hadisələrlə mübarizədən uğurla çıxdığını deyən Kəmaləddin Heydərov yanğın-xilasetmə əməliyyatlarına dair statistikaya diqqət çəkib. Qeyd edib ki, son 20 il ərzində ölkə iqtisadiyyatının üç dəfədən çox böyüdüyünü, çoxsaylı yeni istehsal müəssisələri və iş yerlərinin yaradıldığını, çoxşaxəli kommunikasiya sistemlərinin istifadəyə verildiyini, irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, əhalinin sayının 2007-ci ildə təxminən 8 milyon yarımdan artaraq 2024-cü ildə 10 milyonu keçməsini nəzərə almaqla, 2007-ci ildə ölkə üzrə 4 min 517 təbii və texnogen mənşəli hadisə qeydə alınmışdısa, 2024-cü il ərzində bu rəqəm 14 min 856-ya bərabər olub. Bununla belə, hadisələrin sayında böyük artıma baxmayaraq, 2007-ci ildə göstərilən hadisələrdə 131 nəfər insan tələfatı qeydə alınmışdısa, 2024-cü ildə təbii və texnogen mənşəli hadisələrdə 83 nəfər həyatını itirib. Hadisələrin sayında bu qədər artım qarşısında insan itkisinin sayında azalma FHN-in çevik və effektli fəaliyyətinin mühüm göstəricisi olmaqla əldə edilən ən ciddi uğurlardan biri kimi dəyərləndirilməlidir. Bundan əlavə, nazirlik yaranandan 2024-cü il də daxil olmaqla, yanğın-xilasetmə qurumları tərəfindən yanğınlar, dağıntılar, qəzalar və digər fövqəladə hallar zamanı ümumilikdə 29 minə yaxın zərərçəkmiş, o cümlədən su hövzələrində batma təhlükəsində olan 5 min 700-ə yaxın şəxs xilas edilib. "Təkcə bir rəqəmi qeyd etsək, insanların FHN-ə olan güvəni barədə aydın təsəvvür yaranmış olar. Belə ki, yanğın, partlayış, avtoqəza, tikintidə, sənayedə və dağ-mədən işlərində təhlükəsizlik qaydalarının pozulması və digər məsələlərlə bağlı "112" qaynar xəttinə 2024-cü il ərzində 2,2 milyona yaxın və ya orta hesabla hər gün 6 mindən artıq zəng daxil olub. Ötən illər ərzində dünyanın bir çox ölkəsinin uyğun qurumları, habelə müvafiq beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı münasibətlər qurulub. Bu münasibətlər çərçivəsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlər təşkil olunur, təcrübə mübadiləsi aparılır, əməkdaşların beynəlxalq təlim, seminar və treninqlərdə fəal iştirakı təmin olunur. Dövlətimizin başçısının tapşırıqları əsasında nazirliyin qüvvələri ötən illər ərzində müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin humanitar yardımların çatdırılması əməliyyatlarını da uğurla yerinə yetiriblər. Bu ilin iyul ayında Bakı şəhərində keçirilmiş Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasında FHN-in nümayəndəsinin təşkilatın baş katibi seçilməsi isə sözsüz ki, ölkəmizin qlobal nüfuzundan, durmadan artan beynəlxalq çəkisindən xəbər verir", - deyə nazir diqqətə çatdırıb.

Kəmaləddin Heydərov bir məsələni xüsusi vurğulayaraq bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətin bütün resurslarını səfərbər edirlər. 2010-cu ilin yaz aylarında Aran bölgəsində Kür və Araz çaylarında yaranmış daşqınların vurduğu ziyanın, 2012-ci ilin may ayında Zaqatala, Balakən və Qax rayonlarında, 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən güclü zəlzələlərin nəticələrinin aradan qaldırılması ilə əlaqədar görülmüş tədbirlər ölkə rəhbərliyinin ağır məqamda daim xalqla bir yerdə olmasının, insanların dərd-sərinin, problemlərinin həllini həmişə diqqətdə saxlamasının bariz nümunələridir. Dövlətimizin başçısının xüsusi nəzarəti altında daşqın və zəlzələlərin ziyan vurduğu rayonlarda ən müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının, sosial təyinatlı və infrastruktur obyektlərinin tikintisi həyata keçirilib, əhali yeni, müasir evlərlə təmin edilib. Dövlətimizin başçısının imzaladığı sərəncamlara uyğun olaraq, Kür-Araz daşqınları ilə əlaqədar ümumilikdə 4 min 481 ev, 2012-ci ildə baş vermiş zəlzələ ilə əlaqədar 5 min 668 ev, 2019-cu il zəlzələsi ilə əlaqədar isə 695 ev və 3 ədəd çoxmənzilli bina tikilib, 2 min 247 ev isə bərpa olunaraq vətəndaşların istifadəsinə verilib. Bu istiqamətdə Heydər Əliyev Fondunun gördüyü böyük işlər də xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Nazir qeyd edib ki, FHN-in qüvvələri Vətən müharibəsi günlərində cəbhəboyu zonada yaşayan əhalinin təhlükəsiz məntəqələrdə yerləşdirilməsi və hər cür təminatının təşkili, döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin təyyarə və helikopterlərlə təxliyəsi, Ermənistanın mülki obyektlərə endirdiyi zərbələr nəticəsində yaranan yanğın və dağıntıların operativ aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, onlara psixoloji yardımın təşkili kimi vəzifələri şərəflə yerinə yetirib. Bu gün isə nazirliyin yerli strukturları işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatını, aparılan irimiqyaslı bərpa-yenidənqurma işləri ilə bağlı tikinti, texniki, yanğın və nüvə təhlükəsizliyinə nəzarəti həyata keçirir, doğma Qarabağ və Şərqi Zəngəzurda fövqəladə hallarla uğurla mübarizə aparır.

FHN-in əməkdaşlarının fiziki sağlamlığına xüsusi diqqət yetirdiyini bildirən nazir deyib ki, ötən müddətdə müxtəlif idman növləri üzrə (taekvondo, karate, güləş, cüdo, boks, kikboksinq, ağırlıqqaldırma, stolüstü tennis, voleybol, minifutbol və s.) nazirliyin komandaları, əməkdaşları və idmançı üzvləri Olimpiya Oyunları, İslam Həmrəyliyi Oyunları, MDB Oyunları, Dünya və Avropa çempionatları, beynəlxalq turnir və respublika yarışlarında uğurla çıxış edərək 256 qızıl, 318 gümüş və 532 bürünc medal qazanıblar.

Ötən illər ərzində qazanılan bütün uğurların əsasında dövlətimizin başçısının daim nazirliyə göstərdiyi diqqət və qayğının dayandığını vurğulayan nazir qeyd edib ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla nazirliyin xidmətdə fərqlənən ümumilikdə 513 əməkdaşı müxtəlif orden və medallara, 34 nəfər fəxri ada layiq görülüb.

Çıxışının sonunda peşə bayramı münasibətilə şəxsi heyəti bir daha təbrik edən nazir Kəmaləddin Heydərov FHN-in fəaliyyətinə hər zaman verdiyi yüksək qiymətə, göstərdiyi ali diqqət və qayğıya görə nazirliyin şəxsi heyəti adından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürünü bildirib və əminliyini ifadə edib ki, ölkə əhalisinin və ərazilərinin təhlükəsizliyinin təmin edilməsi, maddi və mədəni sərvətlərin qorunması, vətəndaşlarımızın firavan həyat və fəaliyyətinin təmin olunması kimi şərəfli vəzifənin yerinə yetirilməsi üçün nazirlik əməkdaşları bundan sonra da bütün qüvvə və bacarıqlarını səfərbər edəcəklər.

Sonra çıxış edən qonaqlar - Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi Ərgüc Kələntərli, Qırğız Respublikasının fövqəladə nallar naziri Boobek Ajikeev və Rusiya fövqəladə hallar nazirinin müavini Roman Kurının FHN kollektivini yubiley münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, Azərbaycan FHN-in ötən 20 il ərzində böyük inkişaf yolu keçməsi, əldə etdiyi uğurlar, o cümlədən beynəlxalq humanitar əməliyyatlarda peşəkar fəaliyyəti təqdirəlayiqdir.

Sonra "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında" və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları oxunub.

Sonra tədbirdə xidmətdə fərqlənən əməkdaşların həvəsləndirilməsi tədbirləri haqqında fövqəladə hallar nazirinin əmri barədə məlumat verilib, bir qrup əməkdaşa təltiflər təqdim edilib.

Sonra qazi Süleyman Heydərov FHN işçilərinin çətin və şərəfli peşə fəaliyyətinin əhəmiyyətindən danışıb, göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirib, nazirlik əməkdaşlarını bayram münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

Tədbirə bədii hissə ilə yekun vurulub.

# "Konstitusiya və Suverenlik İli"nin humanizm səhifəsi

## Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçiriləcək ən böyük amnistiya on minlərlə ailəyə sevinc yaşadacaq

**Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı Zəfəri xalqımızın özünə inamını, güvənini daha da artırıb, eyni zamanda Azərbaycan dövlətçiliyini xeyli gücləndirib. Parlaq zəfərimizin beşinci ildönümünü "Konstitusiya və Suverenlik İli" kimi qeyd etdiyimiz qürurlu bir mərhələdə Prezident İlham Əliyevin amnistiya elan edilməsi ilə bağlı təşəbbüs irəli sürməsi xalqımıza növbəti sevinc bəxş edəcək bir addım kimi dəyərləndirilməlidir. On minlərlə ailənin şadlığına səbəb olacaq bu təşəbbüs Prezident İlham Əliyevin yüksək humanizm dəyərlərinə söykənən siyasətinin daha bir təzahürüdür.**

### Mərhəmət ənənələrinə sadiqlik

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu yeni müstəqil Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi Prezident İlham Əliyevin siyasi-hərbi və diplomatik qələbələri ilə tam təmin edilib. Vaxtilə Ümummilli Liderin rəhbərliyi ilə qəbul edilmiş və müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmış Azərbaycan Respublikasının Konstitusiyası bütün ərazilərimizdə hüquqi qüvvəyə minib. 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri nəticəsində əldə edilən tarixi qələbələr xalqımızın həyatında bütün sahələrdə mühüm hadisələrin yaşanmasına da birbaşa rəvac verib. Elə "Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyevin amnistiya elan edilməsi təşəbbüsü ilə çıxış etməsinin özünün də rəmzi mənası var.

Belə ki, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi kimi nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azadetmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək, Prezident İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Prezident tərəfindən Azərbaycan Milli Məclisinə təqdim olunan Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

### İnsan hüquqlarının etibarlı təminatı

Mərhəmət və humanizm kimi ali mənəvi keyfiyyətləri daim əldə rəhbər tutan Prezident İlham Əliyev ənənəvi olaraq bayramlar ərəfəsində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır, minlərlə ailəni sevindirir.

Xatırladaq ki, 2021-ci ildə Qələbəmizin bir ili münasibəti ilə, Zəfər Gününə - 8 Noyabr tarixinə həsr olunan amnisitiya aktı da bu xoş ənənin növbəti göstəricisi idi. Zəfər Günü münasibətilə elan olunmuş amnistiya 17 min 267 şəxsə şamil edilmişdir.

Ümumiyyətlə, dövlətimizin rəhbəri İlham Əliyev tərəfindən və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya aktları Azərbaycanda insan hüquqlarının etibarlı təminatına və demokratikləşməyə xidmət edən dövlət siyasətindən irəli gəlir. Humanizmə köklənmiş siyasət nəticəsində verilən amnistiya aktları, əfv sərəncamları çoxsaylı məhkuma insan üçün ən böyük hədiyyə olan azadlıq verir.

İnsan amilinə dəyər baxımından atılan bütün bu müstəsna əhəmiyyətli addımlar eyni zamanda törətdiyi əməldən səmimi peşmançılıq hissi keçirən günahkar şəxslərin islah olunaraq düz yola qayıtmaları, onların cəzaçəkmə müəssisəsindən çıxdıqdan sonra layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiya olunmaları, həmçinin bir daha cinayət əməli törətməmələri istiqamətində görülən tədbirlərin effektivliyi baxımından da müstəsna əhəmiyyət daşıyır. Bütün bunlar həm də onu göstərir ki, həmişə insan hüquqlarına hörmət siyasəti nümayiş etdirən, sosial statusundan asılı olmayaraq hər bir vətəndaşına mərhəmət hissi ilə yanaşan Azərbaycan dövləti hüquqi islahatları dövrün tələblərinə uyğun formada daim təkmilləşdirir.

Prezidentin təşəbbüsü ilə gerçəkləşdiriləcək növbəti amnistiya Azərbaycanın müstəqillik tarixinə ən böyük akt kimi düşəcək. "Konstitusiya və Suverenlik İli"ndə irəli sürülən və ali insani dəyərlərə əsaslanan bu təşəbbüs həm də vətən qarşısında borcunu layiqincə yerinə yetirən, onun ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında xidmətləri olan şəxslərin və onların yaxınlarının da bağışlanmasını özündə ehtiva etməsi ilə diqqət çəkir.

Bütün bunlar Azərbaycan dövlətinin hər bir vətəndaşına verdiyi dəyərin bariz nümunələridir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Avropa İttifaqı yenidən sülhə qarşı

## Aİ ilə rəsmi İrəvan arasında imzalanan sənəd sülh sazişinin müddəaları ilə ziddiyyət təşkil edir

**Aİ ilə Ermənistan arasında imzalanan "Avropa İttifaqı-Ermənistan tərəfdaşlığı üçün strateji gündəlik" göstərir ki, bu təşkilat mandatından kənar, keçmiş münaqişə ilə bağlı narrativlərə qayıdıb. Avropa İttifaqı-Ermənistan sənədində Ermənistan-Azərbaycan ikitərəfli məsələlərinə dair istinadların olması haqlı olaraq ölkəmizin narazılığına səbəb olub.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, sənədin bu şəkildə razılaşdırılması həm də Ermənistanın sülh niyyətinə şübhə yaradır, hər fürsətdə Azərbaycana qarşı addım ata biləcəyini göstərir: "Sənəddə Azərbaycan-Ermənistan normallaşma prosesində dönüş nöqtəsi olan Vaşinqton razılaşmalarına istinad edilməməsi Avropa İttifaqının ABŞ görüşünün nəticələri ilə bağlı verdiyi açıqlamalarda səmimi olmadığını, rəsmi İrəvanın isə üzərinə götürdüyü öhdəlikləri unutmağa meyilli oldugunu göstərir. Sənəddə "Qarabağ erməniləri" ifadəsinin işlənməsi, könüllü getmiş bu insanların qaçqın adlandırılması bu statusun təhrif olunmuş formasıdır. Könüllü olaraq Azərbaycanın suverenliyi, qanunvericiliyi altında yaşamağa razı olmayaraq, inteqrasiyadan imtina etmiş ermənilər Ermənistana köç etmək qərarına gəliblər. Azərbaycan hökuməti tərəfindən hazırlanmış inteqrasiya proqramı BMT-nin Qaçqınlar üzrə Proqramına da məlumdur. Onların ərazidəki monitorinqi heç bir zorakılıq olmamasını və könüllü köçü təsdiqləmişdi. Sənəddə Azərbaycanın hərbi əməliyyatlarından sonra qaçqın düşmüş insanlar ifadəsi işlədilməsi faktları təhrif etməkdir".

Deputat qeyd edib ki, sənəddə Avropa İttifaqının Ermənistandakı missiyasının (EUMA) fəaliyyətinin davam etdirilməsinin vacibliyinin vurğulanması "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülh və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in 7-ci maddəsi ilə ziddiyyət təşkil edir. Belə ki, bu maddədə qeyd edilir ki, tərəflər qarşılıqlı olaraq sərhəd boyunca hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Sülh müqaviləsinin digər mühüm bəndlərindən biri də delimitasiya və demarkasiya prosesi başa çatana qədər sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması üçün qarşılıqlı razılaşdırılmış, hərbi sahə də daxil olmaqla, təhlükəsizlik və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Həmçinin tərəflər üzərilərinə götürürlər ki, üçüncü tərəflərlə mövcud beynəlxalq razılaşmalar onların bu Saziş üzrə öhdəliklərinə xələl gətirməyəcək. Növbəti 7 il üçün Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən ikitərəfli sənəd bu müddəanın əksini göstərir.

P.Vəliyeva deyib ki, Aİ-Ermənistan sənədində, həmçinin Beynəlxalq Ədalət Məhkəməsində mövcud iddiaların dərhal, effektiv və tam şəkildə icrası da qeyd olunur: "Bu da sözügedən sülh sazişinin müddəaları ilə ziddiyyət təşkil edir. Unutmaq olmaz ki, Azərbaycan da sübutlar əsasında Ermənistana qarşı bu məhkəmədə iddia qaldırıb. İşğaldan azad olunmuş ərazilərimizə vurulan ziyanın təzminat məbləği 150 milyard ABŞ dolları təşkil edir. Bir daha xatırladırıq ki, Azərbaycan Vətən müharibəsi zamanı əsir götürdüyü erməni əsilli hərbçilərə münasibətdə humanizm nümayiş etdirərək onları azad edib. Sənəddə "əsir" kimi istinad edilən şəxslər müharibədən 3 il sonra, fərqli qanun pozuntuları, habelə terrorçuluğu maliyyələşdirmə, dövlət sərhədini qanunsuz keçmə, həmçinin müharibə və insanlıq əleyhinə cinayətlərdə ittiham olunaraq həbs ediliblər. 30 il öncə Qarabağ və Şərqi Zəngəzurda yaşayan azərbaycanlılara amansız işgəncələr verərək, insanlıq adına bütün vəhşilikləri törədərək yüz minlərlə azərbaycanlını öz evindən, vətənindən didərgin salan və etdikləri qanunazidd əməlləri, o cümlədən Azərbaycanın şəhərlərini raketlərlə atəşə tutaraq mülki əhalini qəsdən qətlə yetirməsini öz ifadəsi ilə etiraf edən cinayətkarlar hərbi əsir hesab edilə və məhkəmə predmeti olan məsələ etimad quruculuğu tədbirlərinin bir hissəsi ola bilməz".

Deputat vurğulayıb ki, sənəddə Vaşinqton razılaşmalarına heç bir aidiyyəti olmayan Paşinyan hakimiyyətinin irəli sürdüyü "Sülh kəsişməsi" təşəbbüsü də TRIPP yolundan kənardakı əraziləri əhatə edir və bu layihə faktiki olaraq Azərbaycanın təqdim etdiyi real layihələrə alternativ olaraq, prosesi uzatmaq məqsədilə ortaya atılmış layihədir. Azərbaycanın haqlı gözləntisi odur ki, sözügedən sənədə dəyişikliklər olunmalı, ölkəmizin mövqeyi nəzərə alınmalıdır. Avropa İttifaqı hər vasitə ilə Paşinyan hökumətinin gücləndirilməsi üçün addımlar atır. Məhz o səbəbdən bu gün Ermənistandakı kütləvi həbslərə, kobud insan haqları pozuntularına göz yumur. Eyni zamanda sanksiyalara məruz qalan malların Ermənistan vasitəsilə Rusiyaya göndərilməsi Qərb ölkələrinə məlum olsa da, susmağa üstünlük verirlər.

Pərvanə Vəliyeva yekunda vurğulayıb ki, Ermənistanda seçkilər yaxınlaşdıqca, Avropa İttifaqı-Rusiya rəqabətinin daha da qızışacağını, gərginliyin artacağını proqnozlaşdırmaq çətin deyil.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ermənistanda revanşistlərin siyasi dayaqları yoxdur

## Bu onu göstərir ki, belə qüvvələri cəmiyyət qəbul etmir

**8 avqust 2025-ci il Vaşinqton sammitindən sonra Azərbaycan-Ermənistan arasındakı sülh prosesində müəyyən irəliləyişlər nəzərə çarpmaqdadır. Görüş və danışıqlarda müəyyən canlanma olsa da, sülhə əngəl törədən əsas maneə rəsmi İrəvanın konstitusiyasında dəyişiklik edərək ölkəmizə qarşı ərazi iddialarını aradan qaldırmamasıdır. Bu barədə Ermənistanda müəyyən fikirlər səslənsə də, necə deyərlər, buz yerindən tərpənməyib. Bu istiqamətdə real addım atılmayıb. Eyni zamanda siyasi şərhçilərin fikrincə, Ermənistanın gələn il parlament seçkiləri ilə eyni vaxtda referendum keçirərək bu şərti də yerinə yetirəcəyi gözlənilir. Çünki bu ölkənin başqa yolu yoxdur.**



Müşahidələr göstərir ki, Ermənistanda parlament seçkilərinin yaxınlaşması cəmiyyətdəki gərginliyi daha da artırıb. Bütün siyasi qüvvələr seçkilərdə qalib gəlmək üçün mübarizəyə qoşulub. Ən çox diqqəti cəlb edən isə ölkəyə rəhbərlik etmiş sabiq prezidentlərin - Azərbaycan-Ermənistan arasında sülhə mane olan revanşistlərin yenidən fəallaşmalarıdır. Erməni cəmiyyətində revanşistlərin siyasi dayaqları çox zəifdir. Ona görə də sülhə mane olan bu qüvvələrin qalib gəlməsi mümkün deyil. Amma reavanşistlər də möcüzə baş verəcəyinə inanaraq mübarizələrindən əl çəkmirlər. Hansı yolla olursa-olsun, sülhə mane olmağa çalışırlar. Din xadimlərinin siyasi proseslərə qatılması isə cəmiyyətdəki gərginliyi daha da artırır. Erməni cəmiyyətinin qəbul etmədiyi revanşistlərin, sabiq cinayətkar xunta rəhbərlərinin meydanda olması onu deməyə əsas verir ki, bu qara qüvvələr hələ də bəzi xarici dairələrin diktəsi ilə oturub-dururlar.

Diqqəti çəkən amillərdən biri də əvvəlki illər siyasətə qayıtmayacağını bildirmiş Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın da seçkilərdə iddialı görünməsidir. Xatırladaq ki, Ter-Petrosyan 1991-1998-ci illərdə Ermənistan prezidenti olub. 80 yaşlı sabiq prezident bir müddət əvvəl Ermənistan Milli Konqresinin (EMK) sədri seçilib. Qurultay nümayəndələri onun siyasi lider kimi qalmasını dəstəkləyiblər.

Bir neçə ay əvvəl Paşinyanla Ter-Petrosyan arasında müəyyən gərginlik hökm sürürdü. Həmin gərginliyin fonunda Baş nazir Nikol Paşinyan sosial media hesabında birinci prezidenti siyasi arenada ardıcıl mövqe sərgiləməməkdə ittiham edərək bu sözləri yazmışdı: "Hörmətli Levon Ter-Petrosyan! 1996-cı ildə seçkilərin nəticələrindən, 1998-ci ildə hakimiyyətdən, 2008-ci ildə isə müxalifətdən qaçdınız. İndi isə anlayıram ki, yenə də harasa getmək istəyirsiniz, lakin artıq qaçmağa yer tapa bilmirsiniz. Əslində, buna ehtiyac da yoxdur. Sadəcə olaraq, sakitləşin və Ermənistanda bərqərar olmuş dinc həyatınızdan zövq alın. Hamımıza xoş gün arzulayıram".

Ermənistan Milli Konqresinin sədri Ter-Petrosyanın sabiq həmkarları - Köçəryan-Sarkisyan cütlüyü ilə də münasibətləri çox sərindir. Əvvəlki illər Ter-Petrosyan açıqlamalarının birində onların əleyhinə danışaraq deyib: "Köçaryan-Serj rejiminin idarəçiliyinin nəticəsi Ermənistandan 1 milyon adamın mühacirətinə səbəb olub. Dünyadan "erməni soyqırımı"nı tanımağı tələb edən insanlar öz ölkələrində soyqırımı həyata keçirirlər. Xahiş edirəm diqqət yetirəsiniz ki, bunu mən yox, Serj Sarkisyanın təyin etdiyi fövqəladə və səlahiyyətli səfir Şarl Aznavur deyib. Rejimin fəaliyyətinin mühacirlikdən başqa daha bir nəticəsi korrupsiyadır... Ermənistanın hazırkı hakimiyyətinin daha bir cinayəti ölkə vətəndaşlarının müdafiəsiz qalmasıdır. Problemlər yarandıqda, insanlar polisə və ya məhkəməyə müraciət etməkdən çəkinirlər". Deməli, Ermənistanda hakimiyyət uğrunda siyasi ziddiyyətlər getdikcə dərinləşir.

Hadisələrin gedişindən göründüyü kimi, Ermənistanda Azərbaycanla sülh prosesinə mane olan revanşist qüvvələr pozucu fəaliyyətlərindən əl çəkmək istəmirlər. Həm keçmiş cinayətkar xunta rəhbərləri, onların nəzarətindəki siyasi qüvvələr, həm də erməni kilsəsi Paşinyanı devirmək üçün birləşiblər. Onlar daim sülh prosesi əleyhinə çıxışlar edirlər. Bununla da cəmiyyəti öz arxalarınca çəkməyə çalışırlar. Sülhə mane olmağı qarşılarına məqsəd qoymuş revanşistlər erməni cəmiyyətində çaşqınlıq yaratmaq istəyirlər. Qondarma "artsax"ın yaranmasının ildönümü münasibətilə separatçılar, daim onlara dəstək olan erməni kilsəsi və bəzi müxalifət partiyaları bir araya gələrək sülh əleyhinə çıxışlar edirlər. Onlar Minsk qrupunun buraxılmasını da qəbuledilməz adlandırıblar. Revanşistlər düşünürlər ki, bu, Qarabağ ermənilərinin hüquqlarının təmin edilməsi üçün vacib mexanizm idi. Hansı ki, heç vaxt ermənilərin hüquqları pozulmayıb. Həmişə hüquları pozan elə onların özləri olublar.

Sülhə mane olmağa çalışan revanşist qüvvələr Qarabağ ermənilərinin öz evlərinə qaytarılmasının Ermənistan-Azərbaycan danışıqlarının gündəliyinə salınmalı olduğunu bəyan ediblər. Həmin sərsəm bəyanatda deyilir ki, bu hüquqların təmin edilməsi üçün effektiv mexanizmlər olmadan ATƏT-in Minsk qrupunun buraxılması qəti şəkildə qəbuledilməzdir. Hadisələrin gedişi onu deməyə əsas verir ki, Ermənistandakı və ölkə xaricindəki revanşist qüvvələr hələ də "böyük Ermənistan" xülyası ilə yaşayırlar. Ona görə də Paşinyanı devirib xarici güclərin köməyilə yenidən hakimiyyətə gəlmək istəyirlər. Daim sülhün tərəfində olan, yeni müharibə istəməyən Azərbaycan isə Ermənistan tərəfini dəfələrlə revanşist meyillərlə bağlı xəbərdar edib.

Ermənistanda yeni konstitusiya ilə bağlı məsələ xeyli müddətdir ki, gündəmdədir. Baş nazir Nikol Paşinyan dəfələrlə bu mövzuya toxunsa da, ölkədəki siyasi vəziyyət səbəbindən konkret addım atmaqdan çəkinib. O bəyan edib ki, Ermənistanın yeni konstitusiyaya ehtiyacı var. Konstitusiya günü münasibətilə xalqa ünvanladığı təbrik məktubunda da bu məqam yer alıb: "Ölkəmizin yeni konstitusiyaya ehtiyacı var. Mən konstitusiyanın yeni mətnindən deyil, onun yazılmasının və qəbulunun yeni üsulundan danışıram. Bizə xalqın özü tərəfindən yazıldığına və qəbul olunduğuna inandığı konstitusiya lazımdır". Paşinyan ehtiyat edir ki, əleyhinə olan qüvvələr, o cümlədən sabiq cinayətkar xunta rejiminin rəhbərləri, revanşistlər, kilsə seçki ərəfəsində bu məqamdan istifadə edib onu devirə bilərlər. Buna görə də bəyanatlar versə də, konkret addım atmaqdan ehtiyatlanır.

Revanşist qüvvələrin duru suları bulandırmağa, erməni cəmiyyətində gərginlik yaratmağına baxmayaraq, Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinə nail olmaq üçün müvafiq addımlar atılır. Məlum olduğu kimi, rəsmi Bakının bu istiqamətdə irəli sürdüyü şərtlərindən biri də yerinə yetirilib. Cari il dekabrın 1-də Minsk prosesi və onunla əlaqəli strukturlar tarixə qovuşub. Xatırladaq ki, bu barədə avqustun 8-də Vaşinqton sammitində imzalanmış Birgə Bəyannamə ilə razılıq əldə edilmişdi. Revanşist qüvvələrin müxtəlif pozucu təxribatlar törətməsinə baxmayaraq, Azərbaycan özünün sülh məqsədlərinə yaxınlaşır. Elə Ermənistanda da bu istiqamətdə müəyyən işlər görülür.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Aviasiya sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə olunub



**AZCON Holding şirkətlərindən olan "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin prezidenti Samir Rzayev Slovakiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Elçin Qasımovla görüşüb.**

QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Slovakiya arasında aviasiya əlaqələrinin inkişaf perspektivləri və mülki aviasiya sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Görüşdə əsas diqqət iki ölkə arasında səyahət edən sərnişinlər üçün yeni imkanların yaradılmasına və nəqliyyat əlçatanlığının artırılmasına yönəldilib. Bu çərçivədə bildirilib ki, daha əvvəl AZAL rəhbərliyi ilə "Wizz Air" aviaşirkəti arasında keçirilən işgüzar görüş nəticəsində Bakı-Bratislava-Bakı marşrutu perspektivli istiqamət kimi nəzərdən keçirilib və təsdiqlənib. Sözügedən marşrut üzrə reyslərin Heydər Əliyev Beynəlxalq Aeroportundan gələn ildən etibarən "Wizz Air" aviaşirkəti tərəfindən icrası planlaşdırılır.

AZAL-ın prezidenti bildirib ki, Bakı - Bratislava marşrutunun açılması turizm, biznes və humanitar əlaqələrin inkişafına töhfə verəcək, eyni zamanda sərnişinlər üçün daha geniş istiqamət seçimi və rahat uçuş imkanları yaradacaq.

Öz növbəsində səfir Elçin Qasımov Slovakiya tərəfinin birbaşa aviareysin açılmasında maraqlı olduğunu vurğulayaraq Bratislava şəhərindən "Wizz Air" aviaşirkətinin 30-dan artıq istiqamət üzrə geniş marşrut şəbəkəsinə malik olduğunu, həmçinin Slovakiyada 5 mindən çox Azərbaycan vətəndaşının yaşadığını diqqətə çatdırıb.

*"Azərbaycan"*

# AZƏRTAC ilə AMADA arasında Əməkdaşlıq Haqqında Memorandum imzalanıb

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) arasında Əməkdaşlıq Haqqında Memorandum imzalanıb. Sənədi AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və AMADA-nın İcraçı direktoru Təhminə Tağı-zadə imzalayıblar.

Memorandum antidopinq sahəsində maarifləndirmə və təbliğat fəaliyyətinin gücləndirilməsini, həmçinin beynəlxalq və milli səviyyədə keçirilən tədbirlər barədə qarşılıqlı məlumat mübadiləsini nəzərdə tutur.

Tədbirdə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, agentlik bir çox nüfuzlu beynəlxalq və daxili idman yarışını geniş şəkildə işıqlandırır. AMADA ilə əməkdaşlığın uğurlu olacağına əminliyini bildirən V.Əliyev deyib ki, Memorandum Azərbaycanda təmiz idmanın təbliği, dopinqə qarşı mübarizə ilə bağlı məlumatların cəmiyyətə operativ və dolğun şəkildə çatdırılması istiqamətində mühüm addımdır. Sağlam həyat tərzinin və ədalətli idmanın təbliği məqsədilə birgə maarifləndirmə kampaniyalarının həyata keçirilməsi baxımından əməkdaşlığın önəmi xüsusi qeyd olunub.

AMADA-nın İcraçı direktoru Təhminə Tağızadə Memorandumun əhəmiyyətini vurğulayaraq bildirib ki, bu sənəd antidopinq sahəsində maarifləndirmə və ictimai məlumatlandırmanın sistemli şəkildə aparılmasına mühüm töhfə verəcək. Vurğulanıb ki, dopinqə qarşı mübarizə təkcə nəzarət və qaydalarla məhdudlaşmır, eyni zamanda cəmiyyətin bütün təbəqələrində məlumatlılığın formalaşdırılmasını tələb edir. Bu baxımdan AZƏRTAC ilə əməkdaşlıq təmiz idman dəyərlərinin geniş auditoriyaya çatdırılması üçün etibarlı və təsirli platforma yaradır.

Qeyd edək ki, bu əməkdaşlıq həm idman ictimaiyyətinin, həm də ümumilikdə cəmiyyətin dopinqin fəsadları barədə məlumatlılığının artırılmasına, şəffaflığın və etimadın möhkəmlənməsinə xidmət göstərəcək. Belə təşəbbüslər Azərbaycanın beynəlxalq antidopinq hərəkatında fəal mövqeyini daha da gücləndirəcək.

# Balakən Rayon İcra Hakimiyyətinin sabiq başçısının cinayət əməlləri ifşa edilib




**Balakən Rayon İcra Hakimiyyətinin sabiq başçısının cinayət əməlləri ifşa olunmuşdur.**

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri zamanı Balakən Rayon İcra Hakimiyyətinin başçısı olmuş Rzayev İslam Vahid oğlunun həmin vəzifədə işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə, ona etibar edilmiş külli miqdarda özgə əmlakını mənimsəməsinə və çoxsaylı korrupsiya cinayətlərinə yol verməsinə əsaslı şübhələr yaranmışdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatına görə, müəyyən olunmuşdur ki, İslam Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində fəaliyyət göstərdiyi dövrdə dövlət büdcəsindən işsiz və aztəminatlı şəxslərə, rayon ərazisində təmir-tikinti və abadlıq-quruculuq işlərinə ayrılmış maliyyə vəsaitlərini vəzifə səlahiyyətlərindən sui-istifadə edərək mənimsəmiş, belə vəsaitlərin təyinatı üzrə xərclənməsini təşkil etməmiş, eləcə də vəzifəli şəxslərdən və iş adamlarından rüşvət almışdır.

Faktla bağlı DTX-nin İstintaq Baş idarəsində başlanılmış cinayət işi üzrə İslam Rzayev saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə məsuliyyətə cəlb olunmuş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Zəngilanın Ağalı kəndində növbəti əmək yarmarkası keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlər üçün aktiv məşğulluq tədbirlərinin təşkilini davam etdirir.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, agentlik tərəfindən növbəti əmək yarmarkası Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyilə Zəngilan rayonunun Ağalı kəndində təşkil olunub.

14 işəgötürənin iştirakı ilə keçirilmiş yarmarkada İT üzrə mütəxəssis, aşpaz, bağ fəhləsi, qazpaylayıcı stansiyanın operatoru, qeydiyyatçı, sürücü, anbardar, gözətçi, çilingər və digər peşələr olmaqla, ümumilikdə, 103 vakansiya təqdim edilib.

Vakansiyalara uyğun namizədlərin qeydiyyatı aparılıb. Qarabağ Peşə Hazırlığı Mərkəzi yarmarkada öz stendi ilə təmsil olunub. İşsiz və işaxtaran şəxslərə mərkəzin fəaliyyəti və həyata keçirdiyi peşə hazırlığı kursları, həmçinin müraciət qaydaları barədə məlumat verilib.

# Böyük futbol Azərbaycana gəlir

## Ölkəmiz U-20 Dünya Çempionatına evsahibliyi edəcək

**Beynəlxalq idman yarışlarının keçirilməsi hər ölkəyə etibar olunmur. Çünki bu, ilk növbədə böyük məsuliyyət tələb edir. Ölkəyə gələn idmançıların, məşqçi heyətinin və qonaqların təhlükəsizliyinin təminatı, eləcə də yüksəksəviyyəli təşkilatçılıq, iqtisadi və kommunikasiya məsələlərinin həlli asan deyil.**




Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idmanda da ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, ölkəmiz bu sahədə böyük təcrübəyə malikdir. Tarixinin ən qüdrətli Azərbaycanı bu gün dünyada elə bir tədbir yoxdur ki, onu reallaşdıra bilməsin. Bütün bu tədbirlərin təşkilatçılığı, idmançılara, qonaqlara göstərilən diqqət və qayğı uzun müddət yaddaşlardan silinmir.

I Avropa və IV İslam Həmrəyliyi oyunlarına, "Formula-1" yarışlarına, UEFA Avropa Liqasının finalına, minifutbol üzrə dünya çempionatına, 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakıda keçirilməsinə, 42-ci Dünya Şahmat Olimpiadasına, Gəncə və digər 6 şəhərimizdə keçirilən III MDB Oyunlarına, eləcə də Avropa, dünya çempionatlarına yüksək səviyyədə evsahibliyi etmiş Azərbaycanda belə yarışların keçirilməsi onu göstərir ki, dünyanın qabaqcıl idman ölkələri sırasında layiqli yerimiz var. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında isə məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Yüksəksəviyyəli oyunların Azərbaycana həvalə edilməsi isə bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

İndi budur, ölkəmizə daha bir nüfuzlu yarış həvalə edilib. FIFA İcraiyyə Komitəsinin qərarına əsasən, Azərbaycan Özbəkistanla birgə 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsinə evsahibliyi edəcək.

Belə tədbirlərin keçirilməsi Azərbaycana həm iqtisadi, həm də strateji baxımdan böyük fayda gətirir. Etibarlı tərəfdaş kimi tanınması ölkəmizə əlavə investisiyaların yatırılmasına, yeni texnologiyaların gəlməsinə səbəb olur. Yarışlar həmçinin Azərbaycana milyonlarla turistin axınına yol açır. Belə beynəlxalq tədbirlər hər hansı bir kampaniyanın və ya onun istehsal etdiyi məhsulun yalnız reklam olunması demək deyil, bütövlükdə Azərbaycanın dünyaya geniş təqdimatıdır ki, bunun da nəticəsində ölkəmiz gələcək iqtisadi perspektivlərini müəyyənləşdirir, xarici investorların və böyük turist kütləsinin diqqətini cəlb edir.

Xəbər verildiyi kimi, 20 yaşadək kişi futbolçular arasında dünya çempionatının 2027-ci ildə həm də Azərbaycanda keçirilməsi ilə əlaqədar artıq Təşkilat Komitəsi yaradılıb. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, Baş nazirin müavini Samir Şərifov Təşkilat Komitəsinin sədri təyin edilib. Təşkilat Komitəsində gənclər və idman, fövqəladə hallar, maliyyə, mədəniyyət, iqtisadiyyat, daxili işlər, rəqəmsal inkişaf və nəqliyyat, elm və təhsil, xarici işlər, səhiyyə nazirlərinin müavinləri yer alıblar. Bundan başqa, Təşkilat Komitəsində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Dövlət Turizm Agentliyinin sədri, Qida Təhlükəsizliyi Agentliyinin sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, Dövlət Gömrük Komitəsi sədrinin müavini, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini, Dövlət Miqrasiya Xidməti rəisinin müavini, Dövlət Sərhəd Xidməti rəisinin müavini, Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) prezidenti, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı təmsil olunurlar.

Dünya çempionatı ilə bağlı Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) ilə əlaqələndirmə işlərinin aparılması AFFA-ya həvalə edilib. Təşkilat Komitəsinə mundialın 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı zəruri məsələləri, Nazirlər Kabinetinə isə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Bir sözlə, Azərbaycanın belə mötəbər idman tədbirinə evsahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm tədbirlərin respublikamızda daha yüksək səviyyədə təşkilinə müsbət təsir göstərəcək. Şübhə yoxdur ki, Azərbaycan digər idman tədbirləri kimi, 20 yaşadək kişi futbolçular arasında dünya çempionatına da yüksək səviyyədə evsahibliyi edəcək və bununla ölkəmizin idman nüfuzu daha da artacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ruben Vardanyanın məhkəmə istintaqı yekunlaşıb

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 16-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra R.Vardanyanın müdafiəçisi Emil Babışov iki vəsatət təqdim edib.

Bildirib ki, sentyabrın 16-da keçirilmiş məhkəmə prosesi zamanı hüquqlarını qoruduğu təqsirləndirilən şəxs Ruben Vardanyan bir neçə vəsatət verib. Həmin vəsatətlərdən biri də şahid qismində Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) nümayəndəsinin məhkəmədə iştirakının təmin edilərək dindirilməsi barədə olub. Emil Babışov qeyd edib ki, müdafiə tərəfinin mövqeyinə görə, həmin təşkilatın nümayəndəsinin məhkəmədə şahid qismində iştirakı zəruridir. Belə ki, təqsirləndirilən şəxsin bildirdiyinə görə, ibtidai istintaq zamanı, eləcə də məhkəmə istintaqı dövründə müxtəlif vaxtlarda BQXK-nın nümayəndələri Ruben Vardanyanın müvəqqəti saxlanıldığı yerə gələrək onunla görüşüblər. Onun ərzaqla və geyimlə təmin olunmasına, ailə üzvləri ilə əlaqə saxlanılmasına köməklik göstəriblər.

Vəkil bildirib ki, təqsirləndirilən şəxsin mövqeyinə əsasən, komitə nümayəndəsinin məhkəmədə iştirakının təmin olunmasında əsas məqsəd onun cinayət prosesində statusunun müəyyənləşdirilməsindən ibarətdir. Bu səbəbdən, BQXK-nın nümayəndəsinin məhkəmədə şahid qismində iştirakının təmin olunmasına köməklik göstərilməsini xahiş edir.

Təqsirləndirilən Ruben Vardanyan da hüquqlarını qoruyan vəkilinin vəsatətini müdafiə etdiyini bildirib.

Vəsatətə münasibət bildirən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev Ruben Vardanyanın hazırda məhkəmədə baxılan cinayət işi üzrə statusunun təqsirləndirilən şəxs olduğunu xatırladıb. Vurğulayıb ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə uyğun olaraq təqsirləndirilən şəxs qismində cəlb olunub və ona ittiham elan edilib.

Bundan başqa, ona hüquqları izah olunub və bu barədə bildirişlər təqdim edilib, ibtidai istintaq zamanı təqsirləndirilən şəxs qismində dindirilib. Bir ilə yaxındır davam edən məhkəmə prosesində təqsirləndirilən şəxs kimi öz hüquqlarından istifadə edir, hüquqlarını müdafiə edir, eləcə də vəsatətlər verərkən Cinayət Prosessual Məcəlləsinin 91-ci maddəsinə dəfələrlə özü istinad edib. Təqsirləndirilən şəxs kimi hüququndan istifadə edərək məhkəmə baxışı zamanı ifadə verməkdən də imtina edib.



Zəruri hesab etdikdə təqsirləndirilən şəxs qismində zərərçəkənlərə, şahidlərə suallar verir.

İttiham tərəfi hesab edir ki, Ruben Vardanyan özü də təqsirləndirildiyi cinayət işi üzrə prosessual statusunu başa düşür və dərk edir.

Göstərilən halda hər hansı beynəlxalq təşkilatın nümayəndəsinin məhkəmədə verəcəyi ifadənin şəxsin statusunu necə dəqiqləşdirəcəyi və ya nəyi müəyyənləşdirəcəyi təbii ki, qeyri-müəyyən haldır. Digər tərəfdən, beynəlxalq təşkilatın nümayəndəsi məhkəmə prosesində hansısa şəxsin statusunu müəyyənləşdirmir.

Qeyd olunanları nəzərə alaraq dövlət ittihamını müdafiə edən prokuror məhkəmədən vəsatətin təmin olunmamasını xahiş edib.

Məhkəmə tərəfləri dinlədikdən sonra yerində müşavirə keçirərək qərar qəbul edib.

Qərara əsasən vəsatət təmin olunmayıb. Qərarı əsaslandıran zaman sədrlik edən Zeynal Ağayev verilmiş vəsatətin baxılan işə aidiyyətinin olmadığını, hansısa bir sübut əhəmiyyəti daşımadığını və bu səbəbdən də rədd edildiyini deyib. Əlavə edib ki, məhkəmə şəxsin təqsirli olub-olmaması məsələsinə baxır. Hansısa beynəlxalq təşkilatın nümayəndəsinin bununla bağlı deyəcəklərinin məhkəmə üçün heç bir əhəmiyyəti yoxdur.

Sonra vəkil Emil Babışov məhkəməyə ikinci vəsatəti təqdim edib. Bildirib ki, cinayət işinin materiallarında iş üzrə təqsirləndirilən Ruben Vardanyanın istifadəsində olmuş ofisə və yaşadığı evinə baxış keçirilməsinə dair protokol və videomaterialların toplandığı disklər var. Müdafiə tərəfinin mövqeyinə görə, müvafiq istintaq hərəkətləri aparılarkən çəkilmiş videolardakı bəzi faktların aydınlaşdırılmasına zərurət olduğundan, müstəntiqin məhkəmədə şahid qismində iştirakı təmin edilərək dindirilməlidir.

Təqsirləndirilən Ruben Vardanyan vəsatəti müdafiə etdiyini deyib.

Vəsatətə münasibət bildirən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev müdafiə tərəfinin vəsatətinin əsassız olduğunu deyərək fikrini belə əsaslandırıb ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 95-ci maddəsində cinayət işi ilə əlaqədar səlahiyyətlərini yerinə yetirmiş müstəntiqin dindirilməsi üçün konkret əsaslar müəyyənləşib. Hazırda baxılan cinayət işi üzrə məhkəmə prosesində bu hallar aşkar olunmayıb. İttiham tərəfi hesab edir ki, müstəntiqin iş üzrə şahid qismində dindirilməsində zərurət yoxdur və müdafiə tərəfi fikrini kifayət qədər əsaslandırmayıb.

Qeyd edilənlər nəzərə alınmaqla vəsatətin rədd olunması xahiş edilib.

Məhkəmə tərəflərin fikirlərini dinləyərək qərar qəbul edib. Qərara əsasən, verilmiş vəsatət rədd edilib. Qərar əsaslandırılan zaman vurğulanıb ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 95-ci maddəsində şahid qismində dindirilə bilməyən şəxslər müəyyən edilib və müstəntiq həmin şəxslərə aiddir.

Bundan sonra iclasa sədrlik edən hakim Zeynal Ağayev məhkəmə istintaqının yekunlaşması ilə bağlı tərəflərin fikirlərini öyrənib.

Tərəflər məhkəmə istintaqının yekunlaşmasına və çıxışların başlanılmasına etiraz etmədiklərini bildiriblər.

Dövlət ittihamını müdafiə edən prokurorlar çıxışa hazırlaşmaq üçün məhkəmədən vaxt istəyiblər.

Məhkəmənin növbəti iclası dekabrın 18-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# İqtisadiyyat və sosial həyat

## BP və ADA Universitetinin birgə sosial layihəsi uğurla yekunlaşdı

**BP şirkəti ADA Universiteti və ADA Universiteti Fondu ilə birlikdə Qazax-da və Gəncədə həyata keçirilmiş bir sosial təşəbbüsün uğurla tamamlandığını elan edib. Bu münasibətlə ADA Universitetinin Qazax mərkəzində tədbir keçirilib.**

Layihədə əsas məqsəd müəllimlərin məktəblilərdə əqli sağlamlıq problemlərini vaxtında aşkar edərək aradan qaldırmaq bacarıqlarını artırmaqdır ki, bu da daha ciddi psixoloji fəsadların qarşısını almağa kömək edəcək. Ümumiyyətlə isə layihə uşaqlarda əqli sağlamlıqla bağlı hər hansı problemin ilk əlamətlərini vaxtında görərək ilkin dəstək göstərmək və erkən müdaxilə etmək məqsədilə müəllimləri lazımi bacarıqlarla təmin etmək üçün nəzərdə tutulub.

Layihə çərçivəsində məktəb müəllimləri üçün əqli sağlamlıq problemlərinin aşkarlanması və erkən müdaxilə vasitələrinin tətbiqi üzrə geniş təlim proqramı hazırlanmışdır. Ümumilikdə 40 saatdan ibarət bu təlimə il ərzində rayon məktəblərindən təxminən 60 müəllim qatılıb. Təlim proqramı əqli sağlamlıq məsələləri, uşaq psixologiyası və emosional vəziyyət haqqında müəllimlərin bilik və anlayışlarını əhəmiyyətli dərəcədə artırıb.

Təlim proqramı hər birində 15-20 müəllim olmaqla dörd qrup üzrə aparılıb və hər qrupun dərsləri həftəsonları həm əyani, həm də onlayn rejimdə keçirilməklə iki ay davam edib. Bundan başqa, layihə çərçivəsində müəllimlərin bir-birindən öyrənmələri və daim inkişafı üçün dəstək şəbəkələri də yaradılıb. Bu şəbəkələr müəllimlərə əqli sağlamlıq məsələlərinin həllində qarşılaşdıqları çətinlikləri və bununla bağlı təcrübələrini bir-birləri ilə paylaşmağa imkan verir.

Tədbirdə çıxış edən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə sosial sərmayələr rəhbəri Xalid Rəcəbov deyib: "İcmalara əhəmiyyətli faydalar gətirə biləcək təşəbbüsləri dəstəkləməkdən qürur duyuruq. Əqli sağlamlıq uşaqların rifahının vacib hissəsidir. Bu təşəbbüs ilkin problemləri kəskinləşməzdən əvvəl aşkarlaya bilən hazırlıqlı müəllimlər şəbəkəsini formalaşdıraraq rayon məktəblərində əqli sağlamlıqla bağlı erkən müdaxilə üçün mühüm bünövrə yaradır. Niyyətimiz məlumatlılığı artırmaqla və müəllimləri lazımi vasitə və biliklərlə təmin etməklə daha sağlam tədris mühitinin formalaşmasına və icmaların uzunmüddətli rifahına töhfə verməkdir."

ADA Universiteti Fondunun prezidenti Natiq Haciyev də layihə barədə fikir söyləyib: "Bu layihə biznes-təhsil əməkdaşlığının gücləndirilməsi, həmçinin əhəmiyyətli sosial məsuliyyət təşəbbüslərinə töhfə vermək üzrə uzunmüddətli öhdəliyimizi əks etdirir. Davamlı əməkdaşlığa və birgə səylərimizin məqsədini daha da artırdığına və bu səylərə böyük dəyər qatdığına görə bp şirkətinə dərin təşəkkürümüzü bildiririk. İstəyimiz bu əməkdaşlığı irəli aparmaq və birlikdə cəmiyyət üçün daha da böyük faydalar gətirməkdir."

Layihə ADA Universiteti Fondu tərəfindən həyata keçirilib. BP-nin layihəyə töhfəsi 240 min 488 manat təşkil edib.

*"Azərbaycan"*

## "Mərkəzi Karyera Portalı" fəaliyyətə başlayıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən peşəyönümü və karyera planlamasına dəstək göstərən "Mərkəzi Karyera Portalı" istifadəyə verilib.**

Portalın yaradılmasında məqsəd əmək bazarına dair məlumatların vahid rəqəmsal platformada toplanması, gənclərin peşə seçimi və karyera inkişafı prosesinin dəstəklənməsi, işəgötürənlərin hansı bacarıqlara malik işçi qüvvəsinə tələblərinin olduğu barədə onların məlumatlılığının artırılmasıdır.

"Mərkəzi Karyera Portalı"na "Məzunların məşğulluq reytinqi" platforması, "CV yarat" və "Alo karyera" dəstək xidməti ilə yanaşı, ikl innovativ platforma - "İş dəyərləri aləti" və "Peşələrin atlası" da daxildir.

"İş dəyərləri aləti" istifadəçilərə öz karyera və peşə maraqlarını müəyyənləşdirməyə kömək etmək üçün hazırlanıb. Belə ki, sistemdə yerləşdirilmiş sorğuda iştirak etməklə şəxslərin maraqları, təhsil və təcrübələri nəzərə alınaraq qiymətləndirməyə aparılır. Onların maraqlarına uyğun gələn potensial peşə sahələrinin siyahısı təqdim edilir. Məqsəd istifadəçilərin öz karyeraları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmələrinə köməklik göstərməkdir.

"Peşələrin atlası" platformasında isə peşələr üzrə təsvirlər, tələb olunan bilik və bacarıqlar, təhsil səviyyəsi və digər zəruri məlumatlar təqdim edilir.

Bundan əlavə, portalın tərkibində yer alan "Məzunların məşğulluq reytinqi" platforması universitet məzunlarının təhsil aldıqları ixtisaslar üzrə əmək bazarında mövqeləri barədə məlumat verir. "Alo karyera" dəstək xidməti isə karyera planlaması, məqsədlərin müəyyən edilməsi, peşə və ixtisas seçimi, əmək bazarındakı tendensiyalar və s. suallar üzrə vətəndaşlara operativ məlumat dəstəyi göstərir. İstifadəçilər "CV yarat" platforması üzərindən isə qısa zamanda peşəkar və standartlara uyğun CV hazırlaya bilirlər.

# Ölkəmizin enerji sektorunda daha bir yenilik

## Azərbaycan MDB-də ən iri Batareya Enerji Saxlanc Sistemlərinə sahib olur

**Azərbaycanda enerji sisteminin modernləşdirilməsi və dayanıqlı inkişafının təmin olunması istiqamətində növbəti strateji layihə icra edilir. MDB məkanında gücünə və enerji tutumuna görə ən böyük Batareya Enerji Saxlanc Sistemlərinin (BESS) ölkəmizdə qurulması elektroenergetika sahəsində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir.**




Paytaxta yaxın 500 kV-luq "Abşeron" və respublikanın mərkəzi hissəsində yerləşən 220 kV-luq "Ağdaş" yarımstansiyalarının ərazilərində yaradılan bu müasir enerji obyektləri elektrik təchizatının etibarlılığını artırmaqla yanaşı, bərpaolunan enerji mənbələrinin şəbəkəyə daha səmərəli inteqrasiyasına və enerji balansının çevik idarə olunmasına geniş imkanlar açacaq, ölkənin enerji təhlükəsizliyini möhkəmləndirəcək, elektrik sisteminə çeviklik və dayanıqlılıq qazandıracaq. Müasir enerji mərkəzləri ölkənin gələcək enerji xəritəsində mühüm yer tutacaq. Bu da o deməkdir ki, Azərbaycanın enerji tarixində yeni bir səhifə açılır.

Nəhəng BESS-in ilk partiyası artıq son ünvana çatdırılıb və təyinatı üzrə sahələrə quraşdırılıb. Xüsusi sifariş əsasında Çinin "Great Power" zavodunda istehsal olunan avadanlıqlar minlərlə kilometrlik uzun və çətin yol qət edərək ölkəmizə gətirilib. Sakit və Hind okeanlarını, Süveyş kanalını, Aralıq və Egey dənizlərini arxada qoyan texnoloji karvan Türkiyənin Gemlik Limanına çatdıqdan sonra quru yolla Türkiyə və Gürcüstan üzərindən Azərbaycana istiqamət götürüb. Hər birinin çəkisi 36 ton olan BESS-in daşınması xüsusi diqqət və təhlükəsizlik tədbirləri tələb edib. Saxlanc sistemlərinin həllik 15 faizi ölkəyə gətirilib, qalan 85 faizin isə aprel ayına qədər mərhələli şəkildə çatdırılması və istismara hazırlanması nəzərdə tutulur. Təbii ki, nəhəng enerji saxlanc sistemləri yalnız texniki qurğular deyil, onlar Azərbaycanın enerji müstəqilliyinə, "yaşıl gələcəy"inə və regionun aparıcı enerji mərkəzinə çevrilməsi yolunda atılan inamlı addımların təcəssümüdür.

Maraqlıdır ki, elektrik enerjisinin saxlanması və idarə olunması texnologiyaları XXI əsrin enerji inkişafında dönüş nöqtəsi hesab olunur. Amma bu ideya yeni deyil. İlk batareya saxlama sistemlərinin kökü 1960-cı illərdə ABŞ və Almaniyada elektrik şəbəkələrinin pik yüklərini tənzimləmək üçün quraşdırılmış eksperimental sistemlərə gedib çıxır. O zaman bu sistemlər əsasən nikel-kadmium batareyalardan ibarət idi və müasir litium-ion texnologiyaları kimi genişmiqyaslı deyildi. Müasir mənada sənaye tipli enerji saxlama sistemlərinin ilk kommersiya layihəsi isə 2011-ci ildə ABŞ-nin Kaliforniya ştatında AES Corporation tərəfindən həyata keçirilib. 30 meqavat gücündə və 120 meqavat-saat tutumunda olan bu nəhəng sistem pik enerji tələbatını tənzimləmək, elektrik şəbəkəsinin stabilliyini qorumaq və günəş kimi dəyişkən bərpaolunan enerji mənbələrini inteqrasiya etmək məqsədi daşıyırdı. Məhz bundan sonra həmin layihə dünya üzrə enerji saxlama texnologiyalarının sürətli inkişafına təkan verdi. Son illər isə Çin, Almaniya, Avstraliya və ABŞ-də 100 meqavatdan böyük enerji saxlama sistemləri qurulub.

Bu sistemlər ölkəmizin enerji təhlükəsizliyini artırmaqla yanaşı, bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını asanlaşdıracaq və elektrik təchizatında fasiləsizliyi təmin edəcək. Kiçik eksperimentlərdən müasir nəhəng saxlama sistemlərinə qədər uzanan bu yolu Azərbaycanın enerji infrastrukturunda yeni dövrün başlanğıcı hesab etmək olar. Təbii ki, yeni nəhəng enerji saxlanc mərkəzlərinin qurulması yalnız texniki layihə deyil. O, ölkəmizin regional enerji mərkəzi kimi mövqeyinin möhkəmlənməsini özündə ehtiva edir. Quraşdırılan hər batareya ölkənin sabit enerjiyə, dayanıqlı inkişafa və strateji gücə doğru irəliləyiş kimi tarixə yazılır.

Bu cür yüksəktutumlu saxlanc sistemlərinin tətbiqi enerji istehsalı ilə istehlakı arasında tarazlığın qorunmasında da mühüm rol oynayır. Günəş və külək kimi dəyişkən bərpaolunan enerji mənbələrindən alınan elektrik enerjisi BESS-də saxlanılacaq. Sonra isə lazım olanda enerji tələbi çox olan vaxtlarda bu enerji şəbəkəyə veriləcək. Bu da enerji itkilərinin azaldılmasına və elektrik təchizatında fasiləsizliyin təmin olunmasına xidmət edəcək.

BESS-in "Abşeron" və "Ağdaş" yarımstansiyalarında quraşdırılması təsadüfi deyil. Bu yarımstansiyalar ölkənin əsas enerji qovşaqları sırasında yer almaqla, istehsal və paylama zəncirində strateji əhəmiyyət daşıyır. Saxlanc qurğularının məhz bu nöqtələrdə qurulması ölkə üzrə elektrik şəbəkəsinin sabitliyini gücləndirəcək, qəza risklərini minimuma endirəcək və operativ idarəetmə imkanlarını genişləndirəcək. Layihə eyni zamanda Azərbaycanın "yaşıl enerji" gündəliyinə uyğun olaraq karbon emissiyalarının azaldılmasına töhfə verəcək.

Enerji səmərəliliyinin yüksəldilməsi və ənənəvi yanacaq mənbələrindən asılılığın mərhələli şəkildə azaldılması baxımından bu cür müasir texnoloji məsələlər xüsusi əhəmiyyət kəsb edir. Mütəxəssislərin fikrincə, BESS-in tətbiqi yaxın illərdə ölkənin enerji təhlükəsizliyinin daha da möhkəmlənməsinə zəmin yaradacaq. Beləliklə, "Abşeron" və "Ağdaş" yarımstansiyalarında quraşdırılan BESS böyük texnoloji layihə olmaqla yanaşı, həm də Azərbaycanın enerji müstəqilliyinə və dayanıqlı inkişafına verilən strateji töhfədir. Bu nəhəng enerji mərkəzləri ölkəmizin elektrik şəbəkəsini daha çevik və etibarlı edəcək, bərpaolunan enerji mənbələrinin istifadəsini artıracaq və regionda Azərbaycanın enerji lideri kimi mövqeyini daha da gücləndirəcək.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Azərbaycan üzərindən daşınan tranzit yüklərin həcmi artır



**Ölkəmizin atdığı çevik və düşünülmüş addımlar Orta dəhlizlə bağlı bir çox məsələnin operativ həllində vacib rol oynayıb. Məsələn, Azərbaycan Xəzər dənizinin şərq və qərb sahillərindəki tərəfdaşlarını ortaq məxrəcə gətirmək üçün mühüm layihələr təqdim edir. O üzdən marşrutun keçdiyi ölkələr Azərbaycanın ədalətli liderliyini yüksək qiymətləndirirlər.**

Məlum olduğu kimi, Orta dəhlizin fəaliyyətinin səmərəliliyi Çinlə Azərbaycanın əməkdaşlığından keçir. Belə ki, dəhlizlə daşınacaq yüklərin mütləq əksəriyyəti Çinin payına düşür. Azərbaycan isə mühüm tranzit qovşaq kimi yüklərin Avropaya, şərqə və şimala daşınmasında əsas ölkə sayılır. Bu baxımdan Çin ölkəmizin apardığı logistika siyasətini və tranzit əhəmiyyətini yüksək dəyərləndirir. Azərbaycanla Orta dəhliz vasitəsilə bağlı sıx əməkdaşlıq edir. Ümumiyyətlə, hər iki ölkə marşrutla bağlı görülən işləri və gələcəkdə icra ediləcək layihələri birlikdə, koordinasiyalı şəkildə həyata keçirir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədovun Çin Xalq Respublikasının Dövlət Şurası yanında Dövlət Əmlakına Nəzarət və İdarəetmə Komitəsinin (SASAC) nümayəndə heyəti ilə növbəti görüşü də bununla bağlıdır. Görüşdə Azərbaycan ilə Çin arasında nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub. S.Əsədov qeyd edib ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən olub. Nazir müavini son 20 ildə ölkədə nəqliyyat infrastrukturuna yatırılan sərmayələr və həyata keçirilən iri bağlantı layihələri barədə də çinli tərəfdaşlara ətraflı məlumat verib. Eyni zamanda qeyd olunub ki, region ölkələri ilə fəal əməkdaşlıq nəticəsində tranzit marşrutlarının səmərəliliyi getdikcə əhəmiyyətli dərəcədə artır.

Məlumdur ki, Çin Zəngəzur dəhlizinin (TRIPP) açılmasına ən çox maraq göstərən ölkədir. Bu səbəbdən dəhlizin tikintisi üzrə görülən işlər barədə Çin tərəfinə ətraflı məlumat verilib. Qeyd edilib ki, layihə regional kommunikasiyaların şaxələndirilməsinə, eləcə də bölgədə davamlı sülh və rifahın dəstəklənməsinə töhfə verəcək.

Bu gün dünya iqtisadiyyatı sanksiyalar, geosiyasi gərginlik və tədarük zəncirlərinin pozulması səbəbindən durğunluq yaşayır. Lakin bu geriləmə Mərkəzi Asiya ölkələrindən kənar keçir və onlar konstruktiv əməkdaşlıq nümunəsi göstərirlər. Aşqabadda keçirilən Beynəlxalq Sülh və Etimad Forumunda Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev hazırkı dövrdə qlobal tranzit marşrutlarının əhəmiyyətini vurğulayaraq demişdir: "Geosiyasi gərginliyin artması, beynəlxalq sanksiyalar, ticarət tədarük zəncirlərinin pozulması, texnoloji rəqabət və digər çoxsaylı amillər nəticəsində dünya iqtisadiyyatı ən ciddi sınaqlarla üzləşib. Qlobal iqtisadiyyat yavaşlayır. Şükürlər olsun ki, bu durğunluq Mərkəzi Asiya ölkələrindən yan keçir". Qazaxıstan Prezidenti onu da qeyd edib ki, beynəlxalq gərginlik şəraitində tranzit əlaqələrinin möhkəmləyinin, etibarlı nəqliyyat marşrutları və ticarətin fasiləsizliyinin proqnozlaşdırılmasını təmin edə biləcək müasir rəqəmsal həllərin əhəmiyyəti dəfələrlə artır.

Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzinə çevrilib. Ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradır. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi həm Orta dəhliz, həm də Şimal-Cənub dəhlizi çərçivəsində yeni nəqliyyat marşrutu kimi mühüm əhəmiyyət kəsb edəcək.

Ölkəmiz tərəfindən Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı həyata keçirilən layihələr mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasında dəmir yolu infrastrukturunun yenidən qurulmasına başlanması bu prosesin mühüm mərhələlərindən biri hesab olunur. 188 kilometrlik dəmir yolu xətti həm Naxçıvanın nəqliyyat blokadasının aradan qaldırılması, həm də regionun iqtisadi inteqrasiyası, logistika imkanlarının genişlənməsi və sosial hərəkətliliyin artması baxımından strateji əhəmiyyət kəsb edir.

Ölkəmiz tərəfindən vaxtında görülən mühüm tədbirlər sayəsində Orta dəhlizlə yüklərin daşınmasının dinamikası ildən-ilə yüksəlir. "Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata görə, ADY cari ilin 11 ayı ərzində 350 blok-qatar, o cümlədən 128 tranzit qatar qəbul edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 34 faiz artım deməkdir. Məlumatda həmçinin bildirilir ki, 11 ay ərzində ümumilikdə 123 992 TEU konteyner yük daşınıb. Bu isə 2024-cü ilin analoji dövrünün göstəricisindən (105 496 TEU) təxminən 18 faiz çoxdur.

*Rüstəm KAMAL, "Azərbaycan"*

## 11 ayda 532,7 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu il 11 ayında 532,7 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 177 min şəxs münasib işlərlə təmin olunub, 16,5 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.

Yanvar-noyabr aylarında 17,2 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 322 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## Mülkiyyətlə bağlı 328 mindən çox çıxarış verilib

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin yanvar-noyabr ayları ərzində daşınmaz əmlak üzərində 328 min 61 mülkiyyət hüququ qeydiyyata alınaraq çıxarışla təmin edilib.**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən verilən məlumata görə, qeydiyyata alınan mülkiyyət hüququnun 63 min 891-i (19,5 faiz) ilkin, 264 min 170-i (80,5 faiz) isə təkrar qeydiyyatın payına düşür.

Bu ilin yanvar-noyabr ayları ərzində fərdi yaşayış və bağ evi üzərində - 64 min 366, mənzil - 85 min 424, torpaq sahəsi - 166 min 494, qeyri-yaşayış binası - 2832, qeyri-yaşayış sahəsi - 8172, əmlak kompleksi - 667, çoxmərtəbəli yaşayış binası - 103 və çoxillik əkmələr üzərində - 3 mülkiyyət hüququnun dövlət qeydiyyatı aparılıb. Bu dövrdə qeydiyyata alınan mülkiyyət hüquqlarının 91 min 917-si Bakı şəhərinin, digər hissəsi isə bölgələrin payına düşür.

Bu ilin yanvar-noyabr ayları ərzində 235 min 713 texniki pasport tərtib edilib, 56 min 948 ipoteka müqaviləsi qeydiyyata alınıb.

# İlə yekun vurulur

# Özü cavan, yaşı qoca Lənkəran



## Bu qədim diyar 2025-ci ildə bir yaş da gəncləşdi

**Yaşını doğru-dürüst heç kim bilmir Lənkəranın. Qoynunda nə vaxtdan insan məskən saldığı da məlum deyil. Lakin o məlumdur ki, buradakı dağların, dərələrin, meşələrin, çayların, ləpələri ilə onlara layla çalan Xəzərin yaşı qədimdən qədimdir.**

Bu yerdə yadıma lənkəranlı bir ağsaqqal ziyalıdan təxminən 15 il əvvəl eşitdiyim rəvayət düşür. Guya bir nəfər böyük Yaradanın yanına gedib ondan ailəsi və yaxın adamları ilə birlikdə yaşamaq üçün gözəl, səfalı yer istəyir. Ona çox yerlər göstərilsə də, heç birini bəyənmir. Çox gəzib dolandıqdan sonra, nəhayət, indiki Lənkəranın ərazisinə gəlib çıxır. Həmin adam hündür bir yerdən ətrafa göz gəzdirir. Dağlar, dərələr, meşələr, çaylar, mavigözlü Xəzər onu valeh edir. "Bura lap cənnətin özüdür!" deyib əbədi olaraq ailəsi və adamları ilə birlikdə bu torpaqlarda məskən salır.

Zamanın çarxı fırlandıqca nəsillər gəlib, nəsillər köçüb bu məkandan. Dünyaya göz açan hər yeni nəsil isə doğulub böyüdüyü, çörəyini yediyi, suyunu içdiyi, havasını udduğu, vətən dediyi Lənkəran üçün bir iş görməyə, özündən sonra bir iz qoymağa çalışıb. Belə olub həmişə. İstər xanlıqlara qədər olan dövrdə, istərsə də sonra. O zamanların neçə-neçə abidəsi, yadigarı var bu yurdun sinəsində. Hər birinin də öz görkəmi, öz əzəməti.

Lənkəran vətənpərvər, istedadlı, zəhmətkeş insanların yurdudur. Onların sırasında Vətən yolunda canından keçən qəhrəmanlar, şair və yazıçılar, dövlət və incəsənət xadimləri, adlı-sanlı sadə əmək adamları bəs qədərdir. O qədər ki adlarını sadalamaqla qurtarmaz.

Bugünkü yaşlı nəslin yaddaşında izi qalan bir hadisə, bir tarix də var. Həmin tarix keçən əsrin 69-cu ilinin yayında Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi ilə bağlıdır. Həmin illər respublikamızda canlanma yarandı. Haqq-ədalət öz yerini tutmağa başladı. İqtisadiyyatın, mədəniyyətin, ictimai həyatın bütün sahələrində uğurlar əldə olundu. Keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında sonuncu olan Azərbaycan öncül sıralara çıxdı. Həmin vaxtlar Lənkəran da sürətlə inkişaf etməyə başladı. Ulu Öndər rayonun sosial-iqtisadi inkişafı ilə bağlı mühüm qərarlar qəbul etdi. Bu mühüm sənədlər əsasında qurulub-yaradılanların bir hissəsi bu gün də yaşamaqdadır.

SSRİ-nin çöküşü ilə əlaqədar hər yerdə olduğu kimi, Lənkəranda da xoşagəlməz hadisələr baş verdi. Çevrilişlə hakimiyyətə gələn və idarəetməni bacarmayan AXC-Müsavat cütlüyünün yol verdiyi səhvlər üzündən vəziyyət daha da qəlizləşdi. Xaos, özbaşınalıq, hərc-mərclik nəticəsində müstəqilliyini yenicə bərpa edən ölkə məhv olmaq təhlükəsi qarşısında qaldı. Lakin sanki Tanrı öz kölgəsini Azərbaycanın üstünə saldı. Xalqın təkidli tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi. Qısa vaxtda separatçı qüvvələr zərərsizləşdirildi, ermənilərlə atəşkəs əldə edildi, ölkədə sabitlik yarandı, çox mühüm islahatlar həyata keçirildi, xalqın sabaha inamı artdı.

2003-cü ilin oktyabr ayında İlham Əliyev səs çoxluğu ilə Prezident seçildi. Ulu Öndərin təşəbbüsü və gərgin fəaliyyəti sayəsində imzalanan neft müqavilələrindən gələn gəlirlər ilk növbədə sosial-iqtisadi, o cümlədən regional inkişafa yönəldildi. Bu məqsədlə 2004-2023-cü illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4 dövlət proqramı qəbul edildi və həmin sənədlərdə qarşıya qoyulan vəzifələr uğurla həyata keçirildi. Bu işlər Lənkəranın da yenidən dirçəlməsinə səbəb oldu.

Görülən quruculuq işlərinin siyahısına qısaca da olsa nəzər salaq. Meyvə-tərəvəz emalı ilə məşğul olan "Lənkəran Konserv" MMC, "Lənkəran Konserv" ASC, süd və dondurma emalı ilə məşğul olan "Pal Food" MMC, şirniyyat məhsulları istehsal edən "Qənnadı məhsulları fabriki", "Azərxalça" ASC-nin Lənkəran filialı, çay emal edən "Beta", "Yaşıl Çay" FT, "Gilan Tea", "Sun Tea", çəltik emal edən "Green Fast", "Cənub Aqro", "Faran" MMC-ləri, çörək zavodu, müasir tələblərə cavab verən ət kəsimi məntəqələri, plastik məmulatların buraxılması ilə məşğul olan "LP" MMC, dam örtükləri hazırlayan "NUK" müəssisəsi, suqızdırıcı qazanlar istehsal edən müəssisələr, avtomobillər üçün antifiriz istehsalı müəssisəsi, "Lənkəran Kərpic" ASC, avtoservis sexləri və digər irili-xırdalı müəssisələr son illər istifadəyə verilən istehsal və xidmət obyektlərinin kiçik siyahısıdır.





Bu illər ərzində rayonun kənd təsərrüfatı da dinamik inkişaf etmişdir. 2018-2025-ci illər üçün respublikada çəltikçiliyin və sitrus meyvəçiliyinin, 2018-2027-ci illər üçün çaycılığın inkişaf etdirilməsinə dair qəbul olunan dövlət proqramları ənənəvi sahələrdə əsaslı dönüş yaratmış, fermerlərdə torpağa yeni münasibət formalaşdırmışdır. Kənd təsərrüfatında istehsal edilən ümumi məhsulun həcmi 2024-cü ildə 2003-cü, yəni 21 il əvvəlkindən 4,4 dəfə çox olmuşdur. Bu dinamika 2025-ci ildə də davam edib. 11 ayda rayon üzrə 396 ton yaşıl çay yarpağı istehsal olunub, yığımı isə davam edir. Bu il həmçinin Lənkəranda 5700 tondan çox feyxoa, 2800 tona yaxın çəltik istehsal edilib.

"Yollar iqtisadiyyatın qan damarlarıdır" deyirlər. Ölkənin hər yerində olduğu kimi, Lənkəranda da yerli əhəmiyyətli, habelə kəndarası avtomobil yollarının tikintisi, yenidən qurulması, əsaslı təmiri istiqamətində genişmiqyaslı işlər görülüb. 40 min əhalinin yaşadığı 40 kilometrlik Lənkəran-Vilvan-Osaküçə-Türkəncil, 28 min əhalinin yaşadığı 12 kilometrlik Şürük-Vel-Qamışovka, 47 minlik əhalinin yaşadığı 18 kilometrlik Vilvan-Zövlə-Liman, 10 min əhalinin yaşadığı 18,8 kilometrlik Liman-Nərimanabad-Balıqçılar, 13 min əhalinin yaşadığı 10,2 kilometrlik Aşağı Nüvədi- Kənarmeşə-Şürük, 7 min əhalinin yaşadığı 22 kilometrlik Hirkan-Daştatük-Biləsər, 11 min əhalinin yaşadığı 7 kilometrlik Hirkan-Mamusta-Siyavar, 33 min əhalinin yaşadığı 38,6 kilometrlik Səpnəkəran-Şürük-Sütəmurdov-Velədi-Gərmətük-Bala Şürük-Kosalar-Kərgəlan-Lüvəsər-Bəlləbur-Qurunba avtomobil yolları yenidən qurulub. Həmçinin dağ kəndlərinə gedən yollar da əsaslı və cari təmir edilib.

2003-2025-ci illər arasında rayon əhalisinin elektrik enerjisinə, təbii qaza, içməli suya, rabitə, habelə poçt xidmətlərinə olan ehtiyaclarının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Abonentləri davamlı və keyfiyyətli elektrik enerjisi ilə təmin etmək üçün yaşayış məntəqələrinin elektrik təsərrüfatı yenidən qurulub. Çoxlu sayda elektrik dirəkləri təzələnib, xətlər, məftillər SİP kabellə əvəzlənib, transformatorlar və başqa avadanlıqlar yenilənib.

Təbii qazla təminata gəldikdə, 2003-2025-ci illər ərzində rayonun 93 yaşayış məntəqəsindən 73-ü tam olaraq qazlaşdırılıb, əhali abunəçilərinin sayı 48,7 minə, qeyri-əhalininki 582-yə çatdırılıb. Hazırda isə Daştatük, Moloja, Aşağı Apu kəndlərinə qaz çəkilir.

İçməli su və kanalizasiya sisteminin yaradılması ilə əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində Lənkəran şəhərinə, Şiləvar, Digah, Sütəmurdov, Velədi kəndlərinə yeni içməli su xətləri çəkilib, sakinlərin fasiləsiz və təmiz içməli su təchizatı yaxşılaşdırılıb.

Yeni tikilən binalar, yaşıllıqların, park və xiyabanların salınması Lənkəran şəhərinin gözəlliyinə başqa bir çalar qatır. Heydər Əliyev və "Sahil" istirahət parkları, beynəlxalq hava limanı, Bayraq meydanı, "Xocalı soyqırımı" abidə kompleksi, təzəlikcə inşa edilmiş 7 mərtəbəli 14 yaşayış binası, Gənclər Mərkəzi, Əsgər Əliyev parkı, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən yaşayış evləri, sosial əhəmiyyətli obyektlər bu sıradandır.

Xalqımızın böyük oğlu Heydər Əliyev hər bir sahənin inkişafını, millətin gələcəyini təhsildə görürdü. Bütün sahələrdə olduğu kimi, Prezident İlham Əliyev Ulu Öndərin təhsilə bu yanaşmasını da prioritet götürərək təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır. Lənkəranda da yeni məktəblərin tikilməsi, köhnələrinin əsaslı şəkildə təmir edilməsi, lazımi avadanlıqlarla təchiz edilməsi ön plana çəkilmişdir. 2003-2025-ci illər ərzində 1076 şagirdlik Lənkəran şəhər 7 saylı, Gəgiran kəndində 264 şagirdlik, Şıxəkəran kəndində 432 şagirdlik tam orta məktəblərin binaları tikilib istifadəyə verilib. Heydər Əliyev Fondunun vəsaiti ilə 632 şagirdlik Haftoni kənd, 420 şagirdlik Nərimanabad qəsəbə və 360 şagirdlik Viravul kənd 2 saylı tam orta məktəbləri üçün yeni binalar inşa olunub. Əlizərin kəndində 20, Köhnəgəgir kəndində 40, Jidi kəndində 96, Türkəncil kəndində 80, Kosalar kəndində 96 şagirdlik modul tipli binalar quraşdırılıb. Heydər Əliyev Fondunun vəsaiti ilə inteqrasiya təlimli internat tipli gimnaziya əsaslı şəkildə yenidən qurulub. Ümumilikdə rayon üzrə 55 məktəb tikilib və ya əsaslı şəkildə təmir olunub. Hazırda Lənkəran peşə liseyi üçün tədris, yataqxana və laboratoriya binaları inşa olunur.

Lənkəran gənclərin ali, orta və peşə təhsili üzrə müxtəlif sənətlərə yiyələndikləri bir məkandır. Təlim və tərbiyənin yüksək səviyyədə qurulması məqsədilə Lənkəran Dövlət Universitetinin yeni korpusu, yataqxanası və 1-ci tədris korpusu üçün əlavə dördmərtəbəli bina inşa olunub, 2-ci korpusda inşaat işləri başa çatdırılıb. Universitetin Elmi Kitabxanası üçün bina tikilib. Hazırda universitet üçün klinika binası tikilir.

Vətəndaşların sağlamlığı da dövlətin diqqət mərkəzindədir. Bu istiqamətdə 2003-2025-ci illər ərzində Lənkəran Mərkəzi Xəstəxanası əsaslı təmir edilib, Lənkəran Rayonlararası Psixiatriya Xəstəxanası, 8 həkim ambulatoriyası, 7 feldşer-mama məntəqəsi tikilib istifadəyə verilib. Lənkəran Regional Diaqnostika Mərkəzinin təyinatı dəyişdirilərək 70 çarpayılıq regional mərkəzə çevrilib. Rayonlararası Onkoloji Xəstəxanasında, Ağciyər Xəstəlikləri Dispanserində və Uşaq poliklinikasında təmir işləri həyata keçirilib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə TƏBİB-in tabeliyində olan Lənkəran Rayon Mərkəzi Xəstəxanasında tibbin müasir tələblərinə cavab verən kardiologiya üzrə ürək-damar cərrahiyyə şöbəsi açılıb, Liman Şəhər Ailə və Sağlamlıq Mərkəzində təcili və təxirəsalınmaz tibbi yardım stansiyası, həmçinin Lənkəran şəhərində Süd Vəzi Diaqnostika Mərkəzi və Çin Təbabət Klinikası istifadəyə verilib.

Son 22 ildə Lənkəran rayonunda mədəniyyət ocaqlarının əsaslı təmiri və tikintisi, tarixi mədəniyyət abidələrinin bərpası və konservasiyası istiqamətində uğurlu işlər həyata keçirilib. 2004-cü ildə N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı əsaslı şəkildə yenidən qurulub, 2006-cı ildə Xalq sənətkarlığı şəhərciyi, 2008-ci ildə Heydər Əliyev Muzeyi, 2015-ci ildə Lənkəran Tarix Diyarşünaslıq Muzeyi (Xan evi) və Lənkəran Şəhər Mədəniyyət Mərkəzi əsaslı təmirdən sonra istifadəyə verilib. Dairəvi qalada əsaslı təmir işləri başa çatıb.

Prezident İlham Əliyevin idmanın inkişafına verdiyi önəm, diqqət və qayğı Lənkəranda da özünü göstərir. Burada "Zirvə" İdman Sağlamlıq Mərkəzi, futbol stadionu, Regional Boks Təlim Mərkəzi, Olimpiya İdman Kompleksi gənclərin istifadəsindədir.

Lənkəranın təbii gözəllikləri onun turizm məkanına çevrilməsinə səbəb olub. Burada "Palıdlı sahil" və "Bəşəru" istirahət mərkəzləri, "Qafqaz" Turizm İstirahət Mərkəzi fəaliyyət göstərir. Ekoturizmin inkişaf etdirilməsi üçün Lənkəranın bir neçə kəndinə, çay plantasiyalarına, sitrus meyvə bağlarına səyahətlər olunur. Bu məqsədlə İstisu qəsəbəsindəki "Yaşıl Çay" Fermer Təsərrüfatında 22 nəfərlik "Nilado" hoteli və hotel tipli kənd evləri tikilib. Həmçinin Lənkəranda "Salyut" hoteli, "Riva Hill Resort Lankaran", "Dəniz Hotel" adlı hotel-restoran kompleksləri fəaliyyət göstərir.

Həyata keçirilən layihələr yeni iş yerlərinin açılmasına vəsilə olmuşdur. 2003-2025-ci illər ərzində rayonda 54 mindən çox yeni iş yeri açılıb. Cari ildə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 402 ictimai iş yeri yaradılıb.

Lənkəranda quruculuq işləri davam edir. Hər dəfə buraya yolun düşəndə neçə-neçə yeniliklə tanış olursan. Şəhərə daxil olanda yeni tikilən və inşası başa çatdırılan çoxmərtəbəli yaşayış binaları diqqəti özünə çəkir. Görülən işlər, həyata keçirilən tədbirlər hər bir lənkəranlının ürəyincədir. Lənkəran Rayon Ağsaqqallar Şurasının sədri Eldar Hüseynov deyir ki, dünyanın hər üzünü görüb, sovetlər vaxtı müxtəlif vəzifələrdə işləyib, Lənkəranın yaxşı və çətin günlərinin şahidi olub: "Keçən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi vaxtlarda Lənkəran sürətlə inkişaf edir və sorağı keçmiş SSRİ-nin hər tərəfindən eşidilirdi. Rayon Moskvanın və ovaxtkı Leninqradın tərəvəz bazası hesab olunurdu. Azərbaycana gələn hörmətli adamların demək olar ki, hamısı Lənkərana qonaq gəlirdi. O zamanlar da burada böyük quruculuq işləri aparılırdı. Həmin ənənə xalqın sevimlisinə çevrilən Prezident İlham Əliyev tərəfindən bu gün də davam edir. Hələ o vaxtlar "Cənub mirvarisi" sayılan Lənkəran indi sovet dövründə olduğundan qat-qat sürətlə inkişaf edir. Şəhərimiz tikinti meydançasını xatırladır. Yeni çoxmərtəbəli yaşayış evləri, sosial təyinatlı obyektlər bir-birinin ardınca tikilib istifadəyə verilir. Şəhərimiz durmadan abadlaşır, qəsəbə və kəndlərə yollar çəkilir. Rayonda çayçılıq, çəltikçilik, sitrus meyvəçiliyi Prezidentin imzaladığı sərəncamlar sayəsində dirçəlib. Əhalinin işığa, təbii qaza, içməli suya olan tələbatı yüksək səviyyədə ödənilir".

Tofiq Hüseynov Lənkəran Dövlət Universitetinin müəllimidir. Bildirir ki, bu qədim diyar respublikamızın elm-təhsil mərkəzlərindən biridir: "Burada ali məktəb, orta ixtisas təhsili verən kolleclər, peşə təhsili liseyi, Azərbaycan Elmlər Akademiyasının Cənub Regional Mərkəzi və s. fəaliyyət göstərir. Universitetdə yüzlərlə tələbə müxtəlif ixtisaslar üzrə təhsil alır, onların təlim-tərbiyəsi ilə neçə-neçə elmlər doktoru, ayrı-ayrı sahələr üzrə fəlsəfə doktorları məşğul olurlar. Tələbələrin seçdikləri ixtisaslara mükəmməl yiyələnməsi üçün universitetimizdə son illər yeni korpuslar tikilib istifadəyə verilib. Lənkəranda yaşamaq, işləmək, hansısa təhsil ocağında təhsil almaq, mən deyərdim ki, xoşbəxtlikdir. Ölkənin müxtəlif rayonlarından olan yüzlərlə gənc seçdikləri ixtisasa yiyələnməklə yanaşı, tələbəlik həyatını mənalı yaşayırlar. Lənkəranın zəngin tarixi, görməli yerləri, turizm imkanları, təbiəti hər kəsdə xoş hisslər oyadır. Təhsil almaqla bərabər, tələbələrin mədəni istirahəti, asudə vaxtlarını səmərəli keçirməsi üçün Lənkəranda hər bir şərait vardır. Lənkəran Dövlət Dram Teatrı, Gənclər Evi, Olimpiya İdman Kompleksi tələbələrin sevimli yerləridir. Bütün bu şərait müstəqilliyimiz dövründə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində yaradılıb. Lənkəran bu gün də inkişaf yolundadır. Şəhər rəhbərliyi Lənkəranın abad olması, yeni iş yerlərinin açılması, həyat şəraitinin yaxşılaşması üçün əlindən gələni əsirgəmir.

Belə bir deyim var: "Gözəllik ondur, doqquzu dondur". Böyük Yaradan Lənkəran torpağına nə desən verib. Vüqarlı dağlar, ən nadir ağaclarla örtülü zümrüd donlu meşələr, bol sulu çaylar, mavi dəniz. Subtropik iqlim şəraitinə malik olan Lənkəran ətirli çayı, limonu, naringisi, portağalı, feyxoası və digər nemətləri ilə məşhurdur. Çöl quşlarından, kütüm balığından bişirilən ləvəngi, müxtəlif növ plovlar onun vizit kartıdır. Bir də insanlarının səmimiyyəti, qonaqpərvərliyi və yaşamaq həvəsi. Bunlar təbiətlə cəmiyyətin ayrılmaz olduğunu, həmahəng səsləndiyini, bir-birini tamamladığını göstərir və o zaman susmaq mümkün olmur:

*Əsrlər ötsə də başının üstdən,*
*Ruhuna, hüsnünə gəlir təzə can.*
*Elə buna görə deyirəm ki, mən,*
*Zamanın yaşıdı qoca Lənkəran,*
*Maşallah, yamanca cavanlaşırsan.*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***





# Ağcabədi bələdiyyəsi nümunə göstərir

## Bu yerli özünüidarəetmə qurumu vergi daxilolmaları üzrə kənd rayonları sırasında birincidir



**Ölkədə aqrar sektorun inkişafında örnəyə çevrilən Ağcabədi sosial-iqtisadi həyatın digər sahələrində də uğurlara imza atır, mütərəqqi texnologiyaların, qabaqcıl təcrübənin, elmi yeniliklərin tətbiqini yaradıcılıqla təmin edərək Azərbaycandakı yüksəlişdən geri qalmır.**

Rayon mərkəzi, kəndlər, qəsəbələr abad görkəmi ilə diqqət çəkir, məmnunluq doğurur. Şəhərin ən ucqar küçələrinə, kənd yollarına asfalt örtük salınır. Rayon sakinləri daha qazdan, sudan, işıqdan gileyli deyillər. Çünki dövlətin böyük və davamlı qayğısından hər evə, hər ailəyə pay düşür.

Son günlərini yaşadığımız 2025-ci il tarixə çevrilir. Bu il də Ağcabədinin sosial-iqtisadi həyatında qazanılmış nailiyyətlərlə yadda qalacaq. Cari il təsərrüfat, abadlıq-quruculuq işləri həyata keçirilmiş, əhalinin güzəranı yaxşılaşmış, məqsədyönlü qaydada yaradılmış sağlam mənəvi-psixoloji mühit sayəsində vətəndaş məmnunluğu təmin edilmişdir.

Rayonun ictimai-siyasi həyatında ən əlamətdar hadisələrdən biri haqqında söhbət açmaq istəyirik. İnkaredilməz reallıqdır ki, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin fəaliyyətsizliyi çox zaman tənqid hədəfi olur. Dövlət səviyyəsində bələdiyyələrin işini canlandırmaq, onların səmərəli fəaliyyəti üçün münbit şərait yaratmaq, onlara zəruri qayğı və diqqət göstərmək Ağcabədi rayonunun timsalında öz gözləntilərini verir. Bələdiyyə idarəetməsində təmərküzləşmə, əvvəlki dövrə nisbətən iri bələdiyyələrin yaradılması real müsbət nəticələr verir. Əgər əvvəlki dönəmdən Ağcabədidə 41 bələdiyyə vardısa, ötən seçkilərdən sonra onların sayı 15-ə enmişdir. Əvəzində bələdiyyə qurumları vasitəsilə əhaliyə göstərilən müxtəlif xidmətlərin keyfiyyəti xeyli yaxşılaşmışdır.

Ağcabədi bələdiyyəsi rayon mərkəzi ilə yanaşı, Şənlik, Nəcəfqulubəyli və Aşağı Avşar kəndlərini əhatə edir. Bu yaşayış məntəqələrində 52 min nəfər yaşayır. Az deyil, ölkəmizdə bəzi rayonların əhalisi təxminən bu qədərdir.

Müdriklər "elin gözü tərəzidir" deyiblər. Ötən il bələdiyyə seçkilərində Ağcabədi bələdiyyəsinə namizədlər haqqında səslənən bəzi fikirlərin qərəzli və subyektiv olduğunu ən böyük hakim olan zaman təsdiqlədi. O vaxt müxalif mövqedən çıxış edənlər bu gün elin-obanın məmnunluğunu görüb səhvlərini etiraf edir, xalqın seçiminə hörmətlə yanaşırlar. Sıradan sadə bir faktı xatırlamaq yerinə düşər. Ötən bələdiyyə seçkiləri ərəfəsində Şənlik kəndindən şəhid atası Qənbər Ağayev də namizədliyini irəli sürmüşdü. Hər zaman ara qarışdırıb bulanıq suda balıq tutmağa adət etmiş bir qrup bələdiyyə sədri olmağın məhz onun haqqı olduğunu ictimai yerlərdə, sosial şəbəkələrdə uca səslə, həm də israrla bildirir, seçkilərdə guya demokratik prinsiplərin pozulduğunu dönə-dönə vurğulayırdı. Amma həyata sərraf gözü ilə baxan el-oba seçimində yanılmadı. Sonda bu vəzifəyə layiq olan namizəd qazandı. Bu yaxınlarda Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının ərazidə keçirdiyi səyyar qəbulda söz alıb danışan Şənlik kənd sakini şəhid atası Qənbər Ağayev dedi ki, camaatımız Ağcabədi bələdiyyəsinin işindən çox razıdır. Sağ olsunlar, hər sözümüzə qayğı ilə yanaşırlar.

Ağcabədi bələdiyyəsi cari ili üz ağlığı ilə başa vurur. İl ərzində bələdiyyə fəaliyyətinin əsas istiqaməti şəhid ailələrinə, qazilərə, aztəminatlı ailələrə davamlı qayğını təmin etməkdən ibarət olmuşdur. Faktlara nəzər salaq. Qurban bayramı münasibətilə 20 şəhid ailəsinə ərzaq bağlaması çatdırılmışdır. İki aztəminatlı ailəyə yas mərasimi üçün maddi yardım edilmişdir. Ali məktəbə qəbul olmuş iki aztəminatlı ailənin övladının hər birinə 1000 manat hədiyyə edilmiş, yeni dərs ili ərəfəsində 25 aztəminatlı ailənin uşaqlarına məktəbli forması, ayaqqabı, çanta və digər məktəb ləvazimatları verilmişdir. 8 Noyabr - Zəfər Günü ərəfəsində isə 22 şəhid ailəsinə bayram sovqatı çatdırılmış, bələdiyyənin vəsaiti hesabına şəhid analarının Qəbələ şəhərinə səfəri təşkil olunmuş, Beynəlxalq Əlillər Günü münasibətilə 33 nəfər əlilə maddi yardım edilmişdir.

2025-ci ilin nəticələri sırasında abadlıq-quruculuq işləri də geniş yer alır. Şəhərdəki iki körpü əsaslı təmir edilmiş, əlavə bir körpü inşa edilib əhalinin istifadəsinə verilmişdir. Bələdiyyənin balansında olan 6 qəbiristanlıq il ərzində iki dəfə təmizlənmiş, əraziləri abadlaşdırılmışdır. Bu tədbirlər təbii ki, əhali tərəfindən minnətdarlıqla qarşılanmışdır. İl ərzində həmçinin yol infrastrukturunun yaxşılaşdırılması sahəsində də xeyli iş görülmüşdür. Şənlik kəndində və şəhər ərazisində bəzi ara yollara çınqıl döşənmişdir.

Cari ilin 11 ayı ərzində Ağcabədi bələdiyyəsi 800 nəfərdən çox vətəndaşı qəbul etmişdir. Onların təklif və müraciətlərinə həssaslıqla yanaşılmış, "Xalq üçün, xalqa xidmət naminə" prinsipi əsas götürülmüşdür.

Ağcabədi bələdiyyəsinin sədri İsmayıl Rəsulov illərin ayrıcında fikirlərini bizimlə də bölüşdü: "Başa çatmaqda olan 2025-ci ilin uğurları çoxdur. Amma əsas odur ki, əhalinin böyük əksəriyyəti fəaliyyətimizdən razıdır. Çalışırıq ki, əhaliyə nümunəvi xidmət edək, onlarda məmnunluq yaratmağa nail olaq. Yadda qalan, minnətdarlıq doğuran işlərimiz çox olsa da, görüləsi işlərimiz də az deyil. Yeni ildə kommunal xidmətlərin təşkilində bir sıra yeniliklər etməyi nəzərdə tuturuq. Bir vacib məsələ isə bələdiyyə torpaqlarının alqı-satqısının təkmilləşdirilməsidir. Bu olarsa, büdcəmiz daha da böyüyər. Bu ilin 11 ayı ərzində ölkə üzrə şəhər bələdiyyələrinin (Bakı və Sumqayıt istisna olmaqla) vergi daxil olması üzrə artım göstəricilərində birinci yerdəyik. Keçən illə müqayisədə 6 dəfə artıma nail olmuşuq. Əsas hədəfimiz yeni ildə yeni istehsal sahələri yaratmaq, əhalinin faydalı məşğulluğunu təmin etməkdir".

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Vətən oldu oğullar

# Aprel zəfərinin Mühüd zirvəsi



**Mühüd ORUCOV...**
**Düşmən dərinliklərinə sızıb dəfələrlə ona qan udduran əfsanəvi kəşfiyyatçı...**
**Aprel döyüşlərinin onurğa sütunu...**
**Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin şəhid kapitanı...**
**Adı hər zaman torpağını, millətini, bayrağını canından çox sevən qəhrəman kimi anılan vətən oğlu...**
**Sanki tanrı Mühüdü bu dünyaya kəşfiyyatçı olmaq üçün gətirmişdi, həm fiziki, həm mənəvi anlamda. Qədd-qamətli, baxışlarından daim zəhm yağan bu igidin canında hər zaman düşmənə qarşı çarpışmağa hazır döyüşçü ruhu yatırdı.**
**Qədim türk eli Qazaxın Fərəhli kəndində dünyaya göz açan Mühüd ta uşaqlığından elə bil od-alov idi, heç bir qorxu bilməz, təhlükələrin üzərinə hamıdan əvvəl cəsarətlə atılardı və bütün mübarizələrində də qalib çıxardı. Kəndlərinin düşmən mərmilərinin hədəfinə çevrilməsinə körpə yaşlarından şahidlik edən Mühüdün qanına qisas hissi zərrə-zərrə hopurdu, torpaqlarımızın işğalı ilə heç cür barışa bilmir, həyatının gələcək istiqamətinə də elə bu vətənpərvərlik hissləri yön verirdi.**
**Beləcə, Mühüd Orucovun Cəmşid Naxçıvanski adına hərbi liseydən başlayan və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən (Heydər Əliyev adına Hərbi İnstitut) keçərək döyüş meydanlarına uzanan şərəfli hərbçi yolu onu Aprel zəfərinə, insanlığın şəhidlik məqamına ucaltmışdı.**

### Şərəf illəri

Kapitan Mühüd Qurban oğlu Orucov 13 iyul 1984-cü ildə Qazax rayonunun Fərəhli kəndində anadan olub. 1999-2002-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseyi və 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. 2006-2007-ci illərdə Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisası kursunu bitirərək müdafiə nazirinin əmri ilə kəşfiyyat ixtisası üzrə tağım komandiri vəzifəsinə təyin olunub və sonra xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirməyə başlayıb. Xidməti zamanı uğurlu nəticələr əldə etdiyinə görə Xüsusi Təyinatlı Qüvvələrdə qısa müddətdə kəşfiyyat qrup komandiri vəzifəsindən kəşfiyyat tabor komandiri vəzifəsinə kimi yüksəlib.

Xidməti dövründə çox sayda fəxri fərmanlarla və 5 medalla müdafiə naziri və xüsusi təyinatlı qüvvələr komandanı tərəfindən təltif edilmişdir. 2008-ci, 2014-cü, 2015-ci illərdə Türkiyədə Xüsusi Təyinatlı Qüvvələr, Paraşüt, Qoruma və Komando kurslarını müvəffəqiyyətlə bitirərək sertifikatlar almışdır.

Özünü peşəkar zabit, kəşfiyyatçı kimi yetişdirən, daim üzərində çalışan Mühüd Orucov dəfələrlə öz tabeçiliyində olan şəxsi heyəti ilə düşmən arxasına sızaraq xüsusi təyinatlı qüvvələr komandanı general polkovnik Hikmət Mirzəyev tərəfindən verilən döyüş tapşırığını uğurla icra etmişdir. Ermənistanın kəşfiyyat-təxribat qruplarının təmas xəttini keçməyə cəhd göstərməsi səbəbindən 2014-cü il iyulun 31-dən avqustun 1-nə keçən gecə Ağdam və Tərtər rayonları ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində toqquşma baş verdiyi 3 gün ərzində davam edən döyüşlərdə kapitan Mühüd Orucov göstərdiyi şəxsi şücaətlə fərqlənib. Həmin zaman düşmənin Azərbaycan Ordusuna məxsus postu almaq üçün yaylım atəşi açması nəticəsində postdakı bir neçə zabit yaralanmış, əsgərlər şəhid olmuşdu. Kapitan Mühüd Orucov yaylım atəşinə rəğmən posta girib, oradan yaralı zabitləri çıxarda bilmişdi. Post silah-sursatla təmin edilmiş, düşmən layiqli cavabını almış və qarşı tərəf böyük itkilər verərək geri çəkilməyə məcbur qalmışdı.

Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Avqust döyüşlərində göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Mühüd Orucov ən ali səviyyədə mükafatlandırılıb. Belə ki, həmin döyüşlərdən az sonra Xüsusi Təyinatlılar Komandanı Mühüd Orucova xüsusi hazırlaşmalı olduğunu deyir. Həmin zaman Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev döyüş bölgəsini ziyarət etmiş, kapitan Mühüd Orucovla və onun döyüşçü yoldaşlatı ilə görüşmüş, onlara döyüşdə göstərdiyi xüsusi şücaətinə görə komandan kimi öz adından və Azərbaycan xalqı adından təşəkkür etmişdi. Mühüd Orucovun əlini sıxaraq gələcək əməliyyatlarda uğurlar arzu edən Prezident ona xatirə üçün qızıl saat da hədiyyə etmişdi.

### Son döyüş, Mühüdün çin olan arzusu

Onilliklərdən sonra Azərbaycan hərbçisi Aprel döyüşlərində qazanılan şanlı zəfər sayəsində ilk dəfə işğaldan azad edilən torpaqlarımıza qədəm qoydu. Mühüd Orucov və yüzlərlə qəhrəman Azərbaycan oğlunun böyük şücaətlər göstərərək bayrağımızı Lələtəpə yüksəkliyinə və Talış kəndinin hakim (indiki Suqovuşan) yüksəkliklərində dalğalandırmaları tezliklə digər ərazilərimizin də düşməndən azad ediləcəyinin müjdəsi, Şuşa Zəfərinin carçısı oldu.

Çox təəssüf ki, böyük qələbəni görməyə XTQ-nin tabor komandiri kapitan Mühüd Orucovun ömrü yetmədi. Aprel döyüşlərində son damla qanına qədər döyüşərək şəhadət zirvəsinə ucaldı.

Dördgünlük Aprel döyüşləri zamanı Ermənistan ordusu dayanmadan Azərbaycan Ordusunun cəbhə bölgəsindəki postlarına hücumlar edirdi. Mühüd Orucovun rəhbərlik etdiyi xüsusi təyinatlı tabor döyüşlərdə fəallıq göstərirdi və əsas istiqamətdə düşmənə qarşı mətanətlə vuruşurdu. Strateji əhəmiyyəti olduğu üçün düşmən bu postu ələ keçirməyə cəhd edir və əsas qüvvələrini də elə bu istiqamətdə cəmləmişdi. Mühüd Orucovun rəhbərlik etdiyi tabor düşmənə göz açmağa imkan verməyərək onun bütün canlı qüvvəsini məhv etmişdi. Buna görə də postu almağın mümkünsüz olduğunu anlayan erməni tərəfi onu almaq üçün zirehli hərbi texnikasını bu istiqamətə yönəltmişdi. Çoxsaylı tanklar hər iki tərəfdən postu nişan alaraq yaylım atəşləri açır, hər dəfəsində də istehkamlar zədələnirdi. Ancaq Mühüd Orucov bir addım da olsun geri çəkilməyi düşünmür, son ana qədər düşmənin canlı qüvvəsinə, ağır texnikasına qarşı qəhrəmancasına döyüş aparır. Növbəti zərbələrin birində ağır artilleriyadan atılan mərmilərin qəlpələri kapitanın bədəninə dolur. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin qəhrəman kəşfiyyatçısı Mühüd Orucov yaralı halda son damla qanına kimi, son nəfəsinə kimi döyüşərək şəhid olur.

Aprel döyüşlərində kapitan Mühüd Orucovun şəxsi qətiyyəti, əzmi, igidliyi sayəsində ön postu qoruyub saxlamaq mümkün olmuşdu. Qısa zaman ərzində Azərbaycan Ordusu hücumlarını kəskinləşdirmiş, düşmənin bütün mövqelərini vuraraq darmadağın etmişdi. Uğurla nəticələnən döyüş sayəsində hərbi strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyi illərdən sonra azadlığına qovuşdurulmuşdu.

Şəhadəti ilə doğmalarını, el-obasını, mənsubu olduğu Xüsusi Təyinatlı Qüvvələrin hər bir üzvünü yasa boğan kapitan Mühüd Orucovu son mənzilə yola salmaq üçün minlərlə insan bir yerə toplaşmışdı. Ön sırada isə onunla döyüşlərdə çiyin-çiyinə vuruşmuş zabit yoldaşları dayanmışdı. Hər birinin ürəyində isə Mühüd Orucov və Azərbaycanın bütövlüyü uğrunda bu torpağa canını qurban verən vətən övladlarının qisas hissi, gözlərində qəzəb atəşi...

2016-cı il aprelin 2-dən 3-nə keçən gecə Tərtər-Goranboy istiqamətində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalan kapitan Mühüd Orucov göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Prezidentin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilib. 2016-cı ildə Qazax şəhərinin mərkəzində adına bulaq kompleksi tikilib. Eyni zamanda xatirəsini əbədiləşdirən daha bir bulaq Fərəhli kəndinin girişində tikilib.

"Qarabağa doğru" sənədli filmi kapitan Mühüd Orucov, baş leytenant Elvin Namazov və əsgər Orxan Əliyevin əziz xatirəsinə həsr olunub. Ailəli idi. Əkiz oğul övladı yadigar qalıb.

### Təkbaşına 40 düşmən xüsusi təyinatlısını məhv edib

Şəhidin həmsöhbət olduğumuz Xüsusi Təyinatlı Qüvvələrin mənsubları olan zabit yoldaşları bir ağızdan söylədilər ki, kapitan Mühüd Orucov onların hər birinin qəlbinin qəhrəmanıdır.

XTQ mənsubu polkovnik-leytenant Mahir Babayev Mühüd Orucovla birlikdə 2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. M.Babayev deyir ki, Mühüd Orucov hərbi məktəbdə oxuduqları zamandan fiziki hazırlığına, savadına, bacarığına görə həmişə seçilərdi:

- Mühüd kəşfiyyatçı ixtisasında oxuyurdu və qarşıda peşəkar kəşfiyyatçı olmaq üçün öz üzərində çox çalışırdı. Xüsusi Təyinatlı Qüvvələr kursunu bitirdikdən sonra XTQ-yə xidmətə gəldim və biz haradasa iki ilə yaxın müddət ərzində Mühüdlə bir otaqda qaldıq. O, burada xidmətə məndən əvvəl gəldiyi üçün bir müəllim kimi Xüsusi Təyinatlı Qüvvələrlə əlaqədar hər bir şeyi öyrənməkdə mənə çox kömək oldu. Savadlı, bacarıqlı, fiziki hazırlığı yüksək olan Mühüdün həm də sərrast atıcılıq qabiliyyəti vardı. Bütün bu qabiliyyətlərinə görə, o, həmişə digərlərindən iki-üç pillə öndə olurdu. Həyata keçirdiyimiz döyüş tapşırıqlarını tutaq ki, biz 20-30 faiz icra edirdiksə, Mühüddə bu faiz həmişə 100 olurdu.

Yalnız bir döyüş tapşırığını misal çəkim ki, o, təkbaşına erməni xüsusi təyinatlılarının 40-a yaxın şəxsi heyətini məhv etmişdi. Bu, çox böyük göstəricidir. Hər kəs bilir ki, bir xüsusi təyinatlı 3-4, daha yüksək hazırlıqlı olanda hətta 7-yə yaxın əsgərə bərabər olur. O, çox prinsipial adam idi və qatıldığı çoxsaylı xarici kursların hamısını birinciliklə bitirmişdi.

Demək olar ki, Mühüddə qorxu hissi yox idi, çox cəsarətliydi, heç bir tapşırıqdan çəkinmirdi. Aprel döyüşlərində isə Mühüd Orucov elə böyük igidlik nümayiş etdirdi ki, hər kəsin qəhrəmanına çevrildi. Həmin vaxt o, səngərdə təkbaşına düşmən tanklarına qarşı əlində avtomat döyüş aparıb. Bu özü təsvirəgəlməz şücaətdir. Mühüd Aprel döyüşlərində bütün hərbçi yoldaşlarını ağır vəziyyətdən çıxartdıqdan sonra özü səngərdə təkcə qalaraq sonacan vuruşub və qəhrəmanlıqla şəhid olub.

### Kəşfiyyatın "Mixaylo"su, qəlblərin qəhrəmanı

Mühüd Orucovla Xüsusi Təyinatlı Qüvvələrdə eyni hərbi hissədə xidmət zamanı tanış olduğunu deyən XTQ mənsubu ehtiyatda olan baş leytenant, 2-ci qrup müharibə əlili Teyyub Hacıyev söylədi ki, xidmət etdiyi dövrdə Mühüd Orucov onların komandiri olub:

- O, təkcə bizim komandirimiz deyil, müəllimimiz, dostumuz, böyük qardaşımız olub. Nə çətinliyimiz olurdusa, ona müraciət edirdik, həmişə də bizə dəstək olurdu.

Mühüd əməliyyat tapşırıqlarına, yəni düşmən arxasına getməyə özü can atırdı. İstəyirdi ki, bir komandir kimi tapşırıqların icrasına özü nəzarət etsin. Yəni Mühüd təkcə Aprel döyüşlərində qəhrəmanlıq etməyib, 2016-cı ilə qədər də o, çoxsaylı şücaətlər göstərib. Xüsusi Təyinatlı Qüvvələrin tabor komandiri idi. Bunun özü Mühüdün yüksək peşəkarlığından xəbər verir. Eyni zamanda o, hərbçi kimi qazandığı peşəkar təcrübəni 2016-cı ilin aprelində döyüş meydanında əyani müstəvidə də nümayiş etdirdi.

2012-ci ildə Qazaxda düşmən döyüş postumuza qumbara atıb beş əsgərimizi şəhid etmişdi. Ondan sonra Mühüdə qisas alınması üçün döyüş tapşırığı verilmişdi. Mühüd öz xüsusi təyinatlı kəşfiyyat qrupu ilə düşmən blendajını partladaraq güclü zərbə vurub, canlı quvvəsinə çox ciddi itki vermişdi.

Mühüdə verilən bütün döyüş tapşırıqları uğurla nəticələnirdi. Mühüd Orucovun ümumilikdə Xüsusi Təyinatlıların mənsubu olaraq Azərbaycan Ordusundakı yüksək uğurları təkcə əməliyyat tapşırıqları, yaxud döyüşlərlə ölçülmür. O, xüsusi təyinatlıların hazırlanmasında böyük rolu olan şəxslərdən biri idi. Mühüdin tabor komandiri kimi hərbi təlimlərdə peşəkar kadrların yetişdirilməsində böyük əməyi vardı. Tələbkar tabor komandiri öz biliyini, təcrübəsini yetişdirdiyi kadrlara da məharətlə ötürürdü və o da təsadüfi deyildi ki, Mühüd Orucovun taboru həmişə birinci yerdə olurdu.

Bu gün Mühüdün adı gələndə döyüş yoldaşları deyir ki, o, bizim qəlbimizdə həmişə milli qəhrəmandır. Biz hamımız hər zaman "Mixaylo" deyə çağırdığımız Mühüd Orucovu Aprel döyüşlərinin simvolu sayırıq. Mühüd Orucovun şəhidliyi nəinki bizə - Xüsusi Təyinatlı Qüvvələrə, ümumilikdə Azərbaycan Ordusuna böyük itki oldu. Əgər o şəhid olmasaydı, əminəm ki, Vətən Müharibəsi Qəhrəmanı, öz arzuladığı kimi general olacaqdı...

Onun həmişə dediyi bir sözü var idi ki, ya general olacam, ya da ki, şəhid. Allahın qisməti belə oldu ki, ona şəhidlik qismət oldu...

### Xüsusi təyinatlıların "Alfa"sı

2002-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini Mühüd Orucovla bir yerdə oxumuş XTQ mənsubu, ehtiyatda olan polkovnik-leytenant Bəhruz Abdurəhmanov söylədi ki, onlar hərbi təhsil ocağının ilk iki ilini bir sinifdə oxuyub, daha sonra isə ayrı tağımlarda olublar:



- XTQ-də xidmət etmək üçün qəbul könüllüdür və altı aydanbir gəlib ora seçim edirlər. Əgər sən istəyirsənsə və tələb olunan parametrlərə, boy, yaş və sair şərtlərə uyğunsansa, altı ay kurs keçərək uğur qazanırsansa, xidmət edirsən. Mən 2010-cu ildə Xüsusi Təyinatlı Qüvvələrə gələndə Mühüd artıq kursu keçib burada xidmət edirdi və mən də onun qrupuna düşdüm. Mühüd qrup komandiri idi, mən isə onun müavini. Doqquz ay xidmətimizdən sonra yeni bir qrup yaradıldı və məni başqa qrupa verdilər. Ondan sonra Mühüdlə 2015-ci ildə yenidən bir bölmədə oldum. Həmin il o, bizə tabor komandiri vəzifəsinə gəldi. Bizim birlikdə xeyli döyüş tapşırığımız oldu. Mühüd Orucov çox bacarıqlı, inadkar, istədiyini əldə edənə qədər durmayan əzmkar bir insan kimi də bütün döyüş yoldaşlarının xatirində qalıb. Adətən Xüsusi Təyinatlı Qüvvələrin mənsublarına, orada xidmət edən şəxslərə deyirlər ki, ora canavar yuvasıdır. Əgər ora canavar yuvasıdırsa, Mühüd də oranın "Alfa"sıdır. 2016-cı ilin aprel hadisələrində Mühüd olduğu postda, hansı ki onu döyüşərək almışdılar, son nəfəsinə qədər vuruşdu, onu tərk etmədi və orada igidliklə şəhid oldu.

Mühüd Orucov daim ehtiramla, hörmətlə yad ediləcək. Allah qəhrəman şəhidimizə rəhmət eləsin.

### Mühüddən sonra...

Kapitan Mühüd Orucov hər zaman döyüş tapşırıqlarını şəxsən özü yerinə yetirmək üçün can atdı. Nə istirahətini düşündü, nə hansısa təhlükəli, çətin tapşırıq onu bu yoldan çəkindirdi. Cəsarətli, qorxmaz kəşfiyyatçı düşmən üzərinə hər zaman ürəyində ta uşaqlığından böyütdüyü qəzəb atəşi ilə getdi, hər dəfəsində də onu yerlə-yeksan edərək qayıtdı.

Qaya kimi sərt və sarsılmaz Azərbaycan oğlu hərb gündəliyinə çoxsaylı qürurlu və qalibiyyətlərlə dolu səhifələr yazdı, 32 illik qısa ömür yoluna böyük qəhrəmanlıqlar sığdırdı...

Beləcə, Xüsusi Təyinatlı Qüvvələrin əfsanəvi kəşfiyyatçısı şəhid kapitan Mühüd Orucov adını Azərbaycan hərb tarixinə və xalqımızın qəlbinə unudulmaz qəhrəman kimi həkk etdi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Böyük qayıdış"
### proqramı sürətlə icra olunur

# Xocavəndin Sos, Xocalının Seyidbəyli və Təzəbinə kəndlərinə köçən ailələrə evlərinin açarları təqdim olunub









Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. AZƏRTAC xəbər verir ki, bu mərhələdə Xocavəndin Sos kəndinə 21 ailə - 94 nəfər köçürülüb. Yola salınan ailələr doğma yurdlarına qovuşublar.

Xocavənd rayonu Sos kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Növbəti köç karvanı ilə Sos kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, öz evlərində məskunlaşıblar. Kəndə qədəm qoyan ailələr doğma yurda qovuşmağı sevinc göz yaşları ilə qarşılayıb və yaradılan gözəlliyi seyr ediblər.

* * *



Dekabrın 16-da Xocalı rayonunun Seyidbəyli və Təzəbinə kəndlərinə də keçmiş məcburi köçkünlərin daha bir qrupunun növbəti köçü olub. Köç karvanı Ağdam rayonunun Dördyol ərazisindən yola salınıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu mərhələdə 85 nəfərdən ibarət 20 ailə doğma yurduna dönüb. Ailələrdən 10-u, yəni 41 nəfəri Seyidbəyli kəndində, digər 10 ailə, 44 nəfər isə Təzəbinə kəndində yeni bərpa edilən yaşayış evləri ilə təmin olunub.

Öz doğma yurdlarına qovuşan ailələrə mənzillərinin açarları təqdim edilib. Mərasimdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, azad edilmiş ərazilərdə yaşayışın bərpası və dayanıqlı məskunlaşmanın təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Onun sözlərinə görə, hər iki kənddə müasir infrastruktur yaradılıb, sakinlərin sosial rifahının yüksəldilməsi və məşğulluğunun təmin olunması üçün zəruri şərait formalaşdırılıb.

Qeyd olunub ki, Seyidbəyli və Təzəbinə kəndlərində bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir, yaşayış evləri ilə yanaşı, məktəb, sosial obyektlər, mühəndis-kommunikasiya xətləri və yol infrastrukturu istifadəyə verilib.

Uzun illərdən sonra yurdlarına daimi məskunlaşma üçün yola salınan sakinlər qayıdışı böyük sevinc hissi ilə qarşılayıblar. Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Xocavəndlilər razılıq edirlər







"Mənim üçün doğma yurda qayıtmaq çox böyük sevincdir. Açığı, hisslərimi sözlə ifadə etmək çətindir".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Xocavənd rayonunun Sos kəndinə köç edən keçmiş məcburi köçkün Fikrət Hüseynov deyib.

"Həmin illərin ağrısı, çətinliyi hələ də yaddaşımdadır. Həyatımız o vaxtdan tamam dəyişdi. Çox çətin günlər keçirdik, böyük itkilərimiz oldu. Amma bütün bunlara baxmayaraq, bu gün torpaqlarımıza qayıtmaq bizə yeni ümid verir", - deyə F.Hüseynov vurğulayıb.

Sos sakini həmçinin bildirib ki, əvvəllər həmin kənddə yaşamasa da, orada məskunlaşmaq onun ən böyük arzusu olub.

"Biz əslən Füzuli rayonundanıq. Mən daha çox Sos kəndinə getmək istəyirdim. Kənd seçimi ilə bağlı müraciət etdik, adım siyahıya salındı və sonradan mənə bildirildi ki, həmin kəndə köçəcəksiniz. İnşallah, öz evimizdə, öz ailəmizlə, öz zəhmətimizlə yaşaya biləcəyik", - deyə o diqqətə çatdırıb.

* * *

Daha bir xocavəndli İbrahim Nəcəfov isə qeyd edib ki, doğma yurda qayıtmaq çox gözəldir. Bundan gözəl hiss ola bilməz: "Mən oradan 4 yaşımda çıxmışam, indi isə 38 yaşım var. Bu torpaqlara yenidən qayıtmaq insan üçün sözlə ifadə olunmaz bir duyğudur".

O, uşaq yaşlarında didərgin düşdüyünü, indi isə valideyn kimi, öz övladları ilə birlikdə qayıtdığını bildirib. "Övladlarımdan birinin üç, digərinin isə altı yaşı var. Onlar mənim yaşaya bilmədiyim günləri yaşayacaq, görmədiyim gözəllikləri görəcəklər. Bu, mənim üçün həm sevinc, həm də təsəllidir", - deyə İ.Nəcəfov əlavə edib.





# Mədəniyyət





● Ədəbi simalar

# Qəlblərdə yaşayan şair

**Yaradıcı insanlar xoşbəxtdirlər ki, zaman-zaman yazdıqları əsərləri ilə daim xalqın yaddaşında yaşayır, həmişə sevilir, tez-tez xatırlanırlar. Tanınmış şair Zeynal Cabbarzadə də belə xoşbəxt insanlardandır. İnsanlar onun yazdığı şeirləri bu gün də böyük həvəslə oxuyur, şairin sözlərinə bəstələnmiş mahnıları maraqla dinləyirlər. Zeynal Cabbarzadə şeirlərinə ən çox mahnılar bəstələnən şairlərdən biridir. Onun sözlərinə 250-dən çox bir-birindən gözəl mahnı bəstələnib.**



Təbiidir ki, belə səadət hər şairə nəsib olmur. Çünki hər yazılan şeirə də mahnı qoşulmur. Deməli, Zeynal Cabbarzadənin yazdığı şeirlər axıcılığı, məna dərinliyi, səs və söz düzümü, ifadə tərzi və başqa müsbət xüsusiyyətləri ilə daim bəstəkarların diqqətini özünə cəlb edib. Buna görə də zaman-zaman görkəmli sənətkarlar Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Ağabacı Rzayeva, Emin Sabitoğlu və başqaları şairin yaradıcılığına üz tutmuş, onun şeirlərinə mahnılar bəstələmişlər.

Beləcə, bu gün də sevə-sevə dinlənilən bir-birindən gözəl "Azərbaycanım", "Neftçilər", "Əziz vətən", "Bakı", "Süreyya", "Badamlı", "Çay mahnısı", "Ay qız", "Sən mənimsən, mən sənin", "Neyləsin", "Alagöz" və başqa mahnılar yaranmışdır. Bu mahnıları dinləməmişdən əvvəl "sözləri Zeynal Cabbarzadənindir" ifadəsini eşidirik. Yəqin ki, bu sözləri gələcək nəsillər də eşidəcək və həmin mahnıları heyranlıqla dinləyəcəklər.

Bu günlərdə 105 yaşı tamam olacaq Zeynal Cabbarzadənin yaradıcılığına yüksək qiymət verən Xalq şairi Rəsul Rza yazmışdır: "Mən Zeynal Cabbarzadənin bir sıra şeirlərini oxuyandan sonra belə qənaətə gəldim ki, Zeynal poetik imkanlarını xəsisliklə açan və bütünlüklə açmamış bir şairdir. Onun elə şeirləri vardır ki, şairin yolu, ümumi şeir yaradıcılığımızda tutduğu mövqe, onun ədəbiyyatımıza gətirdiyi sərvət haqqında var səsimizlə danışmağa bizə haqq verir, daha doğrusu, bunu etməyə borclu olduğumuzu təkidlə bizə xatırladır".

Zeynal Cabbarzadənin ömür yoluna nəzər salanda öyrəndik ki, bütün zamanlarda sevilən şair sadə, amma çoxlarına nümunə olacaq bir ömür yaşayıb. Həm uşaqların, həm də böyüklərin sevimlisi olan Zeynal Cabbarzadə 1920-ci il dekabrın 31-də Bakıda dənizçi ailəsində dünyaya göz açıb. İbtidai və orta təhsilini Bakı şəhərində alıb. Orta təhsilini uğurla başa vurduqdan sonra fəhlə fakültəsində oxuyub. Kiçik yaşlarından ədəbiyyata böyük maraq göstərib. 1937-1941-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsində təhsilini davam etdirib. Ali təhsil aldığı illərdə oxumaqla yanaşı, "Balıq cəbhəsi" və "Qırmızı Kürçaylı" qəzeti redaksiyalarında çalışıb. Bir müddət Şamaxı rayonunun Mədrəsə kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatından dərs deyib.

Almaniyanın keçmiş ittifaqın ərazisinə hücumu nəticəsində Böyük Vətən müharibəsi başlanan il avqustun 1-də səfərbərliyə cəlb edilmiş və 1941-1942-ci illərdə piyada məktəbində hərbi təhsil almışdır. Kursu uğurla bitirdikdən sonra kiçik leytenant rütbəsi ilə 416-cı atıcı piyada diviziyasında hərbi xidmətini davam etdirmişdir. Naursk rayonunda hərbi əməliyyat zamanı döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanmışdır. Aldığı zədə nəticəsində eşitmə və görmə qabiliyyətini itirmişdir. Bir müddət hospitalda müalicə olunmuşdur. 1943-cü ildə xəstəliyinə görə baş leytenant rütbəsi ilə ordu sıralarından tərxis olunmuşdur. Milyonlardan biri kimi iştirakçısı olduğu müharibə onun da həyatına sağalmaz yaralar vurmuşdur. Şair bütün ömrü boyu bu yaraların ağrısını qəlbində hiss etmişdir.

Yaradıcılıq arzuları onun ürəyində hələ kiçik yaşlarından cücərməyə başlamışdır. Gənclik illərindən bədii yaradıcılığa maraq göstərən Zeynal Cabbarzadənin "Puşkin" adlı ilk şeiri keçmiş ittifaqı repressiya dalğası bürüyən 1937-ci ildə dərc edilmişdir. Sonrakı illər isə şair bir-birindən maraqlı şeir, poema və mənzum hekayələr yazmışdır.

Sevilən şair Zeynal Cabbarzadənin yaradıcılığının böyük hissəsi uşaqlara həsr edilib. Şair yuxusuz gecələrinin məhsulu olan əsərləri ilə uşaqların təlim-tərbiyəsinə, mənəvi-əxlaqi dəyərinin daha da zənginləşməsinə, dünyagörüşlərinin formalaşmasına xidmət etmişdir. Onun uşaqlar üçün yazdığı şeirlərindən xoş avaz, sevgi, məhəbbət duyulur. Buna görə də uşaqlar bu şeirləri böyük maraqla oxuyurlar. Şairin "Bahar gəlir", "Səhər-səhər", "Quzum", "Quşlar", "Qatar gəlir" və başqa şeirlərində bu müsbət cəhətləri aydın görmək mümkündür.

Zeynal Cabbarzadənin yalnız şeirlərini deyil, poema və mənzum nağıllarını da uşaqlar böyük maraqla oxuyurlar. Çünki sair bu əsərlərdəki hadisələri olduqca maraqlı bir süjet xətti üzərində qurub. Qələmə aldığı əhvalatları zəngin bədii boyalarla təsvir edib. Balaca oxucular da poema və mənzum nağılları həvəslə oxuyur, əsərdə baş verən hadisələrin hansı sonluqla bitəcəyini səbirsizliklə gözləyirlər. "İçərişəhər", "Qəhrəman oğlu", "Bizim metro", "Uca dağlar başında", "Alı və şah", "Çinar", "Lovğa göbələk", "Meşədə" və başqa poemaları, mənzum nağılları bu gün də sevilə-sevilə oxunur.

Şair iştirakçısı olduğu döyüşlərdən yaranan təəssüratlarını da nəzmə çəkib, cəbhə şeirlərini yazıb. Qan və ölüm qoxulu bu şeirlər 1946-cı ildə işıq üzü görmüş "Xanıman" adlı ilk kitabında toplanıb. "Mənim qardaşım", "Təzə evin uşaqları", "Ata və oğul", "Kamranın yuxusu", "İlk dərs səhəri", "Yatın, balalar", "Uşaqlar, ay uşaqlar" və başqa şeirlərində də şair sonsuz sevgisini uşaqlara bildirib, onların xoşbəxt boya-başa çatmaları üçün arzu və istəklərini poetik şəkildə ifadə edib.

Zeynal Cabbarzadə yalnız şeirləri ilə deyil, həmçinin kinofilmlərə yazdığı mahnı mətnləri ilə də şöhrət qazanmışdır. Xatırladaq ki, bu gün də tamaşaçıların böyük maraqla baxdıqları "Ögey ana" filmində "İnşaatçılar mahnısı", "İsmayılın mahnısı", "Onu bağışlamaq olarmı?" filmində "Gəldi bahar", "Lirik mahnı" və başqa mahnıların mətnləri Zeynal Cabbarzadənin yaradıcılığının məhsuludur.

Z.Cabbarzadənin qələmindən bir-birindən maraqlı, dəyərli əsərlər meydana gəlib. Şair yaradıcılıq illərini həyatının ən gözəl anları kimi təsvir edərək yazırdı:

*Ürəyim dəryadır, çağlayır coşur,*
*Gül-çiçək gətirir bahardan soraq.*
*Təbiət eşqimə nəğmələr qoşur,*
*Xoşdur bu dünyada bəxtiyar olmaq.*

Azərbaycan Yazıçılar Birliyinin üzvü olan görkəmli şair Zeynal Cabbarzadə həm də "Natəvan" klubunun müdiri, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi, "Pioner" jurnalının məsul katibi vəzifələrində işləmişdir. Yaradıcılığını yüksək qiymətləndirən dövlətimiz 1972-ci ildə şair Zeynal Cabbarzadəyə Azərbaycan SSR "Əməkdar mədəniyyət işçisi" adı vermişdir. Həmçinin xidmətlərinə görə müxtəlif illərdə bir sıra medal və fəxri fərmanlarla təltif edilmişdir.

Tanınmış şair Zeynal Cabbarzadə 1977-ci il yanvarın 20-də, soyuq bir qış günündə dünyasını dəyişmişdir. Anadan olmasının 105 illiyi tamam olan şair ürəklərdə, qəlblərdə yaşayır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Musiqi dünyası

# Sənətkar ömrü

**Musiqi sevgisi uşaqlıq illərindən könlünə yol tapıb. Ruhunu pərvazlandıran nəğmələri qəlbi ilə dinləyib. Onların nə zaman yaddaşına köçdüyündən xəbəri belə olmayıb. Sonra asta-asta həmin mahnıları zümzümə etməyə başlayıb. Elə doğmaları, yaxınları Süleyman Zeynalovun məlahətli, bənzərsiz səsinin olduğunu da belə biliblər...**



Müsahibimiz yetmiş üç illik ömrünün əlli ilini musiqi sənətinə həsr etmiş müğənni, Əməkdar artist Süleyman Zeynalovdur. O, sənədlərdə qeyd olunduğu kimi, 1953-cü ildə deyil, 1952-cü ildə iyulun 20-də Bakıda dünyaya gəlib. Valideynləri pedaqoq olub. Atası da, anası da riyaziyyat müəllimi idi. Anası Yasamal rayonunda 161 saylı orta məktəbdə direktor müavini, atası isə Məhəmmədəli kəndində məktəb direktoru işləyib. Atasını xatırlamır. O, səkkiz aylıq olanda atası cavan yaşında dünyasını dəyişib. Anası isə səksən səkkiz il ömür sürüb.

Süleyman Zeynalov musiqini çox sevən bir ailədə böyüdüyünü deyir: "Atam əslən novxanılı idi. Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi partizan Mehdi Hüseynzadə atamın bibisi oğlu olub. O da, dayım Hüseynağa İbrahimov da Böyük Vətən müharibəsində həlak olublar. Mehdi Hüseynzadənin rəssamlıq bacarığı olub. Atamın bibisi nəvəsi Aqşin Əlizadə tanınmış bəstəkar, Xalq artisti idi. Yəni bizim nəsildə incəsənətə hər zaman yüksək maraq, sonsuz sevgi olub. Valideynlərim riyaziyyatçı olsalar da, musiqinin, incəsənətin vurğunu idilər. Bacılarım pianoda çalırdılar".

## Ürəkdən gələn səs

O, ailənin sonbeşik övladıdır. Dörd uşaq - iki bacı, iki qardaş olublar. Kədərlə deyir: "İndi ikimiz - böyük bacım və mən qalmışam. Qardaşımla bacım dünyadan köçüblər".

Orta təhsilini Yasamal rayonunda yerləşən Cəfər Cabbarlı adına 161 saylı məktəbdə alıb. Məktəb yoldaşları, müəllimləri onun gözəl səsi olduğunu biliblər. Süleyman Zeynalov orta məktəbdə oxuyanda dərnəklərə gedib. Həmsöhbətimiz o illərdən söz açır: "Kiçik yaşlarından başlayaraq musiqi mənim yol yoldaşım, qəlb sirdaşım oldu. Orta məktəbdə oxuyanda tez-tez Əbilov adına kluba gedirdim. Üçüncü sinifdən on birinci sinfədək görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Əfsər Cavanşirovun rəhbərlik etdiyi Azərbaycan Televiziyasının "Bənövşə" uşaq xorunun solisti olmuşam. 17-18 yaşlarında idim. Bir gün dayanacaqda avtobus gözləyə-gözləyə öz-özümə zümzümə edirdim. Orada dayanan xanımlardan biri əlini çiynimə qoyub adımı soruşdu. Sonra vizit kartını mənə uzadıb, orada yazılan ünvana gəlməyimi söylədi. Vizit kartında Asəf Zeynallı adına Musiqi Məktəbinin adı yazılmışdı. Səhəri gün məktəbə yollandım. Həmin xanımı axtardım. Bir otağı nişan verdilər. İçəri girəndə onu royal arxasında oturan gördüm. Adı Pərixanım, soyadı Behbudova idi. Onun vokal müəllimi olduğunu da o gün öyrəndim. Pərixanım müəllim məni dinlədi. Bu təsadüf, demək olar ki, həyatımı dəyişdi. Sənədlərimi Asəf Zeynallı adına Musiqi Məktəbinə verdim və qəbul olundum".

O zaman istedadlı gəncdən köməyini əsirgəməyən Pərixanım Behbudovaya rast gəlməsini Süleyman Zeynalov bu gün həyatının ən xoş xatirələrindən biri kimi yada salır. Asəf Zeynallı adına Musiqi Məktəbində vokal müəllimi də Pərixanım Behbudova olub. Ondan musuqi sənətinin incəliklərini öyrənib.

Süleyman Zeynalov deyir: "Asəf Zeynallı adına Musiqi Məktəbinin Vokal şöbəsini bitirdim. İki il hərbi xidmətdə oldum. Sonra təhsilimi Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) davam etdirdim".

Süleyman Zeynalov 1974-cü ildə Heydər Əliyev adına Sarayda Mədəniyyət Nazirliyi tərəfindən keçirilən "İstedadları axtarırıq" müsabiqəsinin qalibi olub və Mədəniyyət Nazirliyinin diplomuna layiq görülüb.

O, 1974-cü ildə professional səhnəyə qədəm qoyub. Sənət yolu ilk addımlarından uğurlarla zəngin olub. 1977-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının xor kapellasının solisti olub. Müğənni daha sonra Azərbaycan Dövlət Konsert Birliyinin solisti kimi fəaliyyət göstərib. O, dövrün məşhur sənətkarları ilə uzun müddət bir yerdə çalışıb, eyni səhnəyə çıxıb. Süleyman Zeynalov deyir: "1978-ci ildən başlayaraq, iyirmi iki il Azərbaycan Dövlət Qastrol Konsert Birliyinin solisti olmuşam. Böyük sənətkarla işləmişəm. Şövkət Ələkbərova, Sara Qədimova, Gülağa Məmmədov, Əbülfəz Əliyev, Elmira Rəhimova, Natəvan Şeyxova, İslam Rzayev, Arif Babayev, Tükəzban İsmayılova, Mirzə Babayev və daha neçə-necə böyük sənətkarla səhnəyə çıxmışam. Görkəmli sənətkarlardan həmişə öz sənətim barədə xoş sözlər eşitmişəm, onların xeyir-dualarını almışam. 1990-cı ildə "Bakı" qəzetində mənim haqqımda "Ürəkdən gələn səs" adlı böyük məqalə dərc olundu. Həmin məqalədə mənim sənətim haqqında Xalq artisti Tofiq Quliyev belə yazmışdı: "Şövkət Ələkbərova, Gülağa Məmmədov sənəti heç vaxt ölməyəcək və əbədi yaşayacaq, çünki bu sənətin gənc və istedadlı Süleyman Zeynalov kimi davamçıları var". Bu, mənim ifaçılıq sənətimə verilən böyük qiymət idi".

Süleyman Zeynalov "Təranə" gənclik ansamblının da solisti olub. O, Əməkdar incəsənət xadimi Gülarə Əliyevanın rəhbərlik etdiyi, dövrünün çox sevilən, məşhur olan "Dan ulduzu" instrumental ansamblının solisti olub.

## Əlli il sənətə sədaqətlə...

Müğənni görkəmli sənətkar Gülarə Əliyevanın rəhbərlik etdiyi "Dan ulduzu" instrumental ansamblının və Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Ansamblının solisti olduğu vaxtları da minnətdarlıq hissləri ilə xatırlayır: "Azərbaycan Dövlət Televiziyasının kollektivi olan bu ansambllarla dövlət tədbirlərində iştirak etmişəm. Mən dövlət televiziyasının yetirməsiyəm. Mənim ifamda 50-dən çox mahnı televiziyanın "Qızıl fond"unda saxlanır. İki dram tamaşasında - Mirzə İbrahimovun "Kəndçi qızı" əsərinin tamaşasında Xalq artisti Sevda İbrahimovanın, İlyas Əfəndiyevin "Büllur sarayda" tamaşasında Oqtay Kazımının bəstəsi olan mahnılar mənim ifamda səslənib. Xalq artisti Şəfiqə Axundovanın "Gəlin qayası" operasında balaca çoban, rejissor Ceyhun Mirzəyevin ekranlaşdırdığı "Fəryad" filmində Şarl Aznavur rolunu oynamışam".

Süleyman Zeynalov deyir ki, müğənnilik heç vaxt onun üçün təkcə sevdiyi sənət olmayıb, həm də vətənə xidməti olub.

Birinci Qarabağ müharibəsi illərində o da bir sənətkar kimi könüllü olaraq döyüşlərdə iştirak edən yurddaşlarının yanında olub. Süleyman Zeynalov həmin illəri yada salır: "Birinci Qarabağ müharibəsində demək olar ki, cəbhənin bütün istiqamətlərində olmuşam. Sənət yoldaşlarımla bərabər döyüşçülərimizi ruhlandırmaq üçün müharibənin qızğın vaxtlarında səngərlərdə, hərbi hissələrdə konsertlər vermişik. Vətən haqqında oxuduğum mahnılar gənclərə vətənpərvərlik hissi aşılayır. Mən Prezident İlham Əliyevin apardığı düzgün, uzaqgörən daxili və xarici siyasəti həmişə dəstəkləmişəm. 2001-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüyəm".

Süleyman Zeynalov Oqtay Kazımının "Səninlə olsam", Cahangir Cahangirovun "Füzuli kantatası", Əfsər Cavanşirovun "İlk görüşlər", Tofiq Quliyevin "Azərbaycana gəlsin", Şəfiqə Axundovanın "Bu torpağa borcluyam" və başqa ölməz mahnıların ən gözəl ifaçılarından biri olub.

Süleyman Zeynalov Azərbaycan mədəniyyətinin və musiqisinin inkişafında göstərdiyi xidmətlətə görə, Prezident İlham Əliyevin sərəncamı ilə Əməkdar artist fəxri adına layiq görülüb.

Həyat onu çox sınaqlara çəkib. Ömür-gün yoldaşı ağır xəstəlikdən cavan yaşında vəfat edib. Süleyman Zeynalov kədərlə danışır: "İkinci dəfə ailə qurmadım. İki övladımı - oğlumu və qızımı özüm tək boya-başa çatdırdım. Onları vətənə layiq, ağıllı, kamallı, tərbiyəli övladlar kimi böyütdüm. Qızım müəllimdir. Oğlum İdman Akademiyasını bitirib. Hazırda ürək xəstəliyindən müalicə aldığı üçün işləmir".

Özünün səhhətində də problemlər var. Süleyman Zeynalov deyir: "Mən gəncliyimi, sağlamlığımı Azərbaycan mədəniyyətinin inkişafına qurban vermişəm. Səhhətimə heç diqqət yetirmirdim. İndi həmin yorğunluqlar yavaş-yavaş üzə çıxır. Ayaqlarımda xəstəlik yaranıb. Hazırda təqaüddəyəm. Efirlərə çıxırdım. Altı aydır səhhətimlə əlaqədar olaraq çıxmıram. Yaşlı sənətkarlardan biri də mənəm... Yaradana minnətdaram ki, yaşayıram və bu ömrü mənə verir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və BMT-nin Sivilizasiyalar Alyansı arasında əməkdaşlıq müzakirə edilib



Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Anxel Moratinos arasında ikitərəfli görüş keçirilib. Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında mövcud əməkdaşlıq münasibətləri və bu əməkdaşlığın gələcək inkişaf istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Növbəti il Bakı şəhərində UNAOC-un tərəfdaşlığı ilə keçirilməsi planlaşdırılan VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili məsələləri müzakirə olunub. Eyni zamanda BMT-nin Sivilizasiyalar Alyansının XII Qlobal Forumunun 2027-ci ildə Azərbaycanda keçirilməsi təşəbbüsünün UNAOC Dostlar Qrupu ilə birgə müzakirə edilməsi barədə razılıq əldə edilib.

Tərəflər "Bakı Prosesi" çərçivəsində formalaşmış tərəfdaşlığın beynəlxalq mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynadığını vurğulayıblar. Müzakirələr zamanı Azərbaycanın UNAOC-la birgə həyata keçirdiyi təşəbbüslər, o cümlədən əvvəlki illərdə təşkil olunmuş beynəlxalq forumlar, cari dövrdə keçirilən tədbirlər və növbəti mərhələdə planlaşdırılan forumlar barədə fikir mübadiləsi aparılıb. Bu platformaların multikultural dəyərlərin təşviqi, dini və mədəni dözümlülüyün möhkəmləndirilməsi baxımından əhəmiyyəti xüsusi qeyd edilib.

Görüşdə həmçinin qlobal çağırışlar fonunda mədəni diplomatiyanın rolu, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

Tərəflər Azərbaycan ilə UNAOC arasında əməkdaşlığın bundan sonra da qarşılıqlı hörmət və ortaq dəyərlər əsasında inkişaf etdirilməsinin vacibliyini ifadə ediblər.

# Azərbaycan Əlcəzairdə keçirilən beynəlxalq sərgidə təmsil olunub

Əlcəzairdə Misirin bu ölkədəki səfirliyinin və orada akkreditə olunmuş səfirlərin xanımlarını bir araya gətirən Diplomatların Xanımlarının Assosiasiyasının (AFDA) təşkilatçılığı ilə beynəlxalq sərgi və dəfilə təşkil olunub.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Bəhreyn, Küveyt, Malayziya, Rusiya və bir sıra Afrika ölkələrinin nümayəndələrinin qatıldığı tədbirdə hər kəs öz musiqisini, bayrağını və milli geyimlərini təqdim edib.

Tədbirdə ölkəmizi Əlcəzairdə yaşayan soydaşımız Xumar Nəbiyeva və Diaspor Gənclərinin IV Yay Düşərgəsinin iştirakçısı Şəms Nəbiyeva təmsil ediblər.

# Bakıda Özbəkistanın Mədəniyyət Günləri davam edir



Bakıda Özbəkistanın Mədəniyyət Günləri davam edir. Bu incəsənət bayramı xalqlarımızın yaxınlığını və ortaq mədəni əlaqələrin zənginliyini bir daha nümayiş etdirir. Proqram çərçivəsində növbəti tədbir Heydər Əliyev Sarayında keçirilən "Navruz" Özbəkistan Milli Rəqs Ansamblının konserti olub.

Tamaşaçılara Özbəkistanın tanınmış incəsənət xadimlərinin, Özbəkistan Dövlət Simfonik Orkestrinin və "Navruz" ansamblının iştirakı ilə zəngin konsert proqramı təqdim edilib.

Simfonik orkestrin müşayiəti ilə dahi özbək şairi Əlişir Nəvainin "Xəmsə"sindən "Fərhad və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", həmçinin "İskəndərnamə" əsərlərindən ilhamlanan musiqili-xoreoqrafik kompozisiyalar səsləndirilib.

Konsertin ikinci hissəsində ifaçılar Özbəkistanın müxtəlif bölgələrinin koloritini əks etdirən milli rəqslər və mahnılar vasitəsilə ölkənin zəngin ənənələrini nümayiş etdiriblər.

Gecə çərçivəsində Özbəkistanın Əməkdar artisti, özbək müğənnisi Mohiçehra Şomurodova da çıxış edib. Onun ifasında "Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnısı səsləndirilib. Bundan əlavə, səhnədə Özbəkistanın Əməkdar artistləri Tulkin Jabborov və Yulduz Turdiyeva çıxış ediblər. Y.Turdiyeva özbək kompozisiyaları ilə yanaşı, Azərbaycan mahnısı olan "Qarabağ"ı da ifa edib.

# Məcburi audit subyektləri rəhbərlərinin nəzərinə!

**Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin və müvafiq nizamnamə tələblərinə uyğun olaraq aşağıda göstərilən məcburi audit subyektləri hər il maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:**

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsi |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli 779-IQ saylı Qanununun 91.4-cü maddəsi |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli 779-IQ saylı Qanununun 107.6-cı maddəsi |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələri |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsi |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələri |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ saylı Qanununun 16-cı və 17-ci maddələri |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsi |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsi |
| 10. | Publik hüquqi şəxslər | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 06 iyul tarixli 173 nömrəli fərmanı ilə təsdiq edilmiş Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsinin 7.4-cü maddəsi |
| 11. | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsi |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ saylı Qanununun 5.4-cü maddəsi |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununun 13-cü maddəsi |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ saylı Qanununun 61-ci maddəsi |
| 15. | Nizamnamələrində (Əsasnamələrində) auditdən keçmələri tələb olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman, sərəncamları və digər sənədlər |

**İzahedici qeydlər:**

- Qanunvericiliyin tələblərinə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan iqtisadi subyektlər, qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri tələb olunan qurumlarda həyata keçirilməli olan, habelə Səlahiyyətli Dövlət Orqanları tərəfindən aparılan audit məcburi, digər hallarda isə könüllüdür.

- Yuxarıdakı siyahıda qeyd olunan məcburi audit subyektlərindən başqa digər iqtisadi subyektlər də öz təşəbbüsləri ilə maliyyə hesabatlarının düzgünlüyünü təsdiq etdirmək və digər auditor xidmətlərindən istifadə etmək üçün könüllü olaraq müstəqil (kənar) auditor cəlb edə bilər.

- Auditi aparılan iqtisadi subyektin şəxsi əmlak mənafeyi, onun iqtisadi subyektinin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, iqtisadi subyektin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, həmin iqtisadi subyektdə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə, auditorlara həmin iqtisadi subyektlərdə audit aparmaq qadağandır.

- Yeni dövrün çağırışları nəzərə alınmaqla dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyatın inkişafı naminə aparılan ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində müstəqil (kənar) audit maliyyə şəffaflığının əsas təminatçısı kimi, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, maliyyə və vergi intizamının möhkəmləndirilməsində, korrupsiyaya və cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm rola malik olmaqla yanaşı, auditorlar tərəfindən təqdim olunan auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə fəaliyyətində yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;

**- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 sentyabr tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "e-mühasibat" informasiya sistemi haqqında Əsasnamənin 3-cü "Sistemin altsistemləri" bölməsinə uyğun olaraq məcburi audit subyektləri tərəfindən aşağıdakılar təmin edilməlidir:**

**3.2.1. kommersiya təşkilatlarının maliyyə hesabatları altsistemi vasitəsilə "Mühasibat uçotu haqqında" Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə, habelə həmin Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi barədə məlumatların, məcburi audit subyektləri tərəfindən isə maliyyə hesabatlarının məcburi auditini keçirməsi barədə auditor rəyinin elektron qaydada göndərilməsi.**

**3.2.2. publik hüquqi şəxslərin maliyyə hesabatları altsistemi vasitəsilə "Mühasibat uçotu haqqında" Qanunun 12-1.8-ci maddəsində nəzərdə tutulmuş publik hüquqi şəxslər tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının (auditor rəyi ilə birlikdə), habelə həmin Qanunun 12-1.9-cü maddəsində nəzərdə tutulmuş publik hüquqi şəxslər tərəfindən (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla) illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi barədə məlumatların elektron qaydada göndərilməsi.**

**Hörmətli təsərrüfat subyektlərinin rəhbərləri!**

- İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz:
- **https://audit.gov.az/Az/page/5** (auditor təşkilatları)
- **https://audit.gov.az/Az/page/6** (sərbəst auditorlar)
- Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır. (Əlaqə telefonları: (012) 564-83-66 ; (012) 498-28-55 (dax.:109) (050-612-04-73; E-mail: **auditinteshkili@audit.gov.az** - Vasif Cavadov).

***Azərbaycan Respublikasının Auditorlar Palatası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az



OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərpoçt" MMC* (012) 598-49-55, (051) 225-02-13
*"Azərmətbuatyayımı" ASC* (012) 441-19-91, (050) 322-33-17
*"Qaya" firması* (012) 566-77-80, (050) 214-40-53
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.12.2025-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


# IDEA Sabirabad və Cəlilabad rayonlarında kütləvi ağacəkmə aksiyaları təşkil edib





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyaları Sabirabad və Cəlilabad rayonlarında təşkil edilib.**

IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, birliyin könüllülərinin iştirakı ilə Sabirabad rayonunun Məmişlər kəndi ərazisində 1250 ədəd sərv, Şərq çinarı və meliya ağacı əkilib. Həmçinin Cəlilabad rayonunun Kazımabad kəndində keçirilən aksiya zamanı 600-dən çox sərv ağacı əkilib. Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

"Yaşıl marafon" çərçivəsində 2025-ci ilin payız və 2026-cı ilin yaz əkin mövsümləri ərzində ölkə üzrə 2 milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov və katibin Xidmətinin əməkdaşları

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Zakir Qaralova qardaşı

**TAHİR QARALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov və komitənin üzvləri - Azər Badamov, Əli Məsimli, Heydər Əsədov, Tahir Mirkişili, Məşhur Məmmədov, Aydın Hüseynov, Vüqar Bayramov, Əlibala Məhərrəmzadə, Rövşən Muradov, Müşfiq Cəfərov, Ziyad Səmədzadə, Zaur Şükürov

**VAHİD CÜMŞÜD OĞLU AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollekitivi Zakir Qaralova qardaşı

**TAHİR QARALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Əməkdar elm xadimi

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**ELMAN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar dövlət qulluqçusu

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Aparatın əməkdaşı Əlizamin Xamedova əzizi

**İSA XAMEDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Əməkdar dövlət qulluqçusu və Əməkdar elm xadimi

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4120
Sifariş 2539
Qiyməti 60 qəpik